# SEYRAN SƏXAVƏT

# HEKAYƏLƏR

# İT İNTERVÜSÜ

**“İnsan yalnız ölümə yaltaqlana bilmir…”**

İtin dediklərindən

Jurnalistlik fakültəsinin birinci kursunda oxuyurdum. Sentyabrın əvvəlləri idi. Günortaüstü dərsimiz qurtaran kimi özümü verdim universitetin yaxınlığındakı redaksiyaya, düz baş redaktorun otağına girdim.

- Jurnalistəm, - dedim, sonra salam da verdim. Baş redaktor məni təpədən dırnağa süzüb, - məqalə gətirmisən? – dedi.
- Yox…
- Bəs onda nəyə gəlmisən?

- İstəyirəm ki, sizin qəzetlə əməkdaşlıq eliyəm… sonra da yavaş-yavaş gedəm qabağa.
Baş redaktorun dodağı qaçdı: - Nədən yaza bilərsən?
- Hər şeydən.
- Axı, sən hələ cavansan… adamlarla dil tapmağı bacararsanmı? Axı hər adamın öz dilini tapasan gərək…
- Mən it dili də bilirəm, - tələsik cavab verdim.

- Onda get itdən bir intervü götür, - redaktor da tələsik dedi, gözünü gözümə zillədi, - xoşuma gəlsə çap eliyərəm, - yenə gözünü gözümdən çəkmədi.
- Yaxşı, - mən qəfil razılaşdım, - bir həftəyə gələrəm, - deyib qapıdan çıxdım.
Baş redaktor arxadan məni səslədi. Geri qayıtdım, elə qapının ağzındaca ayaqüstü məndən soruşdu:
- Doğrudan sən it dili bilirsən?
- Bilməsəm demərəm ki…

Baş redaktor bir az da mənə diqqətlə baxıb duruxdu, elə bil ki, mənə yazığı gəldi, soruşdu:
- Onda de görüm, it dilində Vətənə nə deyirlər?
- Leş…
- Nə?!

- L-E-Ş, – mən də onun gözünün içinə baxdım, - Leş! Başqa sualınız yoxdursa mən gedim… - qapıdan çıxa-çıxa soruşdum.
- Gözləyəcəyəm ha… - Baş redaktor sağ əlini yuxarı qaldırdı.

- Gələcəm ha…
Ordan bir başa məhləmizə gəldim, hər yanı ələk-vələk elədim. Qıllı Köpəyi tapa bilmədim. Düzünü boynuma alım ki, bir az da ruhdan düşdüm, ancaq o qədər də yox. Birdən yadıma düşdü ki, Qıllı Köpək köhnə qəbristanlıqda yaşayır – ora üz tutdum – orda da yox idi. Qıllı Köpək bir parça yağlı əppək olub göyə çəkilmişdi. Başımı qaldırıb bir göyə də baxdım, şəhərin şimal tərəfində, yerlə göyün arasında, qara, zəhmli bir bulud dayanmışdı və bulud elə o Qıllı Köpəyə oxşayırdı. Xeyli o buluda tamaşa elədim – itin başı, boynu, quyruğu… elə bil özü idi ki, durmuşdu.
- Salamunəleyküm.

- Salam… - sevindim, - ay dayı, dostun hardadı, - dedim.
- Mənim Qıllı Köpəkdən başqa dostum yoxdu, bala, - dedi.
- Elə mən də onu deyirəm də…

- Gəl… - Kişi köhnə qəbiristanlığa üz tutdu, mən də düşdüm onun dalınca.
Bu kişi ilə Qıllı Köpəyi bu tərəfdə olanların hamısı həmişə bir yerdə görüblər və buna da adət eləyiblər. Hamı elə bilir ki, Qıllı Köpək elə bu kişinindi – ancaq Qıllı Köpək heç kəsin deyildi və özünə məxsus idi.

Birdən kişi dayandı, - istiləndim, - dedi və qurşağa qədər soyunub üzü üstə aşmış baş daşının üstündə oturdu, - harda olsa indi gələr, - dedi, - cındır və kirli torbadan bir parça quru çörək çıxarıb gəvələməyə başladı.

Birdən gözüm kişinin qurşaqdan yuxarı lütlənmiş bədəninə sataşdı, bayaqdan heç fikir verməmişəm, «bu kişinin bədəni nə yaman qıllı imiş… tüklər o qədər sıx idi ki, əti də görükmürdü – elə bil əyninə zil qara gödəkcə geymişdi – qıllı gödəkcə… Bəlkə elə ona görə də Qıllı Köpəklə dostdu, hə… bəlkə elə qohumdular – Qıllı Köpək… Qıllı Kişi».

Elə həvəssiz udqunurdu ki, Qıllı Kişi – deyəsən çörək çox qur idi. Deyəsən, Qıllı Kişinin oturduğu daşın böyründə Qıllı Köpək yatırdı, çünki torpaq it şəkli almışdı – bir az da hamarlanmışdı.
Qıllı Kişi ora-bura boylandığımı hiss edib dedi:

- Darıxma, harda olsa indi gələr, vaxtıdı, - чındır və kirli torbasından bayaq özü yediyindən də böyük bir çörək parçası çıxardıb böyrünə qoydu, deyəsən itin payı idi.
- Sənin qohum-əqrəban yoxdu? – Qəfil soruşdum.

Üzümə xeyli tamaşa eliyəndən sonra ağır-ağır ҹavab verdi:
- Bu itdən başqa heç kəsim yoxdu... – İtin yerinə baxdı, - ilin on iki ayını bir yerdə oluruq, - dedi, - mehrimizi bir-birimizə salmışıq... o biri itlərə qoşulmur, tək-tənha gəzib dolaşır, axşamlar da burda görüşürük. Mən belə it görməmişəm – lap adam kimi dil bilir...

Gözaltı Qıllı Kişiyə baxdım - əynindəkilər paltardan çox çörək torbasına oxşayırdı. Elə bil Qıllı Kişinin özünü də ҹındır və kirli bir torbaya salmışdılar – anҹaq torbanın ağzını bağlamışdılar – başı qalmışdı çöldə - yoxsa ölərdi və bəlkə də ҹanı qurtarardı, Qıllı Köpək də o əbədi ayrılıqdan it kimi sarsılıb qalardı ulaya-ulaya...

- Xeyir olsun? – Qıllı Kişi başını qaldırmadan soruşdu, - biz dostuq, bəlkə, mən...
- Yox, yox... – tez etiraz elədim, - şəxsən özünü görməliyəm.
- Onsuz da bizim bir-birimizdən gizli sirrimiz yoxdu. Əgər onu aparmağa gəlmisənsə, getməz, - bir an dayanıb daha inamla dedi, - heç hara getməz, - elə bil özünün dediyi bu sözlərdən qürrələndi.

Qıllı Kişinin qabağında çöməlmə oturub dedim:
• Gəlmişəm ondan intervü almağa.
• Dostum olduğuna görə demirəm – çox ağıllı itdi.
• İstəyirəm qəzetə verəm onu, görən şəkli var?

• Goru var ki, kəfəni də ola... aparıb çəkdirərsən də...
• Mənimlə gedər?
• Bizi bir yerdə görsə gedər, - çox inamla dedi, - budu gəlir...

Qıllı Köpək gəldi, dostunu iylədi, qabağında quyruq buladı, darıxdığını bildirdi. Məni heç saya da salmadı – elə bil heç mən burda yox idim. Lap axırda gözlərini mənə zillədi, quyruq-zad bulamadı, çöküb dostuna baxdı, yenə quyruq buladı, dostu da ona gülümsədi. Bütün bunlardan sonra Qıllı Köpək öz yerində çömәlib təzədən gözünü mənə zillədi ki, yəni buyur görək.

Mən də keçib bir daşın üstündə oturdum, qələm-kağız çıxardım:
• Özünüzü təqdim edin...

• Ham! Ham! Ham!
• İtov İt İt oğlu. – Bunu da Qıllı Kişi dedi – lap tərcüməçi kimi.
• Mən başa düşürəm, sən narahat olma... – Bunu da mən dedim və sonra üzümü yenə itə tutdum:
• Peşəniz?

• Veyil-veyil gəzmək.
• Təvəllüdünüz, doğulduğunuz yer?
• Bizdə heylə şey olmur ha, biz itik.

• Ay oğul, sən bunnan adam kimi danışma ee, it kimi danış, itə aid suallar ver, - Qıllı Kişi söhbətə qarışdı, - bir də gördün quyruğunu atdı belinə çıxdı getdi.
İt və itin dostu məni çaşdırmışdı.

Susdum. Neçə il idi ki, bu qəbiristanlıqda ölü basdırmırdılar, elə ona görə də bura köhnə qəbiristanlıq deyirdilər. Sükut qılınc kimi kəsirdi, mən elə indicə anladım ki, köhnə qəbiristanlığın sükutu təzə qəbiristanlıqdakından daha dərin və xoflu olurmuş. Bunları fikirləşə-fikirləşə verəcəyim sualı da axtarırdım. Və bu iki daşın arasında onu da fikirləşirdim ki, “necə bu itin yanında biabır oldum ee...”.

Hələ bu azmış kimi baş redaktorun sözü yadıma düşdü: Gözləyəcəyəm ha...
Ağlıma gələn ilk sualı verdim: - Adamlara münasibətiniz?
- Açıq deyim?

- Açıq.
- İnciməzsiniz ki?
- Yox... – Çaşan kimi oldum, ancaq özümü o yerə qoymadım. – bəs dostunuz incisə? – dedim və başımla Qıllı Kişini göstərdim, - axı o da adamdı.
- O adam deyil... dostumdu...

Çönüb Qıllı Kişiyə bir də baxanda gördüm ki, itin cavabı onun xoşuna gəlib – təkləndiyimi hiss etdim və bu, mənə çox ağır gəldi.
İt darıxdı, burnunu Qıllı Kişinin üzünə sürtən kimi o, ayağa durdu, geyindi, oturdu daşın üstündə.

Cındır və kirli torbanın içindəki kişi bir itə, bir də mənə baxdı. Mən gözümü ondan yayındırıb onun yanındakı cındır və kirli çörək torbasına baxdım. Vallah, dəqiq deyə bilmirəm, mənə elə gəldi ki, torba durduğu yerdə tərpəndi, elə bildim ki, torbanın içində

Qıllı Kişinin balası var və torbanı tərpədən də odu. Gözümü cındır və kirli torbadan çəkib tamam başqa tərəfə baxdım: qəbiristanlıqdı də, bu dəfə gözümə balaca, qəşəng uşaq qəbri sataşdı – bu qəbir Qıllı Kişinin cındır və kirli torbası boyda olardı. Baş daşı isə çox böyük idi – uşağın balaca qəbrinə də, elə özünə də ağırlıq eləyirdi – ürəyimdə bu ağırlığa etiraz etdim:

“Uşaq qəbrinin baş daşı gərək elə uşağın özü boyda olsun... Axı, niyə ayrıca uşaq qəbiristanlığı olmasın?.. Burda da balaca-balaca, toppuş-toppuş uşaq qəbirlərinə

böyük-böyük qəbirlər böyük-böyük nəzarət eləyirlər və uşaq qəbirlərinin azadlığını əllərindən alırlar – bəlkə elə uşaq qəbirləri oynamaq istəyir...”

Bir də Qıllı Kişinin cındır və kirli torbasına baxdım və bu dəfə torbanın tərpəndiyini gözümlə gördüm – inandım ki, torbanın içində uşaq var və bu uşaq da, daha böyük cındır və kirli torbanın içindən başı çıxmış Qıllı Kişinin balasıdı.

İt səsinin yoğun yerinə salıb bir ağız hürməsəydi, hələ bu xəmir çox su aparacaqdı – yəni mən gec “ayılacaqdım”.
- Adamlara münasibətiniz...
- Adamlar qudurub, - it cavab verdi.

- Axı, qudurmaq it peşəsidi – it qudurar, adam yox...

- Qudurmuş adam qudurmuş itdən min dəfə quduz olur. Biz itlər tək-tək qudururuq, siz isə... Bir də gördün bir ölkənin adamları qudurdu cumdu o biri ölkənin üstünə... Adamları yer üzünə bəla göndəriblər. – Mırıldadı. – Siz bizi də aldatmısınız, - dişlərini qıcıyıb hürdü. – Siz bizi də aldatmısınız...
- Biz?

- Siz... Biz canavar nəslindənik, eşidirsən, ay adam, canavar nəslindən. Qabağımıza sür-sümük atdınız, öyrəşdirdiniz özünüzə, sonra da yiyə durmadınız, saldınız bizi çöllərə. Yal verdiniz, biz də başladıq yala hürməyə... yala hürə-hürə qurd oğlu qurd çönüb oldu it oğlu it...
- Tamah sizə güc gəlib də, nəfsinizi saxlaya bilməmisiniz!

- Düz sözə nə hürəsən, düzdü. Nəfsimizə görə nəslimizdən keçdik. – Mırıldadı. – Adam əlində sümük görən tənbəl, nəfsli canavarların hamısı gəlib adamın qapısında it oldu. Əsl canavarlar isə hələ indi də dağlarda, meşələrdə şahlıq eləyirlər. Bir dənə bədəsil canavar tapmazsan – canavar elə canavardı. Təkcə biz itlər nəslimizə satqın çıxdıq, axırda da gəlib it olduq.

Bir canavarın dərisi dünyanın bütün itlərinə dəyər; canavar dərisidir, bilirsən ki, bunun üçündə qurd oğlu qurd olub.

Bu sözlərdən sonra gördüm ki, itin gözlərindən yaş axır – it ağladı, ağladı və sonra gəlib gözlərini dostunun pırpız saçlarına və tüklü üzünə sürtdü – gözünün yaşını silirdi. Sonra da üzünü göyə tutub bir-iki ağız uladı. Qıllı Kişi sağ əli ilə əvvəlcə onun başını sığalladı, sonra sinəsinə sıxdı – it kimi qucaqlaşdılar, çünki adamlar belə qucaqlaşmırlar...

Bu səhnə mənə çox ağır gəldi və darıxdırdı. Bir az aralıdan keçən bir topa it də

dayanıb biz üçümüzə tamaşa eləyirmiş. Bu it topasını hamıdan qabaq Qıllı Köpək gördü və tez də özünü, elə bil ki, bir balaca yığışdırdı.

Əvvəlcə onlara fikir vermədi. Dəstədəki itlərdən biri hürdü və bizə tərəf bir-iki addım atıb dayandı. Qıllı Köpək ildırım kimi yerindən qopdu. İt topası bir anın içindəcə şam ağaclarının qalınlığında gözdən itdi və Qıllı Köpək geri qayıdıb əvvəlki yerində – Qıllı Kişinin yanında çömbəldi, dostuna, sonra da mənə nəzər salıb tərpənməz oldu – elə bil it heykəli idi.

Qıllı kişinin gözündəki zəif işığı elə bil bir az artan kimi oldu – bəlkə də dostu ilə öyünürdü – hər halda mənə elə gəldi. "İt heykəli" yerindən tərpəndi və təzədən it oldu, quyruğunu bulayıb dostunun onunla öyünməyinə belə cavab verdi. Bir anlıq itə və itin dostuna qibtə elədim və bu hisslər tez də keçib getdi.

Qıllı Köpəyin it topasını qovduğundan xeyli sonra lap uzaqdan həmin itlərdən birinin boğuq səsi gəldi və Qıllı Köpək tez qulaqlarını şəkləyib it hürənə baxdı. Bu anı nəzərimdən qaçırmadım – deyəsən, Qıllı Köpək gülürdü, çünki Qıllı Köpəyə baxıb Qıllı Kişi də gülümsədi.

Üçümüz də köhnə qəbiristanlığın köhnəlmiş sükutunu su kimi ağzımıza alıb durmuşduq. Bir-birinə boy verən şam ağacları da susmuşdu. Ürəyim sıxılırdı. Birdən itin dostu dilləndi:
- İt dilini harda öyrənmisən?

- Xarici dillər institutunda oxuyanda, - dedim.
- Vaxt gələcək ki, it dili ən işlək dil olacaq. – Qıllı Kişi gözünü mənə zillədi.
- Niyə ki? – həm soruşdum, həm də etiraz elədim.

- Sən hələ cavansan, - Qıllı Kişi dirsəkləndi, - vaxt gələcək bütün dünya it dilində danışacaq... mən ölü, sən diri.
- Axı, hansı əsasla belə danışırsan? Özün də adam... – səsimi də bir balaca ucaltdım.

- Adamlar bir-biri ilə it kimi davranır, düzdü? Əgər adamlar bir-biri ilə it kimi davranırsa, əvvəl-axır it dilində də danışacaq də... Dil davranışdan doğan şeydi, axı..

Bu məntiq məni bir az sındırdı, bunu Qıllı Kişi də hiss elədi və sözünü belə yekunlaşdırdı: - Vaxt gələcək... bəlkə də, it dili beynəlxalq dil statusu alacaq... Dünya ora gedir ee...

Ürəyimdə Qıllı Kişi ilə barışsam da, özümü o yerə qoymadım və onu da dərk

elədim ki, əsas elə ürəkdi də...
Üzümü yenə itə tutdum: - Sənin əslin haralıdı?

- Bizdə heylə şey olmur ha, itik də it...
- Küçük vaxtlarını necə xatırlayırsan?
- Bizdə yaddaş olmur ha. Mən küçük görmüşəm, ancaq özümü balaca görməmişəm.
- Necə dolanırsan?

- İt günündə...
- İtin içində şeytan olur?
- Yox. Şeytan biz itlərdən iyrənir – bəlkə, ona görə... Bir də ki, şeytan adamlarla oturub-durur... Bizdən iyrənir, bizi bəyənmir.
- Səndən ən çox kim qorxur?

- Pişik.
- Bəs sən ən çox kimdən qorxursan?
- Adamdan...

Bu dəfə üzümü itin dostuna tutdum:
- Bəs sən ən çox kimdən qorxursan?
- Adamdan... – dedi – elə hamıdan.

- Bəs səndən kim qorxur?
- Heç kəs... – Qıllı Kişi elə bil utandı.
Mən ikisinə də müraciət elədim:

- Deməli, ikiniz də adamdan qorxursunuz?
İkisi də başını tərpətdi.
- Bu məndən çox qorxur – it dostunu göstərdi.
- Niyə ki?

- Axı o həm də adamların dilini bilir...
Qıllı Kişidən soruşdum: - Adamlar arasında dostun var?
- Yox bezmişəm onlardan...

İtdən soruşdum: - İtlər arasında dostun var?
- Yox, bezmişəm onlardan...
İkisi də oxşarından bezib... İt itdən, adam adamdan...

Elə bil bir-birinin ağzına tüpürmüşdülər. İt çömbəldiyi yerdən durdu, adamın qucağına sığındı. Bir azdan adam istisiylə it istisi bir-birinə qarışdı – adam bu istini

daha tez hiss elədi və başa düşdü ki, hava bir balaca soyuyub. İti bu vəziyyətdə narahat eləmək istəməsəm də, növbəti sualı verdim: - Sən heç ömründə ictimai faydalı əməklə məşğul olmusan?

İt dostunun quğacındakı it rahatlığından çox asanlıqla əl çəkdi, gəlib xüsusi bir əda ilə əvvəlki yerində çömbəldi, başını dik tutub dedi:
- Mən dövlət işində işləmişəm.

- Nəəə? – Təəccübləndim və bunu gizlətmədim də.
- Sərhədçi olmuşam – poqraniçnik, dövlət sərhəddini qorumuşam. Bir başa KQB-yə tabe idik. Siz adamlar dövlət adamı deyirsiniz ee, dövlət adamı – mən də dövlət iti olmuşam.

Maraq məni götürdü: - Bəs onda niyə bu günə düşmüsən?
İt mırıldadı: - Bir gün zastavaya çox hörmətli bir adam gəldi. Komandirlə o ki var yeyib-içdilər, axırda da komandir keflənib məni bağışladı qonağa, qara günlərim də ondan sonra başladı...

- Bəs sonra – əlüstü soruşdum.

- Sonra da elə bil ömrümdə ikinci dəfə it oldum... Sahibim hündür boy, enlikürək, keçəl bir kişi idi. Mənim dilimi tapa bilmirdi, evi də həmişə qonaqlı-qaralı olurdu. Yeməkdən korluğum yox idi.

Mənə taxtadan qəşəng bir it damı da tikdirmişdi. Dediyim kimi, yeməkdən korluq çəkməsəm də, menyü tamam dəyişmişdi – it nə qədər sür-sümük yeyər axı? Sahibim ipə-sapa yatmadığımı görüb, məni zəncirlədi. Zəncir yoğun və ağır idi. Mənim yeməyimi çox vaxt özü gətirərdi düz həyətin aşağısındakı it damına. Ancaq hiss edirdim ki, hürməməyimdən çox narazı idi.

Mən sahibimi də başa düşürdüm. Əslində it hürməlidi də... həyətdə gəzişən toyuq-cücədən, ailə üzvlərindən və səmadan başqa heç nə görmürdüm – bağ-bağat dörd tərəfdən hündür daş hasarla əhatə olunmuşdu. Ömürlük bu dörd divar arasında qalacağımı fikirləşdikcə qan-tər məni basırdı, gözlərim qaralırdı – bu yerdə it lap adam kimi kədərləndi və susdu.

Çönüb Qıllı Kişiyə baxdım və dəhşətə gəldim – kaş siz də bunu görəydiniz – gördüm ki, itin gözündəki kədərlə Qıllı Kişinin üzündəki kədər eynidi, - oxşardı – sifətlər də bir-birini təkrar eləyirdi. Mən heç vaxt belə şey görməmişdim; əgər itin başını kəsib, adamın başının yerinə qoyan olsaydı, heç nə dəyişməzdi. Ürəyimdən keçdi ki, bir güzgü olaydı, mən də öz sifətimə baxaydım...

Ancaq köhnə qəbiristanlıqda güzgü nə gəzirdi – ölülər güzgüyə baxmırlar... Ölülərin güzgüsü olmur ha... Ölülərin bir ayrı güzgüsü var, özü də bədənnüma güzgüdü – bu, baş daşlarıdı. Ölülər bu güzgüdə heç vaxt özlərini görə bilmirlər. Ölülərin bədənnüma güzgüsündə adları yazılır, doğulduqları və öldükləri il yazılır, bu güzgüdə "toyunuz mübarək, ölülər" – yazılmır – bu da belə güzgüdü.

Bu daş güzgüdü – daş güzgülər ancaq qəbri göstərə bilir. Bir də qəbrin içindəki ölünü – diqqətlə baxsanız, görərsiniz.
İstədim Qıllı Kişiyə deyəm ki, sir-sifətdən bir-birinizə yaman oxşayırsınız, demədim, qorxdum ki, inciyər bu incimiş. Amma desəm də, deməsəm də, bu, belə idi.

Qıllı Kişi daş güzgünün üstündən durdu, əllərini göyə qaldırıb ürəkdən gərnəşdi – gendən baxan elə bilərdi ki, bu kişi Allahdan nə isə istəyir. O, əllərini aşağı salıb üzümə baxdı – onun üz-gözündə yazılmışdı: "nooldu, qurtarmısan?" Deyəsən, it də yorulmuşdu, elə mən də bir balaca yorulmuşdum.
Vaxt keçirdi, itə dedim: - Səni ilk dəfə kim döyüb, özü də nə üstündə?

- Məni ilk dəfə elə həmin keçəl kişi döyüb, - özü də bərk... – susdu.
- Nə üstə? Axı durduğu yerdə adam iti döyməz ki...

- Döyər... – it yenə mırıldadı. – Dediyim kimi zəncirin hesabına həyət-bacaya öyrəşmişdim. Sərhəd-zad yadımdan çıxmışdı. Keçəl kişi də mənə etibar eliyirdi – hərdən açıb buraxırdı məni həyətə. Bəzi vaxtlar da qonaqları ilə bağçada gəzəndə məni göstərib nəsə deyirdi, uzaqdan yaxşı eşitmirdim, ancaq hiss eliyirdim ki, məndən danışır.

Bizim qonşuluğumuzda, hasarın o üzündə bir it də var idi, o, tez-tez hürürdü, səsi də yaman xoşuma gəlirdi. O, hürəndə mən də hərdən ona cavab verirdim. Bir gün keçəl kişi yenə zəncirimi açdı, məni darvazadan çölə çıxardı. Çöl tərəfdən darvazanın ağzında çömbəldim. Sahibim mənə xeyli nəzər yetirəndən sonra darvazanı açıq qoyub getdi evə.

Yaz vaxtı idi. Bir azdan çömbəlməkdən bezdim və üzümü qonşunun hasarına tərəf tutub bir dəfə hürdüm. Qonşunun iti öz işvəli səsilə cavab verdi. Bir az keçmiş quyruğunu bulaya-bulaya gəldi yanıma, elə qəşəng it idi ki... Bir-birimizə qoşulub getdik gəzməyə. Evimizdən xeyli aralanıb özümüzü verdik qalınlığa...

Üç gün üç gecə bir yerdə olduq... Düzü heç qayıtmaq istəmirdik. Ancaq qayıtdıq. Darvazanın balaca qapısından içəri girdim – həyətdə heç kəs yox idi. Getdim dinməz-söyləməz girdim yerimə və it olsam da başa düşdüm ki, bərk yorulmuşam. Başımı qabaq pəncələrimin üstünə qoyub yatmamışdan qabaq qonşunun hasarına

tərəf hürdüm və həmişə olduğu kimi artıqlaması ilə cavabımı aldım: sən ordan hür, mən burdan...
Axşamüstü sahibim gəlib çıxdı.

Evdən nəsə soruşdu – belə başa düşdüm ki, məni soruşur. Sonra həyətin ayağındakı it damına tərəf gələndə mən onun qabağına yüyürdüm. O isə məni damın yanına gətirib zəncirlədi. Sonra da lapatka sapı ilə kasıb itini döyən kimi döydü məni – zəncir ağır, ağac yorğun, keçəl kişi əsəbi... Hər şey cəhənnəm, iti döyərlər də, noolar...

Ancaq keçəl kişi məni döyəndə qonşunun səs-küyə gəlib darvazanın o balaca qapısından mənə baxan qəşəng itinin gözünə bir də görünə bilməyəcəkdim, bir də onların hasarına tərəf hürməyəcəkdim... – Bax bunu o keçələ heç vaxt bağışlamaram. Mən boyda köpəyi qonşunun qəşəng itinin yanında pərt elədi... O qədər dartındım ki, qayış xalta qırıldı. O hündürlükdə hasardan necə tullandığımdan xəbərim olmadı. Xeyli qaçandan sonra dayandım, geriyə baxanda gördüm qonşunun qəşəng iti.

Gözlərimi ona zilləmişdim. Qonşunun qəşəng iti ildırım sürətilə yanıma gəldi, bir-birimizi xeyli iylədik, üzümü onun üzünə sürtdüm və qəfil yoxa çıxdım. Bir də qonşunun qəşəng itini görmədim... Yəqin heç vaxt onu görməyəcəyəm... Nə başınızı ağrıdım... O vaxt qonşunun qəşəng iti ilə keçirdiyim üç yaz gününü keçəl kişi burnumdan tökdü... Qonşu iti çox qəşəng idi.

Ola bilər ki, adamların xoşuna gəlməsin, ancaq sən it olsaydın, - mənə müraciət etdi, - və qonşunun qəşəng itini görsəydin, heç vaxt ondan ayrılmaq istəməzdin. Nə isə... Lənət adama.

- Bəlkə lənət şeytana demək istəyirsən?
- Yox... Adama... Adama... Şeytan bizə neyləyib ki... Nə eləyibsə, adam eləyib, adam...
- Sonra səni yenə döyüblər, yoxsa elə...

- Elə yox... bir-iki dəfə daş atıblar... Bir dəfə də - keçən qış uşaqlardan biri qartopu ilə başıma elə vurdu ki, az qala huşumu itirmişdim.
- Elə qartopu dəyməknən?

- Yox, - it tələsik cavab verdi, - qartopunun içinə daş qoymuşdular. İçində şeytan olan adam qartopunun içinə nəsə qoymalıdı də... – O uşaq daş qoymuşdu. Başımı yana çəkərdim, heç dəyməzdi – fikirləşdim, uşaqdı də, qoy ürəyi açılsın, nə biləydim qartopunun içində daş olan kimi, uşağın içində də şeytan oturub. Hardan ağlıma gələydi? Bir də ki, it ağlıdı də... Ağlımız olsaydı adamların əlinə niyə

baxırdıq ki...

- Siyastlə məşğul olursunuz?
- Siyasət it peşəsi deyil... Bayaq dedim ki, bizim içimizdə şeytan olmur, şeytan itdən iyrənir, adamlarla oturub-durur.
- Şeytanın nə dəxli var bura?

- Şeytanın o dəxli var ki, yer üzündə neçə milyard adam varsa, üç o qədər də şeytan var. Hər adama üç şeytan düşür... Səni necə başa salım. Bax, bir şeytan bir adamın içində özünün halalca səkkiz saatını işləyir.

Sonra o birisi gəlir, sonra da o birisi gəlir – elə bil ki, üç "ismen" işləyirlər də... Dövlət əhəmiyyətli obyektlərdə olduğu kimi... Siz adamlar da şeytanlar üçün dövlət əhəmiyyətli obyektsiniz...

Başa düşdün? Bunu da yadında saxla. Balaca siyasətçiləri balaca və az təcrübəli şeytanlar idarə edirlər, böyük və nəhəng siyasətçiləri isə daha təcrübəli, böyük və nəhəng şeytanlar idarə edirlər. Bax, buna görə də siyasət it meydanı deyil.
Özümə haqq qazandırmaq istədim:

- Bu sualı sənə bilirsən niyə verdim, - bayaq dedin ki, dövlət işində işləmisən, "poqraniçnik" olmusan... Dövlət işi ilə siyasət arasındakı məsafə elə çox da deyil... Ona görə... Yoxsa başqa bir fikrim-zadım yoxdu.
Üzümü bu dəfə də Qıllı Kişiyə tutdum:

- Bəs sən...
- Yox, yox. Elə mən də...

- Nə mən də? – Lap dirəndim.
Qıllı Kişi ağır-ağır dedi: - Şeytan məndən də iyrənir. Elə bilir ki, mən də itəm... yox...
Bu sözdən sonra yenə adamla itin üzünə baxdım – elə bil əkizdilər...

İtin cavabları məni alt-üst eləmişdi, yəqin ki, adam balasından belə cavabları eşitmək qeyri-mümkün idi. Və bu qeyri-mümkünlük burulğanında bir az da ürəkləndim, gözlənilməz bir sual verdim:

- Sən Diananın ölümünə necə baxırsan?
İt özünü yığışdırıb dedi:

- Adi adamlardan fərqli olaraq Diananın "payına" daha çox şeytan düşmüşdü – axı o, prinsessa idi və Diananın şeytanları adi adamların içindəki şeytanlardan gözəl

idilər.

Onun ölümünə gəlincə isə Diananı müşayiət edən şeytanların içindəki baş şeytan, ərəb milyonçusunun oğlunun baş şeytanı ilə çoxdan danışıqlar aparmışdı və onlar mütləq görüşməli idilər – elə görüşdülər də... əbədi görüşdülər və heç vaxt ayrılmadılar... – İt bir an dayandı başını dik tutub lap uzaqlara baxdı. Mənə elə gəldi ki, Parisdəki körpüyə tərəf baxır. Və təbii ki, burda otura-otura Parisdəki körpünün altına "baxıb qayıtmaq" xeyli çəkdi və it qayıtdı və qayıdan kimi də dedi: - Diana dünyanın ən gözəl şeytanı idi. Qonşunun qəşəng iti bir az Dianaya oxşayırdı.

Yaxşı ki, Diana Eyfel qülləsindən yıxılıb ölmədi. Yaxşı ki, Diana elə körpünün altında öldü...
- Gəlin qısaca olaraq adam haqqında fikrimizi bir də dəqiqləşdirək.

- Şeytan adamın içindədirsə, adam da şeytanın paltarıdır. Şeytan sizi paltar kimi əyninə geyir – vəssalam!
- Axı şeytanın buna nə ehtiyacı var, şeytan elə şeytandı də.

- Səhv eləyirsən. Bax sənin içindəki şeytan qoymur ki, sən əsl həqiqəti qanasan. Şeytan – qoy sənin içindəki də eşitsin – adamı ona görə paltar kimi əyninə geyir ki, onu tanımasınlar.

Mənim içimdəki şeytan tərpəndi və səsi gəldi: - İt düz deyir!
Üçümüz də bu səsi açıq-aydın eşitdik – it də, adam da, mən də. Ancaq mən təslim olmaq istəmədim: - Bəs adamın yaratdıqları, kəşfləri, sivilizasiya – bunlar da boş şeydir?

İt də dediyinin üstündə bərk durmuşdu: - adam bu günə qədər nə yaradıbsa, hamısını özünə, təbiətə və təbiətdəki canlılara oxşadıb – təbiəti təkrar eliyib və təzə heç nə yaratmayıb. Adamın yaratdığı dünya şöhrətli adam heykəllərini sındırıb içinə baxsan, onun da içindən şeytan heykəli çıxacaq. İnanmırsan get, sındır, bax...

Mənə elə gəlirdi ki, bir də bu iti heç vaxt görməyəcəyəm, ona görə də qarşısında aciz-avara qaldığım bütün sualları vermək istəyirdim bu itə: - Adam üşüyəndə içindəki şeytan da üşüyürmü? – soruşdum.

- Adam üşüyəndə şeytan ona gülür.
- Niyə gülür?

- Şeytan adama gülür ki, "heç paltar da üşüyər?".

Bayaq keçib-gedən it topası yadıma düşdü və mənə elə gəldi ki, onların hamısı oğrudurlar – İt oğrusu...
- Adamların dilində, - üzümü yenə itə tutdum, - əzbər olan bir söz var: it oğrusu – səncə bu, nə deməkdir?
Nədənsə, Qıllı Köpək də bayaqkı itlərin getdiyi səmtə baxdı:

- Bilirəm, - dedi, - adamlar elə bilir ki, itlərin hamısı oğrudur. Haqları da var. – Bir an dayandı, - heç eşitmisən ki, it iti oğurlasın?
- Yox.

- Ancaq adam adamı oğurlayır... Adam meyit oğurlayır, dövlətdən, xalqdan oğurlayır, yerdən-göydən oğurlayır – əlinə nə keçdi oğurlayır. Oğurluq etmək üçün adamların imkanları çooox genişdir. Çox...

Bəs it neynir, qarnını doyurmaq üçün nə isə aparır... İndi daha adamların əlindən oğurlamağa da bir şey qalmayıb. İndiki itlər oğurluq eləmir ee, sümsünür... İndi özün de, hansı görkəmli oğrudu – it, yoxsa adam?

Canavar hər şeyi təbiətdən öyrənir, it isə adamdan. Belə götürəndə itin ustadı adamlardı də. Hələ yaxşı ki, itlər adamların kora-zehin "şagirdləri" olub – əgər itlər adamların tökdüyünün hamısını götürsəydi – adamxasiyyət, adamxislət olsaydılar dünya çoxdan dağılmışdı. İt olduğuma görə demirəm – bu mənim it həqiqətimdi.

Yenə Qıllı Köpəyin üzünə baxdım – Qıllı Kişiyə oxşayıb durmuşdu. Və mən bu yerdə inandım ki, əgər bu sualları Qıllı Kişiyə versəydim, itdən eşitdiyim cavabları eşidəcəkdim, mənə də inanın, bu da mənim həqiqətimdir – adam həqiqəti...

Və qalmışdım it həqiqəti ilə adam həqiqətinin arasında – yavaş-yavaş sıxılırdım.

Elə bil suallar tükənmişdi. Qıllı Köpək çömbəldiyi yerdən yenə durdu və it kimi gərnəşdi, adəti üzrə yenə dostuna diqqət göstərib quyruq bulayanda ağlıma bir sual da gəldi: İtlər niyə yaltaq olur? – dedim.

- Həəə, yaxşı yadıma saldın, - elə bil itin kefi duruldu. Çönüb quyruğuna baxdı. – Bax, quyruq nə üçündür deyə bilərsən?

- Nə bilim vallah... Quyruq haqqında elə bir dərin məlumatım olmasa da, onu deyə bilərəm ki, quyruq elə quyruqdu də, - çox zəif bir cavab verdim. Deyəsən, it də bunu hiss elədi.

- Baax, - it davam etdi, - burun iy bilmək üçündür, qulaq eşitmək üçün, nə bilim ayaqlar təhlükədən qaçmaq üçündür... Bəs quyruq nə üçündür? – Özü də cavab

verdi, - quyruq da bulamaq üçündür, mən itəm, quyruğum var, bulayıram, sənin ki, quyruğun yoxdur, sən niyə olmayan quyruğunu bulayırsan həəə, ay adam?!

Quyruq bulayan it də, yaltaq adam da eyni şeydi – ikisi də nəfsinin quludu. Nəfs itin ancaq quyruğunu tərpədirsə, adam çönüb olur bütöv bir quyruq – yəni adam şəklindən çıxır. İtin tamahı bir tikənin başındadır, adamın tamahının min şəkli var. Ona görə də, it bir tikə yaltaqlanır, adam min tikə. İt doyur, adam doymur, doya bilmir. Siz gedin qurban kəsin ki, adamın tamahı it tamahı olsun. Onda yer üzündə heç kəs acından ölməz. İncimə... Adamın tamahı rus çarı Yekaterinanın dünyaya məlum quduz tamahından da itidi...

Yaltaqlıq it peşəsidi. İt peşəsinə yiyələnmək istəyən adam elə itdi və acizdi. Əgər aciz olmasaydı, başqa bir peşənin sahibi olardı – lap elə ev tikərdi və it kimi yox, adam kimi yaşayardı. Adam təkcə ölümə yaltaqlana bilmir, yoxsa yer üzündə adam əlindən tərpənmək olmazdı. Ət-ətə dayanardınız, sonra da başlayardınız bir-birinizi yeməyə – mən ömrümdə it əti yeməmişəm...

- Deyirlər, itnən dost ol, ancaq çomağını əlindən yerə qoyma – mən söhbəti dəyişdim.

İt dostuna baxdı və dedi: - Gör bu adamın əlində çomaq var? Yoxdu... Ona qalsa itlərin arasında belə bir sözü var: adamla dostluq elə dişlərin tökülənədək – yəqin adamlar bu sözü eşitməyiblər, biz də belə fikirləşirik.

- Xoşbəxtsənmi? - Mən itdən soruşdum – "dünyada məndən bədbəxt canlı yoxdur..." deyəcəyini eşitmək ümidilə soruşdum, ancaq başqa söz eşitdim, it üzümə qarşı dedi:

- Adamlardan xoşbəxtəm. Dünyada ən böyük bədbəxtlik adam olmaqdır. Adamın başı çox bəlalıdı. Deyirlər itin canı bərk olar – ancaq adamın çəkdiyi əzabi-əziyyətə biz bir gün də dözə bilmərik – hamısı da ağlının ucundan.

Ağıl adamın başında olur və başının da bəlasıdı. Bilirsən, əslində yer kürəsi bütün canlılarındı və hamıya bəs eləyərdi – o gündən ki, başladılar ağılla idarə etməyə – hər şey pozuldu, mizan-tərəzi itdi. Sənə deyim ki, ağıl adamın axırına çıxdığı kimi, adam da dünyanın axırına çıxacaq, az qalıb... Biz itlər zəlzələni hər kəsdən əvvəl hiss eləyirik.

Adam ağlı təbiətin işinə qarışan gündən yer kürəsi çürüməyə başlayıb, xəbərimiz yoxdur... Elə adamların özü də, itlər də... Dünyada ancaq itlər və heyvanlar yaşasaydı, yerin burnu da qanamazdı. Siz adamlar isə hamımızın üstündə gəzdiyi yerin şah damarını kəsmisiniz, qalıb qanı axa-axa... Görəydim, elə adam nəsliniz

kəsilsin!!!

İt qarğışını ilk dəfə eşidirdim, it adamı qarğıdı, it ağzına düşdük...

İtin belə deməyi mənə bərk toxundu – necə olsa mən də özümə görə bir adamam axı... Və doğrudan da, adamlığım tutdu:
- İtsən də it! – dedim.

İtin də itliyi tutdu, mırıldadı, deyəsən, lap üstümə cummaq istədi, ancaq ani olaraq Qıllı Kişiyə baxdı, mənə elə gəldi ki, ondan icazə istəyir – üstümə cummadı və deyəsən, bir az sakitləşdi, özünü ələ aldı: - Deyirsən ki, itsən, it! Noolar it olanda, mən özüm-özümü yaratmamışam ki...

İtə noolub ki... Hərbidə işləyənlərimiz var... lap elə mədəniyyət sahəsində, sirkdə. – İt elə bil tələsirdi və onun bəzi sözlərini başa düşmək olmurdu. – Dünyanın bəzi məmləkətlərində itləri müdafiə eləyən könüllü cəmiyyətlər var... Noolub itə? Ona adam dəyib! Dünyanın ilk kosmonavtı elə it olub də, it...

Mən itin sözünü kəsməsəydim, heç adam deyildim: - Yoox ee, belə özünüzü tərifləyirsiniz,- hər təsadüfə qarşı bir gülümsədim də, itdi də...
- Mən it olsam da, olan şeyləri deyirəm. Ancaq siz adamlar... Bir də gördün ki, birisini qoydular ortalığa illər uzunu, gecə-gündüz təriflədilər, tərifľədir – nə tərif eliyənlər doydu, nə də tərif olunan.

Neçə illər belə gedəndən sonra bir də gördün qəfil hər şey dəyişdi, kişinin ayağı büdrəyən kimi başladılar tərsinə dnışmağa, tərifçilər oldu tənqidçi-söyüşçülər. Elə sözlər, elə böhtanlar dedi ki, adamlar, dünyanın bütün itlərinin tükləri biz-biz oldu. Sənin adamlardan xəbərin yoxdur deyəsən. Tərif yaltaqlığın lirikasıdı.

Adamların dediyi, quraşdırdığı, icad eləyib yaratdığı tərifin qabağında heç nə dura bilməz – heç təriflənən özü də... – Qıllı Kişiyə baxdı, kişi başını aramla tərpətdi, razılıq elədi. Mən isə özümdən asılı olmayaraq, bir də onların qoşa sifətinə baxdım – bir almanı yarı bölmüşdülər...
- Tərif haqqında daha nə deyə bilərsən? – bu dəfə adam ədası ilə itdən soruşdum.

- Adam torpağı çürüdəcək, tərif də adamı...

- Sənin də quyruğun var, öz şəxsi quyruğun haqda nə deyə bilərsən? – Yarı ciddi, yarı zarafat soruşdum.

- Mənim quyruğum adam quyruğunun tayı deyil – yenə mırıldadı, - mənim quyruğumun bir ucunu görürsən, - quyruğunu qaldırıb ucunu göstərdi, - bir ucu da

ürəyimdədi. Hələ bundan başqa, - Qıllı Kişini göstərdi, - mənim quyruğumun tərpəndiyini görən olmayıb. – Sifəti ciddiləşdi, bir az susdu, yenə çönüb dostuna baxandan sonra əlavə etdi, - it dilində qəzet çıxsaydı, gələn dəfə də mən səndən intervü alardım... adam intervüsü....

- Çıxar, it dilində də qəzet çıxar... çıxacaq... – Bunu da Qıllı Kişi ağır-ağır dedi, - bəlkə də var, xəbərimiz yoxdur...
Mən də söhbətə bildiyim kimi qarışdım: - İt dilində qəzet çıxacağını deyə bilmərəm, ancaq gələn dəfə bu suallarla sənə müraciət edəcəyəm – səndən intervü götürəcəm. – Nə isə, bu sözləri deməyi özümə borc bildim.

- Zəhmət çəkmə, - Qıllı Kişi dedi, - itin dediklərinin hamısı mənim də ürəyimdəndir – bizim qəlbimiz birdir.
- Onda səndən bir-iki şey soruşum. – İtin dostuna dedim.

- Buyur.
- Sənin bədənin niyə belə qıllıdı?

- Mənim yumurta soyutması kimi ağappaq bədənim vardı, neçə illərdi çöllərdə qalmışam, evsiz-eşiksiz... bədənim başladı tük gətirməyə. Yəqin bədənim təbii şəraitə uyğunlaşmağa başlayır. Axı, mənim yaşayışım adam yaşayışı deyil.
- Niyə köhnə qəbiristanlıqda məskunlaşmısan?

- Bura döşümə yatır...
- Mən sənə kömək eləyə bilərəm?

- Allahın gücü çatmayan işə bəndəsinin gücü heç çatmaz.
- Hərdən gəlim dəyimmi sənə?
- Olmaz! – Qıllı Kişi bir kəlmə dedi.

- İndi mən gedirəm. Bəlkə mənə sözün var... adamıq də...
- Sözümü ona demişəm, - iti göstərdi, - vəsiyyət də eləmişəm...
- Vəsiyyət?

- Bəli...
- İtə niyə vəsiyyət eləyirsən ki? – Onun bu hərəkəti köpəyi selbə tutan kimi tutdu məni.
- Sən onu bilməzsən, uşaqsan...
- Yaxşı, əgər sirr deyilsə, nə vəsiyyət eləmisən? – az qala qılığına girə-girə dedim ki, görüm nə deyir.
- Demişəm ki, öləndə... məni yesin... yoxsa ortalıqda qalıb iylənərəm...

- Bəs o nə dedi? – Baxışlarını uzaqlara zilləmiş iti göstərdim.

- Əvvəlcə dedi ki, mən adam əti yemirəm... sonra ağladım, sıtqadım, yalvar-yaxar elədim – razılaşdı...

Bir də gördüm ki, köhnə qəbiristanlığın köhnə cığırı ilə evə tərəf elə addımlayıram ki, elə bil dizə qədər bataqlığın içi ilə gedirəm...
Mən köhnə tabut kimi köhnə qəbiristanlıqdan çıxdım. Köhnə tabut köhnə qəbiristanlıqdan qayıdırdı.

Köhnə tabutun içi boş idi...
...Sonra köhnə qəbiristanlığa köhnə bir qaranlıq çökdü. Köhnə ölülər köhnə qaranlığı köhnəlmiş sümüklərinin üstünə çəkib köhnə bir rahatlıq tapdı...

**1998**

## RƏMİŞ

Cavanlıqda özümdən böyüklərlə oturub-dururdum. Yaşa dolandan sonra isə qoşulmuşam cavanlara.

Elə dostlarım var ki, qırx-qırxbeş yaş məndən kiçikdirlər. Onlarla ünsiyyət ürəyimə sarı yağ kimi yayılır – həm də mənə sərf eləyir – bilirsiniz niyə?

Bir cavan dostumla oturanda onun iyirmi beş yaşını gəlirəm altmış yaşımın üstünə, sonra qardaş malı kimi iki yerə bölürəm, ikimiz də oluruq yaşıd.

Sonra isə yaşıdlar kimi dərdləşirik, bölüşürük... dünyanı yola veririk...

Yenə üç nəfər oturmuşuq - mənim altmış, üçümüzün isə uzaq başı yüz iyirmi yaşımız olar. Və yenə yüz iyirmini qardaş malı kimi üç yerə bölmüşük. Yenə yaşıdlar kimi dərdləşirik, bölüşürük... dünyanı yola veririk...

Elnur, Teyfur, mən...

Söhbətimizin qaymaqlayan yerində telefonuma zəng gəldi.

– Alo. – Cavab verdim.

– Sənətkar, salam. – Rəmiş idi.

– Salam, salam...

– Sənətkar hardasan?

– Bakıda.

– Bakının harasında?

– Doqquzuncu mikrorayonda.

– Doqquzuncu mikrorayonun harasında?

– “Emis” restoranında, həyətdə oturub iki yaxın dostumla çay içirəm.

– Sənətkar cibində iki “şirvanın” var?

– Var.

– Min bir taksiyə, gəl Yeni Yasamala, yen aşağı, diki qalxanda sağ tərəfdə köhnə bir traktor var, Nuh Nəbidən qalıb, bax onun yanında səni gözləyirəm.
– Xeyirdimi? – Soruşdum.

– Ürəyim istədi səni, gör nə vaxtdı görmürəm. Moskvadaydım...

– Yaxşı, gəlirik,- dedim.

Elnurun maşınına mindik. Rəmiş deyən kimi elədik, Yeni Yasamalın dərəsinə yenib dikləndik; sağ tərəfdə, o dediyi kimi Nuh Nəbidən qalma köhnə bir traktor, traktorun yanında köhnə bir minik maşını, maşının yanında Rəmiş, Rəmişin də yanında Gülü... Maşından düşüb görüşdük. Dostlarımı onunla tanış elədim:

– Elnur... Teyfur... yaxşı kişilərdi, – dedim.

– Bu yaşda kişidilərsə elə böyük şeydi, – onlara da əl verdi, – Rəmiş, – dedi və onun öz adını deməsi mənə çox təəccüblü gəldi.

Rəmiş öz maşınına minə-minə dedi:

– Sənətkar, dalımca gəlin.

Görüşdüyümüz yerdən bir az da yuxarı qalxıb sağa buruldduq, əlli-altmış addım da gedib dayandıq - bərbad bir həyət idi, nə evə oxşayırdı, nə idarəyə.

– Düşün, – dedi.

Düşdük. Cavan dostlarımın da, mənim də təəccübləndiyimi görüb dedi:

– Deyəsən, buralar xoşunuza gəlmədi?

– Bura nədi belə, haradı? – Mən dedim.

– Heç mən də bilmirəm... Dostumun yanına gəlmişəm – bura çağırıb, bura gəlmişəm də... Gəlin, gəlin... – qabağa düşdü. Bizdən bir az aralıda doqquz nəfər var idi; dördü Adam idi, beşi it – biz onlara tərəf gedirdik.

Üçümüzü də bir-bir o adamlara təqdim eliyəndən sonra çönüb itlərə baxdı:

– Bunlar da bizimkilərdi... – dedi.

– O nə təhər olur? – dedim.

– Sənətkar, nə təhər olacaq... bunlar da bizim kimi yiyəsizdirlər... Eşitmisən də, yiyəsiz itləri də güllələyirlər...

– Eşitmişəm...

– Bu gün bu itlərin sahibi bizik... Adam biliblər bizi... hə...

– Hə... itlərin də sahibi tapıldı, qaldıq biz, – dedim.

– Sahibə də sahib lazımdı ki? – Rəmiş təəccübləndi.

– Sahibə də sahib lazımdı, sahibin sahibinə də, hələ lap sahibin sahibinin sahibinə də... belə pilə-pillə qalxır, qalxır... gedib dirənir Allahın ayaqlarının altına. Allahın ayağının altına dirənəndə duyuq düşürlər ki, elə hər şeyin sahibi Allah imiş - bunların sahibliyi bekara şeyimiş...

– Bağışla ee, sənətkar, fikrim, o iti görürsən, bax onun yanında idi, dediklərini tuta

bilmədim... bir az çoban-çoluq dilində olsun ee, qəliz olmasın... qəliz olanda elə bil barmağım pərdədən sürüşür...

– Çoban-çoluq dilində danışmaq elə bilirsən asandı?

– Sən danışarsan...

– Dediyim odur ki, fikrim məndədi, yoxsa itdə?

– Səndə...

– Dediyim odur ki, əgər hər hansı bir sahibin də sahibi varsa o, sahib deyil – sahib odur ki, onun sahibi olmasın. – O da Allahdı. İndi tutdun?

– Mən tutmadım ee... Sən qəşəng tutuzdurdun. – Sağ əli ilə alın qırışlarını hamarladısa da bir şey çıxmadı, əksinə, deyəsən qırışlar bir az da dərinləşdi, – mən sənnən dilləşə bilmərəm, qardaş. Sən danışanda mən uyuram, – elə bilirəm Rəmiş gitara çalır...

– Çox şişirtmə... – dedim, – çox şişirdirsən ee...

–Çox şişirtməsəydim çoxdan partlamışdı.

Bayaq gizləmək istədiyim təəccübümü açıb tökdüm çölə:

– Sən Allah, bura haradı... nədi belə?

– Vallah, heç mən də bilmirəm. Dostumun yanına gəlmişəm – bura çağırıb bura gəlmişəm.

Anladım ki, bu sualı Rəmişə yüz dəfə də versəm eyni cavabı alacam – ona görə də ruhdan düşüb əyləşdim, söhbəti dəyişmək istəsəm də bir şey çıxmadı və təzə mövzu tapa bilmədiyim mənə əfəllik kimi gəldi, hətta bu əfəlliyim xəfif əsəbiliyə çevrilib sifətimə çiskinlədi.

– Qapısı yox, darvazası yox... – Ətrafa baxa-baxa Rəmişin düz gözünün içinə dedim; əslində isə bu sözlər Rəmişin gözünün içindən yan keçib onu bura dəvət eliyən dostunun dalınca muncuq kimi düzüldü – onun dalınca danışırdım.

– Qapı, darvaza olan yerdə ürəyim sıxılır, belə yaxşıdı...

Mən onunla, bir az da qəsdən, razılaşmadım:

– Buranın nəyi, harası xoşuna gəlir axı? – Xəfifcə bozardım da.

– Buranın orası xoşuma gəlir ki, nə qapısı var, nə darvazası. – Rəmiş gözümün içinə dikəldi, – qapı da, darvaza da lazımsız şeydi... Qapını xayın adamlar kəşf eləyib – xayın xoflu olar axı... evdən çıxanda qapını bağlayıb gedirlər. Ömür boyu nə qədər qapı bağlamaq olar axı... Qarabağ tərəfdə bir qarğış var ee, eşitmisən?

– Hansını deyirsən?

– Deyir, səni görüm qapın bağlansın! Eşitmisən?

– Hə... noolsun?

– O olsun ki, bəndə hər dəfə evdən çıxıb qapısını bağlayanda elə bil ki, Allaha namyok eliyir. Bir dəfə, beş dəfə, on dəfə – axırda da Allah onun qapısını elə bağlayır ki, Fələk də aça bilmir... Hayıf deyil belə...

Darvaza, dalınca gəlir dəmir qapı, dalınca taxta qapı, taxta qapının da böyründə içəridən asılmış qoşalülə... adamların bir-birinə etibarı qalmayıb ki. Hələ onu demirəm ki, villaların, Allah xeyir versin ee, qabağında qorovulçular üçün ayrıca ev tikirlər, top-tüfəngi də öz yerində, quş da səkə bilmir.

Bundan qabaq darvaza-zad yox idi, qapının da cəftəsini keçirirdilər ki, mal-heyvan içəri girməsin, cəmisi əlli il bundan qabaq.

– Bəri bax, Rəmiş, niyə qızışmısan qəfil?

– Məndə hərdən olur, sən fikir vermə...

– Bu qəşəng qızışmaqdı... belə şeyə fikir verməsən Adam ocaq daşı kimi partlayıb qırıq-qırıq olar...

– Başına dönüm, yeriniz rahatdımı? – Rəmiş mənim cavan dostlarımdan soruşdu və onların cavabını gözləmədən ikinci sualı verdi:

– Buralar xoşunuza gəldimi?

Bayaqdan bəri ağızlarını açıb bizim söhbətimizə qulaq asan uşaqlar nə deməliydilər ki? Dedilər ki, çox yaxşıdı. Rəmiş gördü ki, uşaqlar onun xətrinə qırmızıca yalan dedilər və onların bu yalanı razılığa çevrilib Rəmişin üzünə hopdu; uşaqlar özləri isə yalan dediklərini Rəmişdən də yaxşı bilirdilər – hər iki tərəf

məmnun olmuşdu – günümüzdə, ilimizdə və əsrimizdə bundan gözəl nə ola bilərdi ki...

– İndi bir sənətkar da gəlməlidi. – Rəmiş dedi.

Mənim sənətkarın kimliyi ilə maraqlanmamağımdan Rəmiş bir az tutulan kimi olsa da dedim:

– Rəmiş, sən də elə yetənə sənətkar deyirsən, bunu tərgit.

– Heç vaxt tərgitmərəm.

– Niyə? – Mən təkid elədim.

– Niyəsi odur ki, yer üzündə nə qədər adam varsa hamısı sənətkardı.

– Bu, qeyri-mümkündü. – Mən qəti etiraz elədim.

– Sənətkar, dərindən fikirləşsən görəzsən ki, mümkündü.

– Sən dərindən fikirləş də... de görək.

– Bəli yer üzündə hamı sənətkardı, sənətkar olmayan yoxdu. Görürsən ki, biri yaxşı maşın sənətkarıdı, biri yaxşı xanəndədi, yazıçı, şairdi, rəssamdı, bəstəkardı – hamısı sənətkardı də... Biz öyrənmişik, ancaq yaxşı şeyə sənətkar deyirik... sənətkar deyəndə ancaq müsbət şeylər fikirləşirik. Ancaq bu, düz deyil. Gözdən tükü elə çəkirlər ki, ruhun da incimir – oğrudu, sənətkardı, səni şirin dilinə salıb elə alladır ki, quru yurdda qalırsan, – sənətkardı, oğraşdıqda tayı-bərabəri yoxdu – sənətkardı...anasının əmcəyini elə kəsir ki, anası yazıq da elə bilir məsum körpədi onu əmir-sənəkardı, dədəsinin goruynan alver eliyir – sənətkardı sənətkar... istedaddı. Hər cür adama rast gəlirik də... ona görə də mən, sən demişkən, yetənə sənətkar deyirəm. Bax, o itlər də sənətkardı, çünki it olmağı onlardan başqa heç kəs bacarmaz... bildin?

– Bildim.

– Quzu kəsərəm saa.

– Burdaaa?

– Buranın məsələsi həll olundu də... – ani fikrə gedib əlavə etdi, bayaq dedim ki, indi bir sənətkar da gəlməlidi, heç vecinə almadın.

– Kimdi ki?

– Bayaq soruşsaydın deyərdim... indi gözlə, gələndə görərsən... Yemək-içmək də, Rəmişin dediyi o sənətkar da stola eyni vaxtda gəldi, elə bil o sənətkarı da yeməklə bərabər mətbəxdən gətirdilər – bu Yaşar Nuri idi.

– Xoş gəlmisən sənətkar. – Rəmiş onunla çox isti görüşdü, qucaqlaşdılar. Sonra Yaşar mənim üstümə gəldi, ikimiz də məmnuniyyətlə Rəmişi təkrar elədik. Sonra mənim gənc dostlarıma əl verib təəccüblə onların sifətinə elə baxdı ki, onlar bir anlıq özlərini artıq hesab elədilər və bu tez keçib getdi. Rəmiş Yaşarın qaynanasının ünvanına ənənəvi bir informasiya göndərdi:

– Yaşar, qaynanan səni çox istəyir.

Yaşar isə elə bil heç eşitmədi, bu qulağından alıb o biri qulağından ötürdü. İştahla stola baxıb əllərini bir-birinə sürtdü:

– Süzün dəə! – dedi.

– Bu gün Yaşarın ad günüdü. – Rəmiş bir informasiya da stolumuza göndərdi, biz də bu xəbəri tariximiz boyu olduğu kimi gurultulu, hətta mən deyərdim ki, sürəkli alqışlarla qarşılayıb eləcə də yola saldıq.

– Mosvka nə təhərdi? – Yaşar gözünü Rəmişə elə zillədi ki, elə bil Rusiyaya çörək dalınca getmiş bir qohumunu, ya da tanışını soruşurdu.

– Yaşar, Moskva o qədər yekədir ki, onun nə təhər olduğunu bilmək olmur haa...

– Sənin üçün yaxşı keçər. – Yaşar əl çəkmədi.

– Çox yaxşı... Allah yaxşı oğlanların canını sağ eləsin.

Yaşarın keyfi kök idi; doğum günü münasibəti ilə artıq hardasa olmuşdu – o, bu məclisə hazır gəlməsə də hazırlıqlı gəlmişdi.

Ev sahibinin dediyi Araz uzunluqda bir tostdan sonra birinci badələri (Yaşardan başqa hamıda birinci idi) sənətkarımızın, Yaşar Nurinin sağlığına içdik. Stol arxasındakılar yüksək iştah nümayiş etdirərək, öz “işlərinin” öhdəsindən böyük bacarıqla gəlirdilər.

İtləri də yaddan çıxarmırdılar, qabığı soyulmuş ağac budağı kimi təmizlədikləri

ağappaq sümükləri itin qabağına necə atarlarsa, eləcə onlara atırdılar.

Beş itdən dördü stol arxasında oturanlar qədər fəal idilər; stol arxasındakı fəalların atdığı sümükləri də göydə qapırdılar – bir it isə yoldaşlarının sümükləri göydə necə qapmalarına çox diqqət və səliqə ilə tamaşa eliyirdi, cəvcilərindən su axırdı, şirə ifraz eliyirdi.

Stol arxasındakılar da, itlər də təxminən eyni vaxtı doyub dolandılar – ağzının suyunu axıdan itdən başqa.

İtlər gülürdü; gülürdü deyəndə ki, qəhqəhə çəkmirdilər ee, elə olsaydı səslərini eşidərdik; belə desək daha doğru olardı; "itlər gülürdü" yox, "itlər gülümsəyirdi".

Ağzının suyunu axıdan it bekaf idi. Ancaq haqq üçünə demək lazımdır ki, bu beş itin içində hamısından qürurlusu, qəşəngi və şəxsiyyətlisi də elə o idi. Zəhmli baxışları isə atlını atdan salardı; ancaq bütün bunlar şəhərdə olduğuna görə o qədər effekt vermirdi.

Hamının sağlığına içilmişdi – mənim gənc dostlarımın da – hamı da razı qalmışdı, çünki dediyim kimi bütün iştirakçılar əhatə olunmuşdu.

Rəmiş əlini atıb qabırğa kababını götürüb ağzının suyu axan itə baxıb muşqurdu. İt ona baxsa da yerindən tərpənmədi.

Rəmiş ayağa durub itə tərəf bir addım atmışdı ki, it də ona tərəf gəldi və əgər belə demək mümkündürsə, aralarındakı yolun ortasında görüşdülər. İt kababı Rəmişin əlindən alıb azacıq aralandı, bir yanda çömbəlib arxasını stola çevirdi, kababı yedi, sonra enli, uzun dilini çıxarıb səliqə –səhman ədasıilə dodaqlarını və cəvcilərini yalayıb elə təmizlədi ki, elə bil solfetlə silmişdi.

Rəmiş gözünü o itə zilləmişdi, mən də hər ikisinə. O biri itlər Rəmişlə bu İtin arasında yaranmış ünsiyyətə it kimi baxırdılar. Rəmiş bu dəfə iki parça dana basdırmasını götürüb yenə itə göstərdi, muşqurdu, it bu dəfə də yerindən tərpənmədi.

O biri itlər isə Rəmişin əlindəki tikələri o saat yedilər – gözləriynən. Rəmiş o biri itlərin gözləri baxa-baxa əlindəki tikələri qaytarıb böyük nimçəyə qoydu. İtlər Rəmişdən küsdülər – bunu Rəmiş də hiss elədi, ancaq nümayişkaranə bir şəkildə özünü o yerə qoymadı. İtlərdən biri başını qaldırıb camaatın qulağı eşidə-eşidə bir-iki ağız göylərə hürdü də.

– Qudurasan... – Rəmişdən reaksiya gəldi.

Tək it çömbəldiyi yerdən qalxıb Rəmişə yaxınlaşdı, üzünü onun çəkmələrinə sürtsə də quyruğunu bulamadı, bu, Rəmişin xoşuna gəldi, o, stolun üstündən bir çəngə salfet götürdü, itin başını sığallaya-sığallaya onun ağız-burnunu sildi. O biri itlər bu mənzərəni seyr etsələr də heç nə qanmadılar, ancaq bu it qandı və burda qanmaqdan çox hiss eləmək var idi.

Rəmiş üzünü bu uçuq-sökük, sınıq-salxaq məkanın sahibinə tutub dedi:

– Sənətkar, itlər sənindi?

– Yox...

– Bəs kimindi?

– Elə hamının...

– Hamınındısa deməK heç kəsin deyil, yiyəsizdilər.

– Nə bilim, vallah... – Rəmişin dostu dilləndi və hiss olundu ki, onunku “nə bilim, vallah”a qədərdi və dərinə getməklə işi yoxdu, heç vaxt da dərinə getməklə işi olmayıb...

Rəmiş dostuna dedi:

– Sənətkar, bu iti görürsən? – O iti göstərdi.

– Bəli... – Dostu cavab verdi.

– Bilmirsən onun əsli haralıdı?

Biz uğunub getdik, onun isə dodağı da qaçmadı, dedi:

– Nə bilim, vallah, itdi də... Biz bura yığışanda gəlib yığışırlar başımıza... sülənirlər.

– Səhvin var... O süləngi itə oxşamır – o birilərini de, deyim hə...

– Nə bilim, vallah.

– Bilmirsən, mən deyirəm dayna...

– Nə bilim, vallah.

Rəmiş içində at oynadan əsəbini qatil kimi boğub atdı içinə, mənə tərəf çevrildi, gözlərində iri, aydın hərflərlə, kiril əlifbası ilə oxunması eynəksiz –filansız mümkün olan, gendən çağıran bir cümlə yazılmışdı:

– Kopoyoğlunun xarabasında dərdləşməyə Adam yoxdu də... – Rəmiş gözlərini qırpan kimi bu cümlə onun gözlərindən silindi və mənə dedi:

– Sənətkar, mən ölüm o it sülənən itə oxşayır?

– Qətiyyən. – qətiyyətlə dedim.

Rəmiş sol əlini sol çiynimə qoyub məni özünə sıxdı, başını sağ çiynimə qoydu: yaşlı Adam kövrələndə beləcə uşaqlaşır və başını qoyub sıxılmağa adam çiyni axtarır, kiminsə çiyninə pənah gətirir, kiminsə çiynində mənəvi sığınacaq axtarır – bəzən tapır, bəzən də...

Yaşar Nuri itlərdən o tərəfdə burda tanış olduğumuz adamlardan biri ilə əl-qolunu ölçə-ölçə söhbət eliyirdi.

Gülü stola xörək gətirən qadınla bir kənarda oturub çay içə-içə bal kimi söhbətin axarına düşmüşdü. Qadınlar danışa-danışa bəzən söhbətin elə bir məqamına yetişirlər ki, onlara elə gəlir ki, dünya yalnız söhbət eləmək üçün Allah tərəfindən yaranmış bir məkandır, deysən indi də o məqamda idilər.
...Unudulmaz, bütün quzeyli-güneyli Azərbaycan xalqının, həm də mənim Məmməd əmimiz – Məmməd Arazın bir cüt misrası:

Ürəyə girməyi bacarmaq azdır,

Ürəkdə qalmağı bacarmalısan...

Cavanlıqda məni çox istəyən, lap indi də istəsin, Məmməd Əminin ədəbiyyatdakı ərköyün “qardaş oğlusu” kimi, bu misralara bir balaca əl yox, ürək gəzdirməkdə məqsədim var, mən icazəliyəm:

Dünyaya gəlməyi bacarmaq azdır,

Dünyada qalmağı bacarmalısan...

Rəmişi dünyaya valideynləri gətirib buraxıblar yer üzünə, behiştlik olsunlar...

Rəmişi dünyada saxlayan, ona “ol” və “qal” deyən isə Gülüdü, Gülü.

Dünyanın bütün kişiləri Rəmişə qibtə eliyə bilərlər.

Gitara kimi Gülünü də Rəmişə Allah yetirib.

Allah Gülüyə deyib:

– Rəmişdən muğayat ol – mənim borcumdan çıx...

İndii Gülü, Yer üzündə Allahın borcunu vaxtlı-vaxtında qaytaran barmaqla sayılası tək-tük qadınlardandı, anam-bacım olasan, Gülü.

Füzulinin nəvələri, Məmməd Arazın qardaşı uşaqları olan bütöv Azərbaycan, o tərəfli, bu tərəfli Araz çayında birlikdə çimən vahid Azərbaycan Rəmişi yaxşı tanıyır. O, heç vaxt taleyinin, alın yazısının “xətrinə” dəyməyib, necə gəldi yaşayıb-yaxşı və haqq yolun da yolçusu olub, pis və nahaq yolun da, ancaq Rəmişin keçdiyi bütün cığırlar və yollar çoxdandır ki, haqq yoluna qovuşub; bütün qovuşuqlarda aydınlıq var-aydınlığın mübarək Qaqa...

Bütün bu cümlələr bir cümləni deməyə nişanlanıb:

– Gülü olmasaydı Rəmişin özünün də, Gitarasının da sümükləri çoxdan çürümüşdü...

Şükürlər olsun ki, bu gün Gülü və Rəmiş Məmməd Arazın yuxarıda dediyim, qoşalaşmış bir cüt misrasına oxşayır:

“Ürəyə girməyi bacarmaq azdır” misrası olmasa,

“Ürəkdə qalmağı bacarmalısan”

misrası, yiyəsiz, tək insanın havadan asılı qalıb yellənən taleyinə bənzəyərdi.

Bu misranın biri Gülüdü, biri Rəmiş... Onsuz da Dünyadakı insanlar hər şeydən çox misralara oxşayırlar – Allahın Yerin alnına yazdığı misralara...
– Sənətkar, nə fikrə getmisən? – Rəmiş başını çiynimdən götürdü.

– Nədi ki?

– Heç də... səni mən dəvət eləmişəm ki, bir yerdə olaq, darıxmışam.

Özümü qanmazlığa vurdim:

– Bir yerdəyik də...

– Yoox.. Çox uzaqlarda idin... hə... bax, indicə qayıdıb gəldin... Gülü hanı? Gülü, gitaranı gətir... hə... Halım yaman qarışıb, bulanlıq arx suyuna oxşayıram.
– Neyləmək istəyirsən ki?

– Durulmaq istəyirəm.

– Neynirsən ee durulub?

– Özümə baxmaq istəyirəm...

Bu yazıda Yaşar Nurisiz, Elnur və Teyfursuz da keçinə bilərdim; ancaq onlar mənə lazımdı – o günü gözlərimin qabağında vulkan kimi püskürəcək bir möcüzənin şahidləri kimi.

Mənim olub-qalanım, hörmətli oxucu, sənin ipinin üstünə odun yığmaq olmaz – bir də gördün ki, yazdıqlarıma inanmadın; onda mən deyəcəm:

– Yaşar Nuri ölməyib ha, inanmırsan ondan soruş. Yaşara inanmırsansa Elnur Abbasovdan soruş, ona da inanmasan Teyfur Xanlarovdan soruş, ona da inanmasan, səninki səndə, mənimki məndə - sənnən qurtardım.

– Sənətkar – Rəmiş qəfil dedi, – Məmməd Arazın yasına getmişdin?

Tay sözüm yoxdu... sözlərim tut qurusuna dönmüşdü, dedim:

– Əlbət ki... çoxdan...

– Çox sevirəm o kişini... bəri bax, sənətkar, Məmməd Arazın Azərbaycan xalqına nə təhər qohumluğu çatır?

Rəmişdi də; onun bu sualı berahat kənd yollarına oxşasa da, dedim: – Hamı ona əmi deyirdi... Deməli Məmməd Araz Azərbaycan xalqının dost-doğma əmisidi – Aqil Abbasdan başqa.

– Aqil Abbasın nəyidi bəs?

– Bütün xalqımızın əmisidi, Aqilin qaynatası.

– Əmi yaxşıdı, qaynata?

– Mənim də, xalqımızın da aləmində əmi yaxşıdı. Aqil Abbasın aləmində isə qaynata ...

– Hə... sənətkar, – o gitaranı kökləyirdi, – hə indi sizin ikinizə bir "Segah" çalacam...

– İkimiz kimdi:

– O itinən sənə... O it çox "muzukalnı" itdi haa... sənətkardı...

– Bəs o biriləri?

– O biriləri də sülənməyin sənətkarıdı. Onlarda qeyrət varsa, mən it kimi uluyaram.

– Neynirsən ki, onların qeyrətini? İt qeyrətnə qalmışıq?

– Yox dana, başqa millətlərin iti də qeyrətli olur, deyirəm heç olmasa... Qabağına sümük at, getsin başqa qapıda hürsün, səni tanımasın – bu, allahsızlıqdı axı.

– İtin də Allahı var ki?

– Millətin də Allahı var, itin də, göyərçinin də... Sizdə bir söz var ee, müəllif, bütün canlıların, yerin-göyün, hamımızın müəllif bir olan Allahdı də.
– Bizim itlər niyə belədi ki?

– Mal yiyəsinə oxşayar də... eşitməmisən?

– Eşitmişəm...

– Bəs onda niyə məni danışdırırsan?

– Nə bilim?

– Qəşəng bilirsən – sən bilməyən şeyə qurd düşər. Nə isə...

– Rəmiş, bir dəfə Qədir Rüstəmovdan soruşdum ki, gitarada muğam çalırlar, bu barədə nə deyə bilərsən? Bilirsən nə dedi?

– Nə dedi?
– Dedi ki, gitara muğam aləmində ikitəkərli velosiped kimi bir şeydi, əlindən

buraxdın yıxılıb böyrü üstə düşəcək yerə...

– Desin dayna... Qədiri o dediyi “ikitəkərli velosiped”in tərkinə alıb o qədər aparmışam ki...

– Hara?

– Uzaqlara...

– Uzaqlarda qoyub gəlmisən onu?

– Yox... nə təhər bir yerdə getmişdiksə, heylə də bir yerdə qayıdıb gəlmişik...

Rəmiş, iraq olsun, uşağı olmayan sonsuz adamlar kimi gitaranı övladlığa götürüb, necə deyərlər, onu milliləşdirdi, ona Azərbaycan pasportu verdi, Gitara oldu bizim birimiz.

İndi Rəmişin Gitarası Avropalıdan, xüsusilə də İspaniyalıdan daha çox Azərbaycanlıya oxşayır.

Rəmişin Gitarası Rəmişin istedadının qarşısında əslini dandı; indi Rəmişin Gitarası da azərbaycanlı olduğunu deyə bilər.

Rəmişin Gitarası əslini dandı, ancaq “əslini danan haramzadədir” fəlsəfəsinin bu məsələyə heç bir dəxli yoxdur. Bir Avropalını Azərbaycanlı eliyən oğul var ee!

Sonra isə Rəmişin övladlığa götürdüyü Gitara doğdu törədi, içində yaxşısı da, orta səviyyəlisi də, ondan aşağısı da var; ancan bunların hamısı bir yerdə Rəmiş olmadılar, çünki Rəmiş bu mənada Allahın bayıssı oğludu, bayıssı oğlu!

Seyid Şuşinski Zeynəb Xanlarovaya İslam Rzayevə, Əlibaba Məmmədova, Rübabə Muradovaya, Sabir Mirzəyevə və s. muğamdan dərs dediyi kimi, Rəmiş də “dil bilməyən, söz anlamayan”, övladlığa götürdüyü, qanı qanımızdan, canı canımızdan olmayan yadelli Gitaraya muğamdan – Azərbaycan musiqi dilindən dərs dedi. Rəmiş elə dərs dedi ki, bu Avropalı Gitaraya bir dərs oldu...

Bir rus və yaxud ingilis azərbaycanca tər-təmiz danışanda Adama necə ləzzət eliyərsə, Rəmişin yadelli Gitarası da onun sinəsində muğamca dillənəndə Adama elə ləzzət eliyir.

Rəmiş Gitaranın Azərbaycanda müəllimidir...

İndi dünyanın alimləri üzünü görmədikləri bir adamın barmaq izlərini götürüb o adamın üzünün dəqiq şəklini çəkə bilirlər.

Rəmişin Gitaranın pərdələri üstündə vurnuxan, özünə yer tapa bilməyən barmaqları isə onun özünün və Muğamımızın şəklini səslə çəkirlər – səsli şəkil.

Təssəvür eliyə bilirsinizmi? Təsəvvür eləsəniz yaxşıdı... Ürəyinizi və beyninizi işlədin də. İşlətsəniz görəcəksiniz ki, Rəmiş Dahidi.

Rəhmətlik Poqonini də Rəmiş kimi bir möcüzə idi.

Fərq yalnız burda idi ki, Poqonini öz həmyerlisini – skripkanı övladlığa götürmüşdü, şərqli Rəmiş isə Avropalının birisini... Gitaranı.

...Rəmiş Gitarası ilə qucaqlaşıb getdi. "Segah"ı qarşılamağa – bizi də özüynən apardı.

Rəmiş "Segah" çalırdı. Məni bağışlayın, onun necə çaldığını yazmağa mənim kişiliyim çatmaz.

Kimin kişiliyi varsa, onun lent yazısına qulaq asın və yazsın, sevinməyən heç Adam deyil. Ancaq gözümnən gördüyüm bir şey oldu, onu yazmağa təpərim var.

Rəmiş "Segah"ı başlayandan bir-iki dəqiqə keçməmiş, həmin o tənha it əvvəlcə qulaqlarını şəklədi, sonra yuxulu bir görkəmlə gəlib Rəmişin qənşərində şonqudu, sonra isə əyləşib çənəsini irəli uzatdığı qabaq əllərinin üstünə dirəyib kiprik çalmadan qulaq asmağa başladı. İtin belə nümayişkaranə (bizə elə gəldi) gəlişini hamı gördü.

Rəmiş gözlərini yumub "Segah"ın əl-ayağına düşmüşdü, ilan dili çıxarıb yalvarırdı.

Bu darvazasız–qapısız, uçuq-sökük, sınıq-salxaq məkanın altmış-yetmiş addımlığındakı Doqquzmərtəbə binanın eyvanları Adamla dolu idi.

Onlar da öz "lodca"larında uyumuşdular və bizə yuxarıdan baxırdılar, yuxarıdan aşağı yox.

İt də uyumuşdu. İtin qulaq asmağı hamımızını içini alt-üst eləmişdi. Təəccübdən əlimiz ağzımızda qalmışdı.

Rəmişin isə itdən xəbəri yox idi. Rəmişin milyonlarla pərəstişkarı var, ancaq belə

dinləyicisi, belə fanatı – heç vaxt olmamışdı, bəlkə də heç vaxt olmayacaqdı. Möcüzə min ildə bir dəfə olur və bu möcüzə bizim bəxtimizə düşmüşdü.

Mən tez Gülünü çağırdım, o, itin Rəmişə necə qulaq asmağını axıra qədər lentə aldı...

"Segah" qurtardı. İt qaldığı yerdə xeyli tərpənmədi, sonra suya düşən itlər kimi silkələndi, biz-biz dayanmış tükləri hamarlandı, ayağa qalxdı, gedib başını Rəmişin dizinin üstünə qoydu; çiyninə yox, it olsa da yerini bilirdi.

Rəmiş bunu İtin adicə mehribanlığı, vəfası kimi qəbul elədi; İtin ondan xəbəri olsa da, Rəmişin itdən xəbəri yox idi.

Rəmiş Doqquzmərtəbəli eyvanlarda sıxlaşmış adamları görəndə bir "Tərəkəmə" çaldı.

Bütün buna rəqs eləyirdi. Adama elə gəlirdi ki, bütün Dünya bu Doqquzmərtəbədən ibarətdi və Dünyanın yeddi qatı yox, doqquz qatı var.

Adama həm də, elə gəlirdi ki, bütün Bəşəriyyət bu Doqquzmərtəbəyə yerləşib və Doqquzmərtəbə Bəşəriyyət "Tərəkəmə" oynayırdı.
Rəmiş çalırdı, bütün Bəşəriyyət rəqs eləyirdi...

Adama elə gəlirdi ki, Dünya Dağılmır...

**15 may 2009-cu il**

## BOYUNU ƏYRİ KİŞİ

***Qızım Ləmana***

- Alo, bura məscidin mürdəşir şöbəsidi?
- Bəli.

- Bağışlayın, mən kiminlə danışıram?

- Baş mürdəşirlə.
- Bağışlayın, ölünün birini neçəyə yuyursunuz?
- O baxır ölünün çəkisinə, boy-buxununa…

- Çəkisi səksən kilo, boyu da bir metr yetmiş dörd.
- Yüz əlli dollara.

- Üzr istəyirəm, qohumlardan gəlib kömək eləyən olsa ucuz eləmək olar?
- Yox. Kənar adamları içəri buraxmağa ixtiyarımız yoxdu.

- Sağ olun.
- Siz də sağ olun. Nə vaxt lazım olsa, qulluğunuzda hazırıq. Dud… Dud… Dud… Dud… Dud…

* * *

İstədi ki, həyətə baxan pəncərəni açıb siqaret çəksin, həmin hamilə qadını yenə gördü. Hamilə qadın yuxarı mərtəbələrə tərəf boylanıb səsini başına atdı: - Xlor var, xlor, xlor, mebel yağııı!!!

İstədi pəncərəni açıb var səsi ilə qışqırsın: - Axı bu məmləkətdə nöyüt də var, nöyüüüt, nöyüüüt! – Abırına qısıldı. Ancaq hamilə qadın əlindəki konistrləri yerə qoyub mələyirdi: - Xlor var, xlooor, xlooor, mebel yağııı!!!

Hamıdan qabaq xlorsatan gəlirdi, dalınca da qatıqsatan, süpürgəsatan, ətsatan, balsatan, hər şey satan…
Bu şəhərdə hər şey satılır. Hər şeyi sata-sata çevrilib satqın olmarıq ki, görəsən?..

Nisbətən xəlvəti sayılan, səs-küydən bir az uzaq olan arxa otağa keçmişdi. Kresloda əyləşmiş, boynu sola əyilmişdi, gözləri yol çəkirdi. Bu yolun isə nə əvvəli, nə sonu vardı.

Özü də tərpənib eləmirdi – adama elə gəlirdi ki, onu kreslo ilə birlikdə düzəltmişdilər. Onun baxışları bu dünyanın hüdudlarını çoxdan keçib getmiş və bir cüt mil kimi naməlum bir nöqtəyə sancılan andaca donmuşdu – tərpənsəydi, bəlkə də milə dönmüş baxışları qayıdıb gözlərini tökərdi, onu dünya işığına həsrət qoyardı.

Bəs, bu kişinin boynu niyə sol tərəfə əyilmişdi, hə?.. Bir az da diqqətlə baxsanız, görərsiniz ki, elə deyil, onun boynu sola əyilməyib, sadəcə olaraq başını qoyub

ürəyinin üstünə. Dünyanın səs-küyündən təngə gələndə həmişə belə eləyir - başlayır ürəyinin səsinə qulaq asmağa – əlli ildən çoxdu belədi – əlli ildən çoxdu Allah onu belə boynu əyri yaradıb.

Aləm qopsaydı, boynu əyri kişinin xəbəri olmazdı. Aləm qopsaydı, boynu əyri kişinin boynu düzəlməzdi. Abşeron bağlarındakı ağaclar kimi əyri idi bu kişinin boynu – hara düzəlirdi ki… Gərək küləklər tərsinə əsəydi…

Boynu əyri kişi oturub bu dünyanın dərdini çəkirdi – gücü çatmırdı. Dizini yerə qoyub çəkirdi – gücü çatmırdı. Lap gücü çatsaydı bu dünyanın dərdini hara aparacaqdı, hara tökəcəkdi – bu barədə heç özü fikirləşməmişdi.

O, son vaxtlarda dünyadan tez-tez küsürdü, necə deyərlər, dünya ilə yola getmirdi. Küsüb öz aləminə çəkilirdi, təklik ona bu dünyada olmaqdan da əzab-əziyyətli görünəndə, getdiyi kimi də qayıdırdı.

Özü qayıdırdı – onun dalınca heç bir minnətçi-filan getmirdi. Həmişə belə qayıtmalar onu öz gözündə bir az da hörmətsiz eləyirdi – Allahın da, bəndənin də nəzərindən düşüb olurdu heç nə… Kim idi onu saya salan…

Həmişə belə vəziyyətə düşəndə başı başlayırdı uğuldamağa, elə bil başının içində üzqırxan maşın işləyirdi. Balaca qızı ilə bir az söhbət edən kimi keçib gedirdi.

Otağın kiçik pəncərəsindən içəri dolan küləyin qanadının altından bir sərçə çıxdı, özünü ora-bura çırpandan sonra çilçırağa qondu. Sərçə çaşmışdı, harada olduğunu dərk eləmirdi, heç buna çalışmırdı da, çünki öz quş beyninə bələd idi. Çilçırağın üstündən qanadlandı, otaqda dövrə vura-vura, ciggildiyə-ciggildiyə canını qurtarmaq istəyirdi.

Xeyli dövrə vurandan sonra özünü pəncərənin pərdəsiz şüşəsinə çırpdı, kənd uşaqlarının əski parçalarından düzəltdiyi balaca top kimi yerə düşdü, dimdiyindən iki damcı qan gəldi, rəngsiz döşəmə iki damcı qızardı. Ancaq sərçə nahaq yerə belə elədi, gərək uça-uça gedib kresloda oturan kişinin əyri boynuna qonaydı və elə biləydi ki, əyri bir budağa qonub…

Onsuz da boynu əyri kişinin xəbəri olmazdı – o, bilmirdi ki, onun otağında ölü var… Boynu əyri kişi bilmədi ki, onun otağında qan tökülüb, bilmədi ki, oturduğu yerdə qana düşüb – öz aləmində idi…

Sərçə gərək kresloda oturan kişinin əyilmiş boynuna qonaydı – belə olsaydı kişinin boynu tumurcuqlayardı, yarpaqlayardı və sərçə də çox asanlıqla bu yarpaqların arasında quşlar necə xoşbəxt ola bilərlərsə, eləcə xoşbəxt olardı…

Ancaq olmadı – qorxdu. Boynu əyri kişi də oturduğu yerdə bitərdi – ağac olardı – nə qədər adam olmaq olar eee… Adına da deyərdilər Oturan Ağac. Yer üzünün ən məşhur ağacı olardı, ağacların şahı olardı – kreslosu da vardı… ancaq olmadı.

Boynu əyri kişi ağlı kəsəndən başını ürəyinin üstünə qoyub onun səsinə qulaq asırdı. Bu kişi gördüklərindən bezmişdi, indi də eşitdiyini görmək istəyirdi və elə görürdü də – eşitdiyini gözünə təpirdi…

Divarın o üzündə yaşayan, aylarla Dubaydan vurub Parisdən çıxan, gün-güzəran dalınca dünyanı ələk-vələk eliyən, səsli-küylü, şən qonşu qadının gülüşləri Niaqara şəlaləsi kimi boynu əyri kişinin başından tökülüb ayağından çıxdı – xəbəri olmadı.

Oğlunun Ceri adlı pişiyi pəncəsilə qapını aralayıb içəri girdi, təəccüblə onun sir-sifətinə baxıb nədənsə arxayın olandan sonra körpə bığlarını qabardıb hələ qanı və canı soyumamış sərçəyə yaxınlaşdı, əvvəlcə döşəmənin bir-iki damcı qızartısını yaladı, sonra sərçənin boğazından yapışıb xəlvətə çəkildi – yenə xəbəri olmadı.

Bir azdan pişik dodaqlarını yalaya-yalaya geri qayıtdı, çömbəldi, xeyli öz sahibinə tamaşa elədi, bir də iştahla dodaqlarını yaladı. Adamın əti ürpəşdi; yaxşı ki, boynu əyri kişiyə baxan pişik pələngin nəslindən olsa da, pələngin özü deyildi. Və yaxud da, yaxşı ki, boynu əyri kişi insan idi – sərçə deyildi.

Pişik boynu əyri kişiyə xeyli tamaşa eliyəndən sonra, sağ pəncəsilə qulağını qaşıdı, dodaqlarını bir də yaladı, elə bil kresloda oturan kişiylə bir otaqda olmaqdan darıxdı, ulu babası pələng kimi cəld oturduğu yerdən qalxdı və nəslinə-kökünə yaraşan amiranə addımlarla otağı tərk elədi, pişik olduğu yadına düşən kimi isə başladı sərçənin didilmiş tükləri ilə oynamağa.

Və bilmədi ki, sərçənin didilmiş tükləri ilə yox, sərçənin ruhu ilə oynayırdı… Onsuz da adamlar sərçə kimi tüklənmir ha… Elə boynu əyri kişi də…

İnstitutda oxuyan böyük oğlu saqqız çeynəyə-çeynəyə içəri girdi, qulaqlarında da rus demişkən, nauşnik – kişinin oğlu musiqiyə qulaq asırdı. O, həmişə bu vaxtlar üzvü olduğu «Qara Dəmir» Cəmiyyətinin yığıncağından gəlirdi. Hər yerdə nauşnik qulağında olurdu; toyda, yasda, institutda, metroda-şəkil çəkdirəndə də onu başından çıxardıb bir tərəfə qoymurdu.

Son beş-altı ildə nə qədər şəkil çəkdirmişdisə, hamısı, bax beləcə musiqiyə qulaq asdığı yerdə. Zalım oğlu elə bil anadangəlmə beləydi.

Atasına fikir vermədi – onun kresloda belə oturmağına adət eləmişdi. Televizoru

yandırdı, ayaq üstə divara söykənib bir az baxdı və tez də bezdi. Ağzındakı saqqızı şar kimi üfürüb partlatdı, sonra da vecsiz-vecsiz çeynəməyə davam etdi.

Oğul ani atasını süzdü, pişik kimi o da darıxdı, televizoru söndürmədən, musiqiyə qulaq asa-asa otağı tərk etdi, qapını bağlayıb həyətə düşdü və səs-küyə qarışdı.

Boynu əyri kişinin yaşadığı evin beş-on addımlığındakı divarları qocalmış dördmərtəbəli məktəbin qəfil zəngi nizə kimi onun halsızlığına sancılıb yüngülcə silkələdi.

Dərs qurtarmışdı, uşaqların hay-küyü buraları başına götürmüşdü – hamısı danışırdı, özü də qışqıra-qışqıra, it yiyəsini tanımırdı, yiyəsi də iti. Elə bil dünyanın ən böyük bazarı gəlib onun evinin içindən, yaxud da beyninin içindən keçib gedirdi.

Hər gün belə idi. Bəzən boynu əyri kişi qulaq kəsilirdi, ancaq bir söz belə başa düşə bilmirdi. Axırda da bu qərara gəlirdi ki, yəqin millətin gələcəyindən danışırlar.

Sonra isə özündən soruşurdu: - Millətin gələcəyindən yavaş-yavaş, pıçıltı ilə danışmaq olmaz ki? Yəqin olmaz də… - beləcə razılaşırdı. «Xalqın səsi nə qədər bərk gəlsə, o qədər yaxşıdır… axı, bunlar hələ xalq deyil uşaqdılar… Yaxşı, olsun gənc xalq… axı bunlar gənc də deyillər. Yaxşı, olsun körpə xalq, südəmər xalq».

Məhlənin həmin məktəbdə oxuyan uşaqlarının məktəbi daşa basıb pəncərələri qırıq-qırıq elədiklərini, bundan zövq aldıqlarını, sevindiklərini xatırladı və ürəyinin dayanmağına bir şey qalmadı.

O gün məktəbi yaman daşa basdılar. Məktəb diz çökdü, saçlarını dizlərinin üstünə töküb zülüm-zülüm ağladı, əllərini yuxarı qaldırıb göylərdən imdad dilədi, «südüm sizə haram olsun» demədi – elə bil Məhsəti Gəncəvini daş-qalaq eliyirdilər…

Boynu əyri kişi o gün pəncərədən nə qədər qışqırsa da, onun səsi eşidilmədi, onun səsinə səs verən olmadı. O gün onun könlündən nələr keçsə də, bütün Azərbaycan xalqı öz işində idi. O vaxtdan boynu əyri kişi Azərbaycan xalqı ilə küsülüdü və Azərbaycan xalqının da bundan xəbəri yox idi.
Uşaqlar isə qalib ordunun əsgərləri kimi üst-başlarını çırpıb heç bir itki vermədən evlərinə dağılmışdılar.

Məktəb dizinə döyə-döyə, saçını yola-yola hönkür-hönkür ağlayırdı – məktəb onu daşqalaq eliyən balalarını ağlayırdı – məktəb sonsuz qadın kimi ağı deyirdi…

Boynu əyri kişi dördüncü mərtəbədəki mənzilinin məktəbə baxan pəncərəsində açılıb qalmışdı. Elə bil bu «pəncərə» heç vaxt bağlanmayacaqdı.
Kiçik oğlu içəri girəndə atasını həmişəki kimi kreslonun üstündə gördü, gəlib onun üzündən öpdü, salam verib dedi:

- Ata, pulun var?
- Neynirsən, ay oğul pulu?

- Dostumun on yeddi yaşı tamam olur…
- Yoxdu… ancaq bu yaxınlarda olacaq.

On birinci sinifdə oxuyan kiçik oğul altı ildi ki, bu sözləri eşidirdi, adət eləmişdi.

- Allah qoysa, - dedi və o da böyük qardaşının dalınca getdi.

Oğlunun arxasınca ürəyi qaldı, uşağa yazığı gəldi. Gözləri doldu. Bircə dəfə gözlərini qırpdı, bəs elədi, gözlərindən axan yaş yanaqları ilə üzü aşağı süzülüb çənəsinin çuxurunda birləşərək iri bir damcıya dönürdü, orda da qərar tutmayıb sinəsinə damdıqca ürəyi isinirdi və yavaş-yavaş özünə gəlirdi – elə bil bütün varlığının donu açılırdı, qırışı hamarlanırdı.

Dünyada var olduğunu hiss eliyən kimi asta-asta ayağa qalxdı və onun bu hərəkəti ayağa qalxan adamdan çox, nəyisə qaldıran adama daha çox oxşayırdı. Əllərinin arxası ilə gözlərini silib məktəb tərəfə baxan pəncərəni açdı, siqaret yandırdı, dərindən bir neçə dəfə qullab vurandan sonra hava ilə birlikdə iştahla içəri çəkdi. Bu hərəkəti bir neçə dəfə təkrar eliyəndən sonra özünə gəldi.

Hava qaşqabağını sallamışdı, Bakı küləyi öz borcunu namusla yerinə yetirirdi, həm də axşamüstü idi – payız axşamı; hər şey onun xoşladığı kimidi – bircə leysan yağış çatmırdı. Bərk istəyirdi ki, yağış yağsın və yağanda göyə baxsın, yağış onun gözünün içinə yağsın; indi də könlündən bu keçirdi.

Divar saatı altını vuran kimi qapının zəngi də çalındı, telefon da bu tərəfdən. Bu evdə belə şeylər tez-tez olur. Qapını açdı: - Gəl, gəl. – dedi və yadına düşdü ki, onun yanına bu gün jurnalist gəlməliydi və gəldi. Onun qoluna girib pəncərənin qabağına gətirdi: - Gör nə gözəl yağır…

Gəl axıracan baxaq – başını qaldırıb göyə baxmaq istədi, ancaq eləmədi, əlini pəncərədən çölə çıxartdı, - bəh-bəh, gör nə yağır… bax, ay oğul…
- Vallah, doğulduğum yerdə həmişə yağış, duman… - jurnalist dilləndi.

- Londonda doğulmusan, - boynu əyri kişi gözünü pəncərədən çəkmədən soruşdu.

- Yox, Lənkəranda…

- Lap yaxşı, - boynu əyri kişi gözünü pəncərədən çəkməyib dedi, - yağışa baxa-baxa söhbət eliyə bilərik?
- Xeyr, mənim öz stilim var, gərək əyləşib söhbət eliyək.

- Neynək…
Jurnalist gülümsədi və öz aləmində razı qaldığını belə bildirdi.

Boynu əyri kişi dinməz-söyləməz keçib öz yerində əyləşdi. Jurnalist tez-tələsik diktafonu çıxartdı, yoxladı: - bir-iki, bir-iki… hazırsınız?
Boynu əyri kişi onun bu sualını fotoqrafların verdiyi suala daha çox oxşatdı.
Jurnalist diktafonun düyməsini basıb dedi: - Sizinlə çox açıq söhbət eləyəcəyik ha… Özü də mənim suallarım qəliz olsa inciməyin…

- Buyur bala, qəliz deyirsən qəliz olsun…
- Deməli, belə… - bloknotunu açdı, - birinci sualım belədi: - Xalqımız sizi bir sənətkar kimi sevir, sizin namusla, qeyrətlə…
Boynu əyri kişi onun sözünü kəsdi: - Mətləbə keç…

Jurnalist bir az pərt olsa da, bir az da ürəkləndi, zorla gülümsəyib dedi: - Oldu, - və tələsik də əlavə etdi, - bic doğulmuş uşaqlar tarix boyu həmişə olub, onlara münasibətiniz?

- Münasibətim çox yaxşıdı. Bic doğulanların bəxti çox yeyin olur. Haq-hesaba vursan görərsən ki, çox vaxt dünyanın sahibi onlar olub. Bic doğulmuş uşaqlar çox cins uşaqlar olub. Bir şey ki, el-obanın yaxından köməyi ilə başa gələ, onun nəyi pisdi.

Rəhmətlik Miçurin dəli olmuşdu ki, ağacları bir-birinə calayırdı. Ağacların şüuru və namusu olmadığına görə bu proses onlarda insanları əli ilə həyata keçirilir. İnsanlarda isə bu calaq məsələsi şüurlu şəkildə və ehtiyatla, xəlvəti, həm də intim şəkildə baş alıb gedir - bayaq dediyim kimi, el-obanın yaxından köməyi ilə bir-birimizə calana-calana gedirik də…

Bic doğulmuş uşaqlara el arasında qırx çalanın damazlığı da deyirlər – onlar hər şeyə qadirdilər.
- İkinci sual: siz bic doğulmuş uşaq görmüsünüz?

- Bəli… özü də ekiz.
- Bic, hələ üstəlik də ekiz?

- Bayaq dedim axı, - gülümsəyir, - el gücü, sel gücü. Miçurin özü də bic olub… elə Gertsen də…
- Gertsen də?!

- Nədi ki, qohumunuzdu?
- Yoox… Allah vurmuşdu onu…
İstiləndi, qızardı, dodaqlarını yalayıb növbəti suala keçdi:

- Siz çox məlumatlı adamsınız, onda deyin görək, bizim ölkəmizdəki görkəmli adamların içində bic doğulanı varmı?

- Var! - Dil-dodağını çeynədi, - var, var, - sıxılmış dişləri aralanan kimi dedi, - var… Dədə Qorqud, Nizami, Füzuli, Nəsimi, Vaqif, Sabir, Mirzə Cəlil, vəssalam! – Bir az da əsəbləşdi. – Yerdə qalan müdriklərimizin hamısının ətəyində namaz qılmaq olar – istəyir dünənki müdriklərimiz, istəyir bugünki. – Bir an fikrə getdi, - bir də son vaxtlar Üzeyir bəydən şübhələnmişəm – deyəsən o da…

Jurnalist kreslonun üstündə donmuşdu, bircə boynu əyilməmişdi.
Özünə gələn kimi sual verdi:

- Bu qəzəb sizdə hardandı? – birinci sualdan sonra bloknotu bağlamışdı.
- Onu da özün fikirləş tap.

- Mən tapa bilmərəm, xahiş edirəm, deyin görək, bu qəzəb sizdə hardandı belə?
- Sevgidən.

Jurnalist elə bil ki, sevinən kimi oldu:
- Günlərin bir günü xalqdan imtahan götürsəniz…
Boynu əyri kişi onun sözünü kəsdi: - Hansı predmetdən?

- Əxlaqdan xalqa neçə verərdiniz?
- Əxlaqdan iki… yaltaqlıqdan beş, tamahdan beş.
- Bəs özünüzə…

- Özümə? Yaltaqlıqdan iki verərdim, tamahdan da iki, əxlaqdan da xalq imtahan götürər, neçə versə bəsimdi…
- Birdən xalq da sizə iki verdi?

- Cəhənnəmə versin, xalq indiyəcən kimə düz qiymət verib ki, qaldım mən.
- Heç kimə düz qiymət verməyib?

- Heç kimə.

- Bəs deyirlər xalqın gözü tərəzidi…
- Bu sözləri xalq özü özü haqqında deyib və təvazökarlıqdan uzaq şeydi. Tərəzi bu xalqın gözündə yox, əlindədi…

Jurnalist oturduğu yerdən dik qalxdı və az qala boynu əyri kişiyə yalvardı: - Bəs xalqı bu vəziyyətdən necə xilas etmək olar, onu necə təmizləmək olar?
Boynu əyri kişi yerində qurcalandı, gözlərini bir nöqtəyə zillədi, sağ əlini bir neçə dəfə havada oynadıb dizinə çırpandan sonra dedi:

- Sən meşədə böyümüsən də… - jurnalistin diksindiyini hiss eləmədi, - meşədə çürüntü torpağa qarışır, üstünə qar-yağış tökülür, təmizlənib gedir. Xalqda isə çürüntünün torpağa qarışmaq şansı, imkanı yoxdu – çünki xalq meşə deyil, insan da ağac. Meşədə gedən bu kortəbii proses cəmiyyətdə şüurlu surətdə baş verməlidi.

- Bir az qısa deyə bilərsiniz? – jurnalist risk elədi.

- Qısası bdur ki, qurbanı olduğumuz xalqımızı yetkin, əxlaqlı, mədəni xalqlar cərgəsinə çıxartmaq üçün gecikmədən, dövlət səviyyəsində yer üzündə analoqu olmayan bir institut yaratmaq lazımdır.

Sonra isə genetik seçim yolu ilə təzə doğulmuş körpələri – oğlan və qızları bizlərdən və bizi əhatə edən bu mühitdən uzaqlaşdırıb tam ayırmaq, onlar üçün son dərəcə sağlam bir mühit və hər cür şərait yaratmaq, bir millət kimi hər şeyi təzədən başlamaq lazımdır – jurnalistin gözünün içinə baxdı, - başqa yol yoxdur, vəssalam!

- Bu, neçə ilə başa gələr?
- Yüz ilə… orta hesabla…

- Başqa yol yoxdu?

- Mən görmürəm… bir də, bala, xalqı təmizləmək paltar yumaq deyil ki. Əgər yüz il sənə çox gəlirsə, onda o paltaryuyan maşın olur ee, siz də gedin bir dənə «Xalqyuyan» maşın ixtira eləyin, tökün xalqı o maşina, yusun təmizləsin də…

Xeyli susdular… Boynu əyri kişinin sonbeşiyi, altıncı sinifdə oxuyan qızı icazəsiz-filansız içəri girdi: - Ata, bu gün beş aldım, gündəliyimə baxırsan?

- Sonra! Sonra! – qız uşağının qəlbinə dəydiyini söz ağzından çıxandan sonra hiss elədi və tez də özünə bəraət qazandırdı: Noolsun, heç o boyda nəhənglərin («bic doğulmuş» tarixi şəxsiyyətlərimizi nəzərdə tuturdu) tarix boyu qəlbinə dəyiblərsə və dünya dağılmayıbsa indi də dağılmaz… heç nə olmaz…

Boynu əyri kişinin ürəyindən keçənlərdən jurnalistin xəbəri olsaydı bir az da çaşardı, xəbəri olmadı və çaşmadı.

- Bir sual da, - boğazını artladı, - Azərbaycanda elə məşhur ailələr var ki, elə son yüzilliyi götürsək tarixin bir-birilə daban-dabana zidd olduğu müxtəlif zaman kəsiklərində həmişə bu xalqdan yarıyıblar, hətta yeri düşəndə heç xalqı da bəyənməyiblər, xalqa yuxarıdan baxıblar.

Bax, o cür nəslə-kökə, o cür ailələrə necə baxırsınız? Firavan, şan-şöhrətli yaşamaq xatirinə dünən dediyi sözü bu gün tərsinə danışan, sabah nə deyəcəyi isə qətiyyən məlum olmayan ailələri deyirəm.

- O cür adamların, təəssüflər olsun ki, ailələrin, hətta nəsillərin min sifəti olur, biri məlum olanda o biri sifətini göstərir – yəni sifətdən boldular. Onlar çürüntüdülər. Çoxusu da xoşqeyrət olur.

Bax, xalqı onlardan təmizləmək üçün o bayaq dediyim institutu yaratmaq lazımdır. O cür məşhur və «aparıcı» nəsillərdən bu xalqı qorumaq lazımdır. Yoxsa, hamı onlara oxşamaq istəyəcək və sonra bu istəyin qabağını Allah da ala bilməyəcək…

Mənim şəxsi münasibətimə gəlincə isə, mən onlardan iyrənirəm. Onların nəinki sifətini görmək, onlar baxan güzgüyə baxmaq da təhlükəlidi. Bax, xalqın iyrəndiyi əsl bic doğulmuşlar, haramzadələr onlardı. Yoxsa, yazıq Füzuli…

İkisi də birtəhər olmuşdu. O qədər susdular ki, qız çay gətirdi, deməli, bir çay dəstgahı başa gələnə qədər susublar. Sükut pozuldu:
- Ata, jurnalist əmidi?

- Bəli, qızım.
- Böyüyəndə mən də jurnalist olacam.

- Allah qoysa, - jurnalist xeyir-dua verdi, - nədən yazassan?
- Atamdan yazacam, - dili azca dolaşdı, - yazacam ki, atam düz adamdı, yaxşıdı, çoxlu pulumuz yoxdu, axı neçə ildi işləmir, elə oturur evdə. Amma deyir ki… - səsi titrəyir, - hər şey yaxşı olacaq.

Bayaqdan titrəyən səsi qırıldı, atasının sinəsinə sığındı, körpə quş kimi titrəyirdi:

- Mənim atamın nə yaşı var ki, cəmisi əlli iki. Onu hamı tanıyır… - atasının qollarının arasından çıxıb iri gözlərini jurnalistə dikib dedi:
- Atam deyir ki, hər şey yaxşı olacaq… çayınızı için də…

- Qızım gündəliyini gətir baxaq.
Qız elə sevindi ki, axırıncı «beş»i atasına, bütün gündəliyini jurnalistə göstərdi, - hamısı beşdi, - dedi və ehmalca çıxıb getdi.
Boynu əyri kişi yerindən qalxıb pəncərəyə yaxınlaşdı:

- Bir az dincəl…
Jurnalist o saat «təslim» oldu.

Gecə yarıya qədər söhbət uzandı və tamamlanmadı. Bu söhbət heç vaxt qurtarmayacaq – ikisi də bir-birindən xəbərsiz bu qənaətə gəlmişdi. Diktafonun lenti də, bloknot da çoxdan dolmuşdu.

Boynu əyri kişinin ürəyi isə boşalmamışdı. Jurnalistin getməyini istəmirdi. Bir azdan yenə özü ilə tək qalmalıdı – üzbəüz. Özü ilə tək qalmaq dünyanı idarə etməkdən qat-qat çətindi – hələ Allahdan başqa özü ilə tək qalan olmayıb. Əstəğfürullah…
Qapıdan çıxanda boynu əyri kişi jurnalistə dedi:

- Mənim dediklərimə o qədər bənd olma, cavansan. Bir xahişim də var, o bic doğulanların siyahısını çap eləmə ha, acığımdan deyirdim – onu özün üçün tərsinə yozarsan.
- Gecəniz xeyrə qalsın.

Qapını bağladı və təkləndi. Qeyri-ixtiyari gəlib pəncərənin qabağında dayandı. Özünə söz verdi ki, bir də kresloda oturmasın. Yağış dünyanı yuyub-təmizləməklə məşğul idi. Dünya gözəlləşirdi – göylərin insan sifəti görməyən gözəlliyi yerə tökülürdü. Dünya gözəl idi və yağışa düşmüşdü. İndi bu gözəlin sünbülündən su damırdı. Əhsən!..

Yağış boynu əyri kişinin gözünün qabağında səhərəyaxın kəsdi. Boynu əyri kişinin pəncərəsinin qabağında bir gözəl dayanmışdı – bu gözəlin adı Səhər idi. Boynu əyri kişi Səhərlə üzbəüz dayanmışdı.

Səhər də iri, ala gözlərini boynu əyri kişinin üzünü zilləmişdi. Deyirlər gözəllə üz-üzə dayananda ən eybəcər adamın özü də gözəlləşir. Boynu əyri kişi yer üzündə yaşayan bütün azərbaycanlıları bu Səhərlə üzbəüz görmək istədi. Ancaq sən saydığını say, gör Azərbaycan xalqı nə sayır – axırda saydıqlarınızı tutuşdurarsınız, boynu əyri kişi…

- Alo, bura qəbiristanlıqdı?
- Bəli.
- Bağışlayın, mən kiminlə danışıram?

- Baş qəbirqazanın müavini ilə.
- Bağışlayın, qəbirin birini neçəyə qazırsınız?
- O baxır ölünün gövdəsinə, eninə, uzununa.

- Ölünün uzunluğu, - səsi titrədi, - bir metr yetmiş dörd…
- Yüz əlli dollar.

- Üzr istəyirəm, özümüz də gəlib kömək eləsək bir az ucuz olar?
- Xeyr, ixtiyarımız yoxdu.
- Sağ olun.

- Siz də sağ olun, nə vaxt lazım olsa, qulluğunuzda hazırıq. Səsiniz mənə çox tanış gəlir, kim idi ki, danışan?
- Azərbaycan xalqı…

Çox axtardı kağız tapmadı. Stolun siyirtməsində altı il bundan qabaq ölmüş əmək kitabçası əlinə keçdi, vərəqlədi, gördü ki, on altı yaşından işləyir. Əmək kitabçasının boş vərəqində əlindəki diyircəkli qələmlə Mürdəşirin,

Qəbirqazanın, Mollanın, qırx gün ərzində urvatsız bir adam üçün verilən ehsanın pullarını dəqiq hesabladı və onun aləmində çox fantastik bir rəqəm alındı. Bədəni buza döndü. Fikirləşdi ki, yaşamaqla ölmək arasında o qədər də böyük fərq yoxdu. Dərindən fikirləşəndə isə ölmək daha çox pul aparırdı. Əlindəki qələmi bir tərəfə tulladı.

Əmək kitabçasının hesab apardığı vərəqini cırdı, alışqanla onu külqabında yandırdı ki, uşaqların əlinə keçər, qorxub eliyərlər. Kağız yanıb qurtaran kimi vaxtilə dostunun ona yadigar verdiyi şüşə külqabı tən ortadan iki yerə bölündü.

Boynu əyri kişi qalxıb pəncərəyə yaxınlaşdı, pəncərəsini payızın üzünə açdı. Çiskinləyirdi.
Payızdan utanmasaydı var gücü ilə qışqırardı:

- Yaşasın Azərbaycan xalqı!!!

**30 sentyabr 1997-ci il**

**CƏHƏNNƏM**

*Ramiz Rövşənə*

**“Yer üzündə yaşayan əhalinin tam əksəriyyəti üçün nəzərdə tutulmuş Ölümə-Ucuz Ölüm deyilir”**

- Lənət əleykə!
- Əleykə lənət!

- Hardan gəlirsən!

- Cəhənnəmdən!
- Hara gedirsən!

- Cəhənnəmə!

- Hə... Sən heç bu dünyanın adamına oxşamırsan.
- Nədən bilirsən ki?
- Görmürsən hamı sənə baxır...

- Cəhənnəmə baxsınlar... noolsun elə mən də onlara baxıram.
- Onların nəyinə baxırsan?

- A gədə, nə belə İnkir-Minkir kimi məni sorğu-suala tutursan axı?!
- Niyə qışqırırsan, sözdü də soruşduq... bəri bax, sən doğrudan Cəhənnəmdən gəlmisən?
- Doğrudan!
- Özün haralısan?

- Cəhənnəmliyəm!
- Yox eee, Cəhənnəmin harasındansan?
- Əəə, Cəhənnəmin harası olur, gic-gic danışırsan?!

- Niyə qışqırırsan, sözdü də soruşduq...
- Qışqırmayanda gözüm kəlləmə çıxmır ee...

- Hə, yaxşı, bəri bax, xeyir olsun, nə yaxşı biz tərəflərə təşrif gətirmisən? Özü də Cəhənnəmdən bura nə təhər gəlib çıxmısan bu uzunluqda yolu?
- Birincisi Cəhənnəmdən bura beş dəqiqəlik yoldu – bizə ən yaxın məmləkət sizinkidi – yer üzündəki ölkələrin içində ancaq sizinlə həmsərhədik... Hirsləndim yenə... o biri sualın nə oldu?
- Deyirəm nə yaxşı biz tərəflərə...

- Dövlət nümayəndəsi kimi gəlmişəm!
- Sən hansı dövləti təmsil edirsən?
- DACR dövlətini...

- DACR nədi?
- Demokratik Azad Cəhənnəm Respublikası... nə gözlərini bərəldirsən, belə dövlət eşitməmisən?

- Eşitmişəm... ancaq biz elə qısaca olaraq Cəhənnəm deyirik... Hirslənmə, bundan sonra biz də elə deyərik... Bəri bax, sizin ölkəyə turist kimi gəlmək olar?
- Niyə olmur, nə vaxt istəyirsən viza göndərim ailəlikcə yığışın gəlin...

- Deməzsən aldatdım...
- Nə?!
- Heç... deyirəm sizin camaat qonaqpərvər olar?

- Çoox... ona görə də bizə gələn geri qayıtmır də...
- Bəri bax, Cəhənnəmdə nə işində işləyirsən – vəzifəli adama oxşayırsan?
- Sənin bəxtin gətirib?
- Niyə ki?

- Birincisi, ona görə ki, əməli-saleh adama oxşamırsan – deməli, bizim “adamsan”, əvvəl-axır...
- Hardan bilirsən ki...
- Sözümü kəsmə... Ziyarətə hansı pulla getmişdin?

- Bir az dəmir satmışdım...
- Dəmir dədəndən qalmışdı?
- Yox...

- Dağların qoynunda məşuqənə tikdirdiyin evi hansı pula başa gətirmisən?
- Bir az nöyüt satmışdım...
- Nöyüt dədəndən qalmışdı?

- Yox...
- Qaçqınlara apardığın yardımı hansı pulla almışdın?
- Bir az pambıq satmışdım...
- Pambıq dədəndən qalmışdı?

- Yox...
- O boyda kişini hansı pula öldürtmüsən?
- Bir az...

- Aay sağ ol... Cəhənnəmə də bir az qalıb...
- Yaxşı... sən Cəhənnəmdə nəçisən?

- Demokratik Azad Cəhənnəm Respublikasında Qır Qazanları Səhmdar Cəmiyyətinin prezidentiyəm... Bütün Qır qazanlarını özəlləşdirmişəm, hamısı mənimdi... min illərdi...
- Sənin neçə yaşın var ki?

- Cəhənnəmdə ancaq günahları hesablayırlar, yaşı yox... orda kimsənin yaşı bilinməz...
- Yaxşı, mənim haqqımda dediklərini hardan bilirsən?

- Dünyanın bütün qabaqcıl və qeyri-qabaqcıl ölkələrində bizim dövlətin kəşfiyyatçıları işləyirlər... Elə sizin məmləkətdə də bizə işləyən adamlar çoxdu...
- Mənim haqqımda hər şeyi bilirsən?

- Hər şeyi... Dabbaxda gönünə balədəm... Sən qətiyyən narahat olma... Sənin mənim kimi dostun var... İstəyirsən deyim dünən gecə harda olmusan?
- Bu lap ağ oldu...
- Deyim?

- Axı mən ora gedəndə heç kim görmədi...
- Deyim?
- De...

- Dostunu təyyarəyə mindirib xaricə yola salandan sonra getdin...
- Demə, demə, demə!

- Cəhənnəmdə sənin kimi adamlara qurumsaq deyillər – sizin ayrıca lageriniz var, müdiri mənim dostumdu, tapşıraram sənə yaxşı baxar...
- Çox sağ ol, çox sağ ol... bəlkə, mən yuxu görürəm... Hə?

- Yuxu-zad görüb eləmirsən, yanındayam, sən də mənim yanımda... Səni görən

kimi qan çəkdi... yaxşı ki, özün yaxınlaşdın...
- Səni bir də nə vaxt görəcəm?
- İşim çoxdu, lap çoxdu, heç bilmirəm birinci hardan başlayım, görürsən bu sənədi?
- Bu nədi belə?

- Baxma, onsuz da sən bizim əlifbanı bilmirsən.
- Sizin özünüzün ayrıca əlifbanız var?

- Cəhənnəm Respublikasının əlifbası dünyanın ən qədim əlifbasıdı...
- Niyə?
- Çünki Cəhənnəm dünyanın ən qədim ölkəsidi...

- Yaxşı, o sənəddə nə yazılıb?
- Bu... etiraz notasıdı, bizim dövlətin sizin dövlətə etiraz notası...
- Nəyimizə etiraz eləyirsiniz ki?..

- Beynəlxalq normalara görə dünyanın bütün ölkələri hər ilin axırında Cəhənnəmin rəhbərliyinə rəsmi məktub yazıb öz vətəndaşları üçün müəyyən miqdarda yer sifariş verirlər. Biz bu cür bölgünü hər ölkənin əhalisinin sayına görə əvvəlcədən planlaşdırırıq. Bütün ölkələr bu prinsipə səliqə-səhmanla riayət edirlər, sizdən başqa. Məsələn, min yer istəyib üç min nəfər göndərirlər.

Nəticədə isə bizim stabil işimiz pozulur. Sizin vətəndaşlara görə keçən il mənim yeddi dənə qır qazanım sıradan çıxıb, bu gün-sabah günah mövsümü başlayır... Ancaq hələ o qırx qazanlarının təmirini başa çatdıra bilməmişəm...

Ona görə də Cəhənnəmdə belə bir etiraz notasını imzalamaq məcburiyyətində qaldılar. Birinci növbədə gərək bu etiraz notasını sizin rəhbərliyə təqdim edəm ki, bu müqəddəs işə soyuq münasibətə son qoyulsun.

Əgər bu səhlənkarlığa son qoyulmasa, Sizin dövlətə qarşı beynəlxalq sanksiyalar başlanacaq. Bu da kömək eləməsə, bütün Cəhənnəmin əhli uzanılı mitinq keçirəcəklər – əllərində isə bir plakat olacaq: - Cəhənnəmdən əlinizi çəkin! Bu da son həddə Cəhənnəmlə sizin aranızda münasibətlərin gərginləşməsinə səbəb ola bilər. Bizim rəhbərlik isə sizin respublika ilə dostluq əlaqələrini günü-gündən genişləndirmək istəyirlər.

- Bəs bu nədi?
- Bu da hazır müqavilədi – istəyirik sizin məmləkətdə Cəhənnəmin filialını yaradaq...
- Bizim məmləkətdə niyə?

- Xoşumuz gəlir burdan... oxşar şeylər çoxdu. Sizin ölkəyə az-maz maya qoysaq, çönüb olar Cəhənnəm... Bilirsən, bizim iqtisadçıların son yüz ildə apardığı hesablamalara görə belə bir qənaətə gəlmişik: ən sərfəli ölkə sizinkidir!
- Bəlkə, səfirlik demək istəyirsən?

- Yox... fi-li-al – Cəhənnəmin filialı... Nə baxırsan?
- Sənin burnunun deşikləri nə yekə imiş, hərəsində bir kolxoz yemişi yerləşər ki...

- Mən öz şəxsi tariximi yaxşı bilirəm. Mənə uşaq vaxtı fındıqburun deyirmişlər; cəhənnəmə düşəndən sonra burda gördüyüm keflərin hamısını orda burnumdan tökdülər – burnumun da deşiyi böyüdü. Görmürsən, gözlərim də elə burnumun deşiyi boydadı – burda nə eləmişdimsə, orda hamısı gözümdən gəldi... Özün gələndə görərsən də, nə deyim...

- Allah vurub səni...
- Allah məni lap çoxdan vurub, bilirəm, bilirəm, nahaq yadıma saldın... Allahın şapalağının səsi hələ də qulağımdan getməyib... yadıma düşəndə isə bu şapalığın səsi get-gedə güclənir.

- Bizimkilər özlərini Cəhənnəmdə necə aparırlar?
- Ən çox mənə ziyan vurublar... Keçən il iki dənə qıl körpümü partladıblar.

- Cəhənnəmdə bomba var ki...
- Yox...

- Bəs necə partladıblar körpünü?
- Onların gözü dəydi mənim körpümə – o qədər gözəl körpü idi ki... bir nəfər də olsun o körpüdən keçə bilməyib, sağlıq olsun, gələrsən, görərsən...
- Allah vurub səni...

- Yadıma salma də...
- Bəs niyə körpüyə gözmuncuğu asmırdın?

- Cəhənnəmdə gözmuncuğu olmur ha...
- Gedəndə burdan apar.

- Buranın gözmuncuğu orada işləməz...
- Niyə?
- Gələrsən, görərsən...

- Allah vurub səni...

- Yadıma salma da əziyyət çəkirəm... Allah öz bəndəsini bir dəfə vurar. Allah mən bəndəsini ikinci dəfə vursa, Cəhənnəm yerin təkindən yerin üzünə çıxacaq – məşhər günü olacaq.

- Başa düşmədim, niyə?
- Allah öz bəndəsini bir dəfə vurar. Allah mən bəndəsini ikinci dəfə vursa, Allah səhv eliyər – Allah da səhv eləsə, Cəhənnəm yerin təkindən yerin üzünə çıxar e – məşhər günü olar – dünya dağılar. Qoy sənə qarğış eləyim, sümüklərim od tutub yanır.
- Elə, elə, elə...

- Cəhənnəm ol!
- Yaxşı, yaxşı, sakit ol, sakit ol, bilmədim məni bağışla...
- Mən kiməm, səni bağışlayım, ay Qurumsaq!

- Yaxşı, yaxşı...
- ...
- Ay sağ ol, sakit... sakit... toxta... aha... bax belə...
- Cəhənnəmin əhalisi nə qədər olar?

- Əslində, bu dövlət sirridi, ancaq sənə deyə bilərəm. Axırıncı dəfə Cəhənnəmdə siyahıyaalma on il bundan qabaq aparılıb. Deməli, sonuncu məlumata görə Cəhənnəmin əhalisi yer üzünün əhalisindən 99 dəfə çoxdu.

- Vay dədəm vay... Tay deynən orda heç tərpənmək mümkün deyil ki... Ay maşallah, adama bax e...
- Gözlərin çıxsın, ovcuna düşsün!

- Məni niyə qarğıyırsan? Gözüm niyə çıxsın?

- Cəhənnəmə gözün dəyər... Sizinkilərin gözündə yaman var, indi arxayın oldum...
- Bəs Cəhənnəmin ərazisi nə qədərdi, neçə milyon kvadrat kilometrdi?
- Yer üzündə insanların yaşadığı sahədən doxsan doqquz dəfə artıqdı...
- Vay dədə vaayy...

- Gözlərin çıxsın, ovcuna düşsün!
- Yaxşı, onda hər kvadratmetrə neçə adam düşür?

- Bizdə hər kvadratmetrə orta hesabla on beş ton adam düşür – cəhənnəmdə belə bölgünü tonla hesablayırlar.
- Sən bilərsən – Marsda Cəhənnəm var?
- Marsda Cəhənnəm olub, ancaq indi işləmir...

- Niyə?
- Nə bilim, bağlayıblar...

- Sən bilərsən, heyvanlar üçün cəhənnəm var?
- Yox.
- Bəs niyə?
- Heyvanlar günah eləmirlər ha...

- Cəhənnəmə ailəlikcə düşənlər olur?
- Lap yeddi arxa dönəndən belə var; nəsillikcə kök salıblar, onların avtoriteti böyükdü... Hələ dalı gəlir...
- Bəri bax, Cəhənnəmdə doğub-törəmək olur?

- Yox!!!
- Niyə?
- Bizim konstitusiya ilə qəti qadağandı!!1

- Konstitusiyaya dəyişiklik etmək olmaz?
- Bizim konstitusiya ilə konstitusiyaya dəyişiklik eləmək qəti qadağandı.
- Cəhənnəmdə nəqliyyat məsələsi necədi?
- Bir-birimizi minirik.
- Zarafat eləyirsən?

- Cəhənnəmdə zarafat olmur – bu dünyada haqsız at oynadanları orda at yerinə minirlər.
- Görəsən, Cəhənnəmin ilkin ərazisi nə qədər olub?
- İndikindən dəfələrlə kiçik olub, sonra tələbat çoxaldıqca, Cəhənnəmin ərazi bütövlüyünü saxlamaqla yanaşı, günü-gündən böyüdüblər... Bu gün Cəhənnəm dünyanın ən böyük dövlətidi...

- Ərazinizi necə qoruyursunuz?
- Sizin kimi qorumuruq.

- Bəs necə böyüdürsünüz ərazinizi?
- Yerin təkindən Yer üzünə doğru... Artıq dünyanın bir sıra ölkələri ilə bizim aramızda beş-on illik qazma işləri qalıb – Sizlər üzüaşağı qazırsınız, biz isə üzüyuxarı... nə vaxtsa siz yuxarıdan, biz də aşağıdan qaza-qaza birləşəcəyik.

- Olmaz ki, heç birləşməyək?
- Başqa çarə yoxdu, birləşməliyik, əvvəl-axır, çünki yer üzündən cəhənnəmə axın çoxdu. Dünyanın məşhur cəhənnəmşünasları hələ on min il bundan əvvəl bu

nəticəyə gəliblər – bizdən asılı heç nə yoxdu.

- Cəhənnəmdə ağac-zad var?
- Orda ağac bitmir...
- Bəs orda nə bitir?
- Adam sümüyü...

- Adam sümüyü necə bitir?
- Lap sizdəki böyük ağaclar kimi bitir, yüz ildə bir dəfə çiçəkləyir də... çiçəklərindən qan tökülən kimi torpağa dönür...
- Cəhənnəmdə körpə uşaqlar çoxdu?

- Heç bir nəfər də yoxdu... onlar hamısı cənnətdədi...
- Cəhənnəmdə işıq var?
- Yox...
- Qaz var?
- Yox...

- Gün çıxır?
- Yox...

- Niyə?
- Orda gün çıxsa, hamını kor eliyər...
- Niyə?

- Çünki Cəhənnəmin sakinləri işıqda görmür, qaranlıqda görürlər...
- Bəs indi sən məni görmürsən?
- Yox...

- İndi sənin gözün kordur?
- Hə...
- Bəs adamların sənə baxdığını hardan bildin?
- Mənə xəbər verdilər...

- Kim?
- Çox dərinə getmə, Cəhənnəmə gedərsən...
- Cəhənnəmə canın getsin...
- Mən Cəhənnəmsiz yaşaya bilmərəm.

- Cəhənnəmdə müxtəlif millətlərin nümayəndələri bir yerdə yaşayır, yoxsa ayrı-ayrı?
- Cəhənnəmdə, demək olar ki, millət yoxdu. Sizin ölçülərlə götürəsi olsaq,

Cəhənnəm ən böyük beynəlmiləl dövlətdi.
- Arvad-kişi hamı bir yerdədi?
- Hə...
- Kefdəsiniz ki...
- Qurumsaq-qurumsaq danışma, Qurumsaq oğlu Qurumsaq!

- Hirslənmə... İndi bax, sən Cəhənnəmin sayılan-seçilən kişilərindənsən, istəsən bir-iki günlüyə Cənnətə ekskursiyaya gedə bilərsən?
- Yox!
- Niyə?

- Cənnətə ancaq qanadı olanlar gedə bilər, mənim də qanadım yoxdu...
- Bəri bax, qanad yeri bilmirsən?

- Yox...
- Nə pis oldu bu...

- Gərək qanad özü adamın çiyinlərindən çıxa... Cənnətdə bir Tubu ağacı var, gözünü yumub uzanırsan onun altında, arzu eləyirsən ki, məsələn, Allahın fransızı olaydım, özü də heç olmasa, Jak Şiraknan qohum olaydım-gözünü açırsan, görürsən ki, heylədi.
- Bəri bax, fransız dedin erməni yadıma düşdü. Cəhənnəmdə erməni də var?

- Doludu...
- Nağayrıllar orda?
- Hamısının keyfi kökdü, Cəhənnəmin ən varlı adamı ermənidi, hamısı sayılan-seçiləndi.
- Bəri bax, nə qoyurlar, nə deyirlər?

- Deyirlər, Qarabağ bizimdir.
- Tay nə deyirlər?
- Deyirlər, dünyanın ən qədim milləti bizik... ona görə də dünya əvvəl-axır bizim olmalıdı.
- Tay nə deyirlər?

- Deyirlər, ingilislər, fransızlar, almanlar, ruslar, italyanlar, yaponlar... hamısı bizdən törəyib...
- Yaponlar da...
- Hə...
- Nə abırsızdılar əə, bunlar, pah!

- Bir də tez-tez deyillər ki, öldü var, döndü yox. Başa düşmürlər ki, Cəhənnəmdə

“nə öldü var”. Deyirlər ki, Cəhənnəm də qədim erməni torpaqları olub... Cəhənnəmin qədim bir xəritəsini də hardansa tapıb düzəldiblər. Deyirlər ki, Adəmlə Həvva bizdən iki min yeddi yüz əlli il sonra yaranıblar. Hamısının da cibi doludu sənədinən - dinən kimi çıxardıb soxurlar adamın gözünə – Qarabağ məsələsində bütün Cəhənnəm onları müdafiə eliyir. Öz dillərində məktəbləri var, qəzetləri var...

- Cəhənnəmdə qəzet də çıxır?
- Bəs nədi...
- Qəzet çoxdu?

- Hər millətin özünün qəzetləri var də... sayını-hesabını bilən yoxdu.
- Bəri bax, bizimkilərin də qəzeti var?
- Yox...

- Niyə?
- Deyirlər, biz qəzet istəmirik...
- Bizimkilərdən çox adam var orda?
- Doludu...

- Nağayrıllar orda?
- Çürüyürlər...
- Nə qoyullar, nə deyirlər?
- Deyirlər, Qarabağ da bizimdi, Naxçıvan da bizimdi, Sumqayıt da bizimdi, Cəlilabad da bizimdi... belə deyə-deyə axıracan gedirlər...
- Hara?

- Vallah bilmirəm, mənim onlardan başım çıxmır... Özün gələrsən görərsən...
- Allah vurub səni...
- Dodağının altında nə pıçıldayırsan?
- Heç...

- Bəs onda mən niyə bir təhər oldum?
- Nə təhər oldun?
- Sümüklərim gizildədi, yəqin nə isə dedin yenə, yoxsa...

- A kişi, nə danışırsan, biz sənnən dostuq...
- Burda əlimdən heç nə gəlmir, sənə yaxşılıq eliyə bilmirəm, gələrsən, görərsən...
- Allah vurub səni...
- Ürəyindən nə keçirtdin, ürəyində nə dedin?

- Heç nə...

- Allahın bəlasına gələsən...
- Eşitmədim ee...
- ...
- Bəri bax, Cəhənnəmdə amerikalılar özlərini nə təhər aparırlar...
- Yaxşı...
- Nə təhər yaxşı?

- O günü Cəhənnəmdəki ərəblərin başına daş yağdırırdılar – arvad bilmədilər, uşaq bilmədilər – qırdılar, tökdülər – ermənilərnən də qardaş kimidilər...
- Yaxşı, buna deyirsən?
- Cəhənnəmdə yaxşı, buna deyirlər də... adamların sümükləri qırılanda Cəhənnəmin siması daha da gözəlləşir...
- Siz də bu gözəllikdən feyziyab olursunuz, hə?

- Hə...
- Bərəkalla...
- O, başqa bir gözəllikdi, sən onu qanmazsan!
- O gözəlliyi qanmaq üçün indi mən neyləyim?

- Öl!
- Niyə, canın ölsün!
- Ölmüşəm də, neçə dəfə öləcəm...
- Onda belə çıxır ki, sən bizim məmləkətdə darıxırsan...
- Hə, burdakı gecə ağacları, gecə quşları, elə gecənin özü də gözümü deşir...
- Bədbəxt adamsan.

- Görürəm, sən çox xoşbəxtsən...
- Deməli, mən bayaqdan ölü ilə danışıram?
- Hə...
- Axı, mən ölü dilini bilmirəm.

- İnsanın ölümü yaxınlaşanda ona vəhy gəlir və insan ölü dilində bülbül kimi cəh-cəh vurur.
- Cəhənnəmdə bülbül var?
- Cəhənnəmdə qanadlı bir canlı da yoxdu...

- Deməli, sən meyitsən?
- Meyit təzə ölənə deyirlər, ay Qurumsaq, mən min ilin ölüsüyəm!
- Mən də öləcəm?
- Yooox... Sən Allahın olmayan bacısının oğlusan!
- Deyirlər, insanlar öləndən sonra təzədən dirilir, düzdü?
- Hə, düzdü.

- İndi sən təzədən diriləcəksən?
- Yox.
- Niyə?
- Mənim şansım yoxdu.

- Bəs, mən ölsəm, dirilə bilərəm?
- Yox.
- Niyə?
- Sənin də şansın yoxdu!

- Niyə?
- Cəhənnəm niyə, gor niyə! Niyə? Niyə? Elə bilirsən hər ölən dirilir?
- Deməli, orda da ayrıseçkilik qoyurlar?
- Bəs nə bilmişdin!
- Bu, ədalətsizlikdi! Bu, haqsızlıqdı! Bu, insan hüququnun pozulması deməkdi! Yaşasın bərabərlik!
- Yaşasın!

- Nə?
- Bərabərlik!
- Ucuz ölüm nədi?

- Yer üzündə yaşayan əhalinin tam əksəriyyəti üçün nəzərdə tutulmuş ölümə ucuz ölüm deyilir.
- Başa düşmədim.
- Ucuz ölüm kasıblar üçündür, yəni rusca desək, "şirpotreb".
- Ölümün də ucuzu, bahalısı olur?

- Bəs nədi.
- Ən bahalı ölüm neçəyə olar?
- Gic-gic danışma, Gədə!

- Niyə qışqırırsan, sözdü də soruşuruq... Cəhənnəmin isti guşəsində olmusan?
- Hə, olmuşam, çox böyük bir göldü, min illərdi pıkka-pık qaynayır. Adamlar girib orda...

- Cəhənnəmin sanatoriyasından bizdə də var. "İsti-su" – Masallıda. Kəlbəcərdə də vardı, indi ermənilər çimir orda... Müalicəvi əhəmiyyəti də var.
- Elə Cəhənnəmin İsti guşəsindəki o qaynar göl də, coğrafi cəhətdən Masallının altına düşür... Coğrafiyanı yaxşı bilirsən?
- İki diplomum var.

- ...
- Deyirəm, təbiətin möcüzəsinə bax e... Bəri bax, burda adamların başında qoz sındıranların vəziyyəti nə təhərdi orda?
- Yaxşıdı. Gedən kimi hamısını tutub axtalayırlar.

- Niyə?
- Onlara etibar eləmirlər. Cəhənnəmdə namus məsələsi çox ciddidi.
- Bizdə də bu məsələ çox ciddidi.

- Sizdə...
- Hə, ağzını niyə əyirsən ki...
- Yaxşı, bilirəm yer üzündə namus məsələsinin nə dərəcədə ciddi olduğunu, adam ölüyə yalan deməz, Qurumsaq!
- Niyə qışqırırsan, sözdü də deyirik...
- ...
- Bəri bax, Cəhənnəmdə qəbiristanlıq olur?
- Yox.
- Niyə?

- Cəhənnəmdə heç kim ölmür.
- Nə yaxşıdı ee... Sən bilən yerin altı yaxşıdı, yoxsa üstü?
- Altı.

- Doğrudan?
- Çünki yerin üstü müvəqqətidi, altı isə həmişəlikdi...

- Sənin ayağının biri hanı?
- Niyə elə təəccüblənirsən, mənim bir ayağım gördüyün kimi burda, biri də Gorda – Cəhənnəmdədi. İşlərimi qurtarandan sonra bu ayağım məni o ayağımın yanına aparacaq – bizdə həmişə belədi...

- Alnındakı o möhür nədi?
- Onu da gördün, kor qalasan səni?

- Hə...
- O möhür deyil, damğadı.
- Bəs alnına niyə vurublar?

- Cəhənnəmdə möhür əvəzinə damğa işlədirlər. Ona görə alnıma vurublar ki... alın yazısını rəsmi surətdə təsdiq eləyirlər ki, mən mütləq Cəhənnəmə getməliyimişəm... Əlini alnına sürtmə, səndə hələ yoxdu, çünki sənin alın yazın hələ təsdiq olunmayıb.

- Cəhənnəmə gedəndən bəri heç yalan demisən?

- Bircə dəfə dilimə yalan gəlib, onu da bayaq sənə demişəm. Bayaq dedim ki, Cəhənnəmdə uşaqlar yoxdu, görünür, yer üzünün havasınnandı. İyirminci əsrin lap əvvəllərindən uşaqlar da Cəhənnəmə ayaq açmağa başladılar. Sonra onların sayı get-gedə çoxalmağa başladı... İndi əsrin axırıdı – nə qədər desən uşaq var Cəhənnəmdə...

Yadımdadı, təxminən yüz il bundan qabaq ilk uşaq Cəhənnəmə ayaq basanda bütün Cəhənnəm bir-birinə dəymişdi... Yer üzündə əgər uşaqlar da günah eliyirsə, Cəhənnəmlik olursa, deməli, dünyanın axırına bir şey qalmayıb...
- ...
- ...
- Dünya deyəndə Cəhənnəmdə nəyi nəzərdə tuturlar, axı?

- Allahdan uzaqlaşıb ona qarşı çıxan insanların qurduğu sistemə və yaşadığı məkana Dünya deyirik. Cəhənnəmdə Dünyanı belə tərif eləyirlər.
- Bəs Allahdan uzaqlaşan və ona qarşı çıxan ilk insan kim olub, Cəhənnəmdə bu barədə məlumat varmı?

- Var. Allahdan ilk dəfə uzaqlaşan və ona qarşı çıxan Adəmlə Həvva olub. Bütün insanlar onların cəzasını çəkir...
- Yəni iki nəfərin cəzası nə qədər ağırdı ki, milyardlarla insan min illərdi o cəzanı çəkib qurtara bilmirlər?

- O çox ağır cəzaymış ki, çəkib qurtara bilməyiblər də... Allah cəza verəndə də, Allah kimi verir. İnsanların min illərdi dağıtmağa çalışdığı, lakin dağıda bilmədiyi Dünyanı Allah altı günə yaradıb – özü nə vaxt lazım bilsə, bir göz qırpımında məhv eliyəcək... Nə fikrə getdin?

- Allahın Adəm və Həvva ilə arası nə üstə dəyib?
- Oğurluq üstündə.

- Bahooooo! Mən batdım!
- Sən niyə batırsan?

- Niyə nədi, özüm oğurluq doğulmuşam, oğurluq boya-başa çatmışam, bu gün də işim-peşəm elə oğurluqdu, oğurluq... Görəsən, insan düz yaşaya bilməz?
- Yox!!!
- Qışqırma... niyə?

- Çünki əslində yaşamaq yol getmək deməkdi – yolçuluqdu ki, yolların da hamısı

əyridi, əyri! Heç ömründə bir düz yol görmüsən?
- Görmüşəm.
- O hansı yoldu elə?

- Dəmir yolu.
- Sənin beynin təmiz boşdu, boş!
- Düz deyirəm də!

- Düz demirsən, Qurumsaq!!!
- Niyə hirslənirsən, sözdü də deyirik... Hirslənmə, sən hisrlənəndə mən xoflanıram... bax, belə yaxşısan, hə... Cəhənnəmdə bazar var?
- O boyda Cəhənnəmdə bircə bazar var, adına da erməni bazarı deyirlər...
- Orda... o bazarda nə satırlar ki?

- Adam sümükləri...
- Adam sümükləri?
- Adam sümükləri...
- Adamlar onu alıb neynillər?

- Çənəsi çürüyən özünə çənə sümüyü alır, qol, qılça, fəqərə sütunu...
- Fəqərə sütunu da çürüyür?
- Bütöv çürüməsə də, görürsən ki, bir-iki həlqəsi əvvəldən zədəli olduğuna görə, çürüyür də, o hissəsini alıb dəyişdirirlər.
- Bəs məqsəd nədi?

- Məqsəd məhşər ayağına qədər Allahın yaratdığı kimi qalmaqdı... elə baxma... belə lazımdı...
- Cəhənnəmdə göy var?
- Cəhənnəmin göyü sizinki kimi deyil, hər kəsin boyu boydadı.

- Cəhənnəmdə ulduzlar var?
- Var, ancaq sizin ulduzlar kimi işıq vermirlər, elə bil yanıb, yanıb qaralıblar. Bizim ulduzların hamısı qap-qaradı.
- Siz göyə baxanda ulduzları...

- Bizə göyə baxmaq qadağandı.
- Niyə?

- Bax, bunu heç kəs bilmir... Heç istəsək də, oğurluq baxaq, yenə baxa bilmərik – çünki Cəhənnəmdə bizim göyümüz kəlləmizə dirənib.
- Cəhənnəmdə neçə fəsil var?
- Bir!

- Bir?
- Bir!
- Adı nədi?
- Qara fəsil.

- Yer üzündə yeddi rəng var, Cəhənnəmdə neçədi?
- Cəhənnəmdə bir rəng var: Qara rəng! Qara rəng! Qara rəng!
- Yenə niyə hirslənirsən ee?

- Adam Ölüyə yalan deməz, Adam oğlu Adam!!!
- Yooox, belə getsə, bizim dostluğumuz tutmayacaq.
- Yoox! Bizim dostluğumuz mütləq tutacaq, çünki bu, bizdən asılı deyil... Əslinə qalanda isə biz, min illərdi dostuq, görüşümüz ilk dəfədi - qandın, Adam oğlu Adam?!

- Qandım...
- Nə qədər tez qansan yaxşıdı.
- Allah bilir səni bir də nə vaxt görəcəm. İnkir-Minkir deyirdin eee, bayaq...

- Hə...
- Bax, o İnkir-Minkir Cəhənnəmdə nə işində işləyir?
- Cəhənnəmin sərhədini keçən kimi İnkir-Minkir gəlib səndən intervü alacaq – sorğu-suala tutacaq.
- İnkir-Minkir redaksiyada işləyir ki?

- Yox. Sənə ən qəliz sualları verəcəklər, sən istəsən də, istəməsən də bütün günahlarını açıb söyləyəcəksən.
- Niyə ki?
- Çünki İnkir-Minkirin iş üslubu elədi ki... düzünü deməkdən başqa adamın çarəsi qalmır...
- Bu, lap dəhşətdi ki...

- Yox... dəhşət bundan sonra başlayır.
- Sonra nə olur ki?
- Boğazın niyə qurudu – gələrsən, görərsən.

- Sən İnkir-Minkiri tanıyırsan?
- Niyə tanımıram, elə mənim özümü də birinci onlar qarşıladı də...
- Onu demirəm ee... deyirəm İnkir-Minkirnən də dostsan?

- Həəə... A kişi, sən qəti narahat olma, qəti... bildim nə deyirsən... bildim. Əgər

istəyirsən ki, Cəhənnəmdə işlərin yaxşı getsin, nə günah eləmisənsə, özün hamısını aç danış... səmimi olanda cəza da nisbətən yüngül olur...

- Hamısını açım danışım?
- Hamısını...
- Ona bilirsən nə qədər vaxt lazımdı...

- İndi mən sənə dost kimi belə yol göstərirəm, sən mənə qulaq as, qalanı mənim boynuma...
- Hə?
- Hə...
- Bəri bax, Şeytanla aran nə təhərdi?

- Qardaş kimiyik.
- Belə yaxınsınız?
- Nə belə sevinirsən?.. Yaxın olmağına çox yaxınam, intəhası o məni bəyənmir...
- Niyə?

- Mənə deyir ki, sən adamsan. Şeytan adamları bəyənmir ha.
- Niyə?
- Deyir siz palçıqdan əmələ gəlmisiniz...

- Bəs, özü nədən əmələ gəlib?
- Oddan!
- Onçun düşdüyü yeri yandırır də... Bəri bax, deyirlər Şeytanı da Allah yaradıb, düzdü?

- Düzdü... Sən Şeytana barmaqarası baxma ee, Şeytan əvvəlcə Mələk olub...
- Doğrudan?
- Sözümü kəsmə...

- Bəs sonra necə olub ki, Şeytan olub?
- Ay kəmhövsələ, Adam oğlu Adam, qulaq as də, əvvəl mələk olub, özü də deyəsən birinci mələk, sonra sarsaqlayıb, Allah ona heylə cəza verib.
- Niyə sarsaqlayıb, neyniyib?

- Adəmin qılığına girib, onu yoldan çıxarıb. Adəm də oğurluq eləyib... sonra da Allahın qəzəbinə gəlib, Allah da götürüb atıb onu Yer üzünə – Cəhənnəmə – Həvvanı da qoşub ona...
- Həvvanın günahı nəydi ki, yazıq...

- Onu yazıq ilan vursun... Elə Adəmi yoldan çıxaran Həvva olub də... Arvadların

tamahı mərd Murtuza Əlinin qılıncından da iti olur...
- Bəs deyirsən Adəmi Şeytan çıxarıb yoldan?

- Çıxarmağına Şeytan çıxarıb... İntəhası Həvvanın əliynən, yoxsa Adəm buğda oğurlamaq istəmirmiş...
- Deməli, bütün bəşəriyyət o arvadın zibilinə düşüb də...

- Belə çıxır!... Qaranlıq düşdükcə gözüm yavaş-yavaş görür, bax, o yekə şeylər nədi?
- Onları deyirsən? Evdi, evlər...

- Yenə günah eləyirsiniz... Cəhənnəmin qanunlarına görə, hər adamın evi öz qəbrindən 7 dəfə böyük ola bilər – bu evlərin hərəsində bir qəbiristanlıq yerləşər ki... Tamaha bax e... Bura gələndə "Cəhənnəm" qəzetində çox maraqlı bir məqalə oxudum...
- Ver mən də oxuyum də...

- Ay Adam oğlu Adam, sən bizim əlifbanı bilmirsən, axı...
- Nə yazıblar, onda özün de...

- Məqalənin adı belədi, "XX əsrdə adamlarda kütləvi quduzluq xəstəliyi". Yazının əsas qayəsi budur ki, əgər adamlar bir-birinin ətini yeyib, qanını içməyi tərgitməzsə, onlar üçün müasir tipli yeni bir Cəhənnəm təşkil eləyib, istifadəyə verəcəklər. Cəhənnəmşünasların son dərəcə dəqiq apardığı hesablamalara görə, köhnə Cəhənnəm təzənin yanında Cənnət kimi bir şey olacaq.

- Dəhşətdi ki, lap...
- Dəhşətdi!
- Bəs deyirlər ki, filankəs öldü, canı qurtardı – deməli bu söz yalandı?

- Ağ yalandı.
- Bəri bax, Cəhənnəmdə neçə cür yalan olur?
- İki cür: ağ yalan, qırmızı yalan...

- Bəs bunların fərqi nədir?
- Fərqi odur ki, ağ yalan – kiminsə yalan dediyini kimnənsə eşidərsən, ikinci bir adamdan. Bir də var ki, durub üzünə qarşı yalan deyir – bu, qırmızı yalandı... Sizdə neçə cür yalan var?

- Bizdə elə hamısı qırmızı yalandı – qəzet də, radio, televiziya, böyük padşah da, balaca padşah da, bacı-qardaş da, dost-tanış da, arvad-uşaq da hamısı qızıl-qırmızı yalan deyir...

- Sən özün də yalan deyirsən?
- Mən də deyirəm... bəs sən?

- Heç uşaqlıqdan dilimə düz söz gəlməyib.
- Görəsən, adamların dili niyə düz söz tutmur?

- Düz sözün qaməti Düzdür. Adamın dili isə getdiyi yol kimi yüz yerə əyilir. İnsan övladının düz sözə ehtiyacı yoxdur. Yalan Bəşəriyyətin himnidir!
- Bəs oğurluq?

- Oğurluq da peşədi. Bəşəriyyətin yeganə peşəsi oğurluqdu, yerdə qalanlar xobbidi!
- Ayaqlar nə üçündü?
- Oğurluğa getmək üçün!

- Əllər nə üçündü?
- İstədiyi şeyi oğurlamaq üçün...
- Bəs gözlər neynir?

- Göz də nurdan düşənə qədər oğurluğa gedən adamın yoluna işıq salır, boş vaxtlarında isə, əgər kişi gözüdürsə, başqasının arvadına oğrun-oğrun baxır, yox əgər arvad gözüdürsə, başqalarının kişisinə baxır – buna göz oğurluğu deyirlər.

- Sən dünya görmüsən, neçə cür oğru var?

- Üç cür... Diqqətlə qulaq as. Birinci: O kəslər ki, oğru olduğunu bilmir və bilmir ki, oğru olduğunu bilmir – bunlar o qədər də istedadlı oğrular deyil! İkinci: o kəslər ki, oğru olduğunu bilir və bilmir ki, oğru olduğunu bilir – bunlar çox istedadlı oğrulardı!

Üçüncü: o kəslər ki, oğru olduğunu bilir və bilir ki, oğru olduğunu bilir – bunlar dünya əhəmiyyətli, müdrik və dahi oğrulardı! Bir Allah ili min adi ilə bərabər olduğu kimi, üçüncülərin də bir Oğurluq İli birincilərin və ikincilərin birlikdə min Oğurluq İlinə bərabərdir!

- Cəhənnəmdə nağıl var?
- Var – bircə nağılımız var!
- Sizin də nağılın axırında göydən üç alma düşür?

- Düşmür.
- Bəs nə düşür?

- Bizim nağılı bircə dəfə eşitmişik – ikinci dəfə eşitmək olmaz – onda da göydən buğda tökülüb, onu da Adəmnən Həvva gözünə təpib.
- Sən Adəmnən Həvvanı görmüsən?
- Mən görməmişəm, ancaq görənlər var.

- Kim görüb?
- Ermənilər. Adəmnən Həvva cıqqılı uşaq olanda Ermənilər yekə kişiydilər.
- Deyirsən, ermənilər nə deyir orda?

- Deyirlər ki, Qarabağ bizimdi – öldü var, döndü yox!
- Deyirsən, bizimkilər nə deyir?

- Sizinkilər deyir ki, Qarabağ da bizimdi, Naxçıvan da bizimdi, Lənkəran da bizimdi, Zəngilan da bizimdi, İrəvan da bizimdi... Sizinkilər demir ee, oxuyurlar... oxuya-oxuya da harasa gedirlər...
- Hara gedirlər?

- Vallah onların işlərindən mənim başım çıxmır. Hələ bir iki il bundan qabaq oxuyurdular ki, Çin də bizimdi – deysən ora bayraq-zad da taxmaq istəyirdilər... nə bilim, vallah, sizinkilərdən başım çıxmır – özün gələrsən, görərsən...
- Allah vurub...
- Nə?!

- Heç nə... deyirəm bəs Cəhənnəm ictimaiyyəti nə deyir bu işlərə.
- Cəhənnəm ictimaiyyəti deyir ki, ermənilər haqlıdı.
- Niyə?!

- Deyirlər ki, ermənilər deyir ki, ancaq Qarabağ bizimdi. Sizinkilər isə həm Qarabağı, həm də deyirlər ki, nə bilim Naxçıvan da bizimdi, Zəngilan da bizimdi. Ona görə də Cəhənnəm ictimaiyyəti ermənilərin tərəfindədir – deyirlər ki, yazıq ermənilər bircə yeri istəyir, ancaq sizinkilər gör neçə yeri sadalayırlar ee... bax belə...
- Allah vurub onları!

- Onlar da deyir ki, Allah sizi vurub.
- Onda de görüm, sən mənim yaxın bir dostum kimi, bizimkilərə nə məsləhət verərdin?

- Məsləhətim odur ki, axmaq-axmaq oxumayın – filan yer də bizimdi, bəhmən yer də bizimdi... Əlinizdən bir iş gəlirsə, eləyin, yox gəlmirsə, qoyun camaat işini görsün.
- Cəhənnəmdə kazino var?

- Var!
- Hamı oynayır?
- Sizdə hamı oynayır?
- Yox!

- Bizdə də hamı oynamır.
- Cəhənnəmdə vətən xaini var?

- Sizdə var?
- Var deyirlər...

- Bizdə də var.
- Cəhənnəmdə dağıdıcı müxalifət var?

- Sizdə var?
- Var.
- Bizdə də var. Barmaqlarıma bax – deməli, sayıram qulaq as: dağıdıcı müxalifət, yırtıcı müxalifət, adamdöyən müxalifət, səriştəsiz müxalifət, ləçər müxalifət, bədbəxt müxalifət...
- Tay bəsdi, bəsdi, bildim... sizdə dağıdıcı iqtidar var?

- Yox!
- Yırtıcı?
- Yox! Yox! Yox! Cəhənnəmdə heç iqtidar yoxdu, hamısı müxalifət, müxalifət!
- Bəs onda siz kimə müxalifətdəsiniz?
- Bir-birimizə...

- Biz də... Bəri bax, sən məni o tərəflərə çəkmə, de görüm Cəhənnəmin tarixində ən böyük mitinqlər nə vaxt olub?

- Bir-iki il bundan qabaq. Bütün uzanılı Cəhənnəm ayağa qalxmışdı, hamı bir nəfər kimi etiraz mitinqində iştirak edirdi. Sizdə biri var ee, özün bilirsən, o, bərk xəstələnmişdi – bütün Cəhənnəm bu münasibətdə ayağa qalxmışdı ki, əgər ölsə, onu bura göndərməsinlər, yoxsa Cəhənnəmin altını üstünə çevirəcək..
- Bəs axırı nooldu?

- Ölmədi... sağaldı Cəhənnəm əhli də hələlik sakitləşib. O günü kimsə şayiə yayıb ki, o yenə xəstələnib – yenə bütün Cəhənnəm bir-birinə dəydi. Sonra rəsmi surətdə elan elədilər ki, sağ-salamatdı – sakitləşdlər.

- Kimdi ee, o?

- Qulağını bura gətir... Şeytan deyir ki, o, Cəhənnəmə gəlsə, min illərin vəzifəsindən istefa verəcəm.
- Şeytanla onun nə əlaqəsi?

- Şeytan deyir ki, mənə daş atıb...
- Atıb atıb də... Şeytan da hər şeyi ürəyinə salır.
- Hədyan danışma, Adam oğlu Adam!

- Niyə hirslənirsən, sözdü də deyirik...

- Bilirsən, Adam oğlu Adam, Şeytan son dövrlərdə çox əsəbidi; bu yaxınlarda brifinq keçirdi, orda dedi ki, ümumiyyələ, mən adamlara, mənə daş atmağı qadağan eləyirəm, mənə daş atmaqdansa, öz nəfslərini daş-qalaq etsinlər, əgər adamlar məni daşa basmağı tərgitməsələr, tezliklə onların axırına çıxacam – istəsəm günü bu gün onların axırına çıxaram, ancaq mən o iyrənclərə əlimi bulamaq istəmirəm – onsuz da özləri öz axırlarına çıxacaqlar və mənim sözüm Allahın hüzurunda ikiqat sübuta yetəndən sonra Allah məni təzədən Baş mələk elan eləyəcək...

Mən oddan yaranmışam, palçığa əl bulamaq istəmirəm! Hə... Belə... Sən ziyarətə gedəndə Şeytana daş atmışdın?
- Həəə...
- Bu, çox pis oldu...

- Niyə?
- Deməli, sən də onun qara siyahısına düşmüsən... Bikefləmə, hələ ona çox var... bir şey fikirləşərik ona qədər. Sən mənə Cəhənnəmə aid xeyli siyasi sual verdin; mən də səndən bir şey soruşum – Sizdə neçə partiya var?

- Rəsmi qeydiyyatdan keçmiş otuz partiyamız var...
- Yazıq sizin millətin gününə...
- Niyə?

- Niyə nədi, hər partiya beş il bu xalqın başında dəlləklik öyrənsə, yüz əlli il eləyir, yox, sizin işiniz qalıb Allaha... bir yandan da bu Şeytan...
- Kimə inanasan, a kişi, başına haranın daşını salasan...
- Sən narahat olma, sənin başına daş çoxdan düşüb, özün də qalmısan altında xəbərin yoxdu.
- Çox ağırdı daş?

- Baş daşı ağırlığında...
- Görəsən, bütün Yer üzünü tər-təmiz eləyib müqəddəs bir şəklə salmaq, sonra da

hər şeyi təzədən başlamaq olmaz, sən bilərsən?
- Niyə olmur?

- Necə?
- Bu barədə Şeytanın çox müdrik bir planı var – ikinci bir çıxış yolu yoxdu!
- Şeytanın planı necədi ki?

- Kainatdakı planetlərin içində Şeytanın ən çox iyrəndiyi Yerdi – elə mənim də; o deyir ki, Yer kürəsi-iylənib, üfunət qoxuyur – ona görə də təmizləmək istəyir.
- Nəynən, suyunan?

- Yox, Yerin suyu ilə heç nəyi təmizləmək mümkün deyil – çirkabdı.
- Bəs onda başqa yerdən su gətirəcək?

- Yox. Yeri Cənnət bulağının suyu ilə də təmizləmək mümkün deyil... Şeytan deyir ki, ən murdar şeyləri yalnız odla təmizləmək mümkündür – bilirsən də, qədimlərdə adamın yarasına kösöv basırmışlar – od.
- İndi Şeytan neynəmək istəyir?

- Yeri yandırmaq istəyir – bəzi yerlərdə ölünü yandırıb külünü göyə sovururlar, ee – bax elə... Şeytan deyir ki, Kül Varlıqda ən təmiz şeydi, deyir ki, Kül Odun övladıdı, Od Külü köynəyindən keçirdib...
- Tutaq ki, Yeri yandırıb Külə döndərdi, sonra?

- Sonra da külək qalxır, tufan qopur, Yerin Külü kainata yayılır...
- Bəs sonra?
- Sonra bütün Kainat dərindən nəfəs alıb Yer kürəsinin külünü ciyərlərinə çəkir...
- Sonra?

- Sonra Kainat öskürməyə başlayır və qan qusur; son nəticədə Kainatın ciyərlərinə hopmuş Kül cücərə-cücərə göyərməyə başlayır...
Sonra?
- Sonrasını da özün fikirləş...

- Mən fikirləşə bilmirəm – fikirləşmək yadımdan çıxıb...
- Günahlarını əzbərlə ki, sonra yadından çıxmasın.
- Əzbərləyirəm...

- Əzbərlə, yaxşı-yaxşı... Günahları yaddından çıxartmaq ən Böyük Günahdı.
- Yadımdan çıxmışdı az qala, dedin ki, hardan gəlirsən?
- Cəhənnəmdən!
- Hara gedirsən?

- Cəhənnəmə!
- Niyə tələsirsən, gedək qonağımız ol.
- Olmaz, sizinkilər məni görsə, qorxar, günahdı...

- Bu nədi belə, göydən iynə yağır ki...
- İynə deyil, qaynar yağışdı.. aha... dayan!
- Noooldu belə sənə?

- Mənə xəbər gəldi ki, bütün Cəhənnəm yenə ayaq üstədi – hər yanı etiraz mitinqləri bürüyüb – nə eşidiblərsə... Sizin ucbatınızdan Cəhənnəmdə də bizə rahatlıq yoxdu. Bu ağır gündə gərək özümü Vətənə yetirəm. Mən getdim, görüşərik.
- Hara?
- Cəhənnəmə!

- Məndən Cəhənnəmdəkilərə lənət deyərsən!
- Lənət göndərən sağ olmasın!

**1998, 31 dekabr – 1999, 1 yanvar**

## PERSONA NON QRATA

***Doğmam Vaqif Bəhmənliyə***

O, doğulan kimi qışqırdı. Çağırdıqları gəldi; hər çiyninə bir Mələk qondu, əllərində də qələm-kağız. Sol çiynindəki Mələk onun pis, sağ çiynindəki isə yaxşı əməllərini yazmaq tapşırığı almışdı.

İllər qatarlanıb keçdikcə o, bu qatarın arxasınca baxa-baxa böyüyürdü. O,

böyüdükcə əlindən nə böyük yaxşılıq gəlirdi, nə də balaca. O, böyüdükcə əlindən nə böyük pislik gəlirdi, nə də balaca. Mələklərin əllərindəki kağız ağappaq idi.

Onun çiynindəki mələklərin ikisi də bekarçılıqdan yatmışdılar - mələklər xoruldayırdılar. Mələklərin xorultusu dünyanı başına götürmüşdü, ancaq dünyanın qulağı ağır eşidirdi.

Əslində isə bu, iki Mələyin xorultusu deyildi...

Yer üzündə yaşayan adamların sağ çiynindəki mələklərin doxsan neçə faizi bekarçılıqdan yatıb xoruldayırdılar. Sol çiynindəki Mələklər isə gecəni gündüzə qatıb nəfəs dərmədən yazırdılar, başlarını qaşımağa macalları yox idi və belə getsə Sol çiyinə qonub işləmək üçün əlavə qüvvələr göndərmək lazım gələcək. Əlavə qüvvə isə yox idi - Mələklər Qırmızı kitabla üzbəüz gəlib orda yuva qurmaq zərurətində idilər.

Qırmızı kitabda balalamaq olmur...

lll

- Bax mənim günahım nədi ki, dünyada nə qədər əlləm-qəlləm işlər varsa hamısı mənim başıma gəlir? Hə?! Alnıma yazılıb?

- Yəqin yazılıb ki, başına gəlir də...

- Axı kim yazıb, kim?

- Kim yazacaq, Yazan yazıb...

- Bu Yazanın bir Pozanı yoxduu?

- Niyə yoxdu, var...

- Kimdi?

- Mən...

- Poz də bu alnıma yazılanları... poza bilərsən?

- Pozaram ee... ancaq qıymıram...

- Niyə?!

- Elə qəşəng xəttinən yazılıb ki... əlim gəlmir... hüsnü-xətt...

O, ovcunun içinə tüpürüb alnındakı "yazı"nın üstünə o qədər sürtdü ki, alnı qıpqırmızı oldu.

Sonra pencəyinin sağ cibindən bir az əvvəl maqazindən aldığı çopur daban daşını çıxardıb xeyli tamaşa eliyəndən sonra lomba ilə onun da "üzünə" tüpürüb alnına sürtməyə başladı; O, elə canı-dildən sürtürdü ki, elə bil alnının zərif dərisini yox, bərkiyib daşa dönmüş dabanını sürtürdü - sürt ki, sürtəsən...

Barmaqlarının arasından ılıq, əslində isə bir az isti bir şey axıb biləyini də keçdi və dirsəyinə tərəf hərəkət eliyəndə o, əlini alnından çəkib əvvəlcə daban daşına, sonra isə barmaqlarının arasına və biləyinə baxanda göz yaşı enində qırmızı şırımlardan üşənən kimi olub gözlərini döydü.

Bu ılıq, əslində isə bir az isti, nə idisə hər iki gözünün bulağından keçib burnunun sağ və sol tərəfindən üzü aşağı axıb cəvcilərində dayandı. Ona elə gəldi ki, alnındakı "yazını" pozdu və bu ılıq, əslində isə bir az isti olan nəydisə qan deyildi, çirnelin rəngi idi - buna möhkəm inandı, elə alnındakı "yazı"nı pozduğuna da...

Ona alnındakı "yazı"nı pozmağın bu yeni üsulunu bu yaxınlarda televiziyada çıxış eliyən bir görücü, bütün xalqın qulağı eşidə-eşidə, gözü görə-görə demişdi:

- Hər bir insan alın yazısını ancaq özü poza bilər.

Ona görə də, kişinin oğlu canı-dildən alın yazısını pozurdu və öz aləmində...

Qəfil yadına düşdü ki, böyük səhv eliyib, səhv eliyib görücüdən soruşmayıb ki, alnındakı yazını pozandan sonra alnı ağ, təkcızıq dəftər vərəqi kimi boş qalacaq, yoxsa kimsə gəlib ora nə isə yazacaq? Sağ əlini dizinə çırpdı - əli də, dizi də, ağrıdan göynədi, ovcunun içində dizinin, dizində isə əlinin şəkli göyərib gömgöy olmuşdu.

Axşam qırx dəfə zəng eliyəndən sonra qırxbirinci dəfə televiziyaya düşdü. Operator dedi ki, gözləyin indi sizi calaşdıraram. Beş dəqiqə beş gün kimi keçdi və beşinci "günün" axşam tərəfi operatorun tanış səsi gəldi:

- İndi calayıram sizi... hə... buyurun də... sualınızı verin... televizorun da səsini bir az alın... - Axırıncı cümləni deyəsən bir az acıqlı dedi.

O özünü cəmlədi:

- Görücü qardaş, mən alnımdakı yazını pozdum. İndi mənim işim nə təhər olacaq? Alnım elə boş qalacaq, yoxsa kimsə ora nəsə yazacaq? Görücü qardaş, əgər kim yazacaqsa, əməlli-başlı bir şey yazsın, qırx ildi ələm-yesir olmuşam. Sən təşkil elə qoy babat yazsın, mən də qulluğunuzda hazıram.

- Nəyinən pozdunuz? - Aparıcı güclə hiss olunan çaşqın nəzərlərlə ekrandan onun düz gözünün içinə baxdı.

- Daban daşıynan.

- Nə?

- Daban daşıynan...

- Operatorumuz sizinlə əlaqə saxlayacaq. Zənginizə görə sağ olun, təşəkkür edirik.

İstədi soruşsun ki, operator nə vaxt əlaqə saxlayacaq - əlaqəni kəsdilər.

Beş gün keçmişdi, ancaq operatordan xəbər-ətər yox idi.

Dünya körpə uşaq papağı kimi Onun başına dar olmuşdu. Onun yadına birinci kursda oxuyanda krokodil dərisindən tikilmiş baha qiymətə aldığı çəkmələr düşdü - bu çəkmələr qəşəng olsa da Onun ayaqlarını sıxırdı, dar idi və satıcının dediyi kimi geyindikcə açılıb böyümürdü.

Krokodil dərisindən tikilmiş o qəşəng çəkmələrdən Ona sol ayağının çeçələ barmağında üzük qaşı boyda bir döyənək qalmışdı. İldə bir neçə dəfə sol ayağını isti suya salıb o döyənəyi yumşaldandan sonra öz əlləri ilə kökünə qədər kəsirdi, bir az da dərinə getməyə ehtiyat etdiyindən döyənək təzədən cücərirdi - özünün qırx, döyənəyin isə iyirmi bir yaşı vardı.

O, bunları xatırlayıb qurtaran kimi fikirləşdi ki, kiməsə danışmalı əməlli-başlı, bir xatirəsi də yoxdu- nə qədər baş-beynini ələk-vələk eləsə də yadına fərli bir şey düşmədi.

Neçə gün idi ki, operator Onu ev dustağı eləmişdi - məhkəməsiz, filansız; O ev telefonunun yanını kəsdirib oturmuşdu. Nəhayət beş gün yarım keçəndən sonra, nahar vaxtı telefon zəng çaldı. Operator idi, o dedi:

- Sabah səhər, gün çıxmağa yeddi dəqiqə qalmış alın yazınızın nöqtəsi qoyulacaq. Diqqətinizə çatdırıram ki, yeddi gün evdən bayıra çıxmayın - alın yazınız

qurumalıdır, qırmızı çernillə yazılıb, onu suçəkənlə qurulamaq olmaz. Sağ olun.

İstədi soruşsun ki, heç olmazsa bu dəfə babat bir şey yazıblarmı, əlaqə kəsildi, dud... dud... dud... dud... du...

Bir balaca rahatlaşıb yalnız özünün hiss etdiyi dərəcədə yüngülləşdi. Üz-gözündə isə bu rahatlıq hiss olunmurdu, nə vardısa içində idi - işartı. Bu işartı Onun içində gecə işıldayan böcək kimi özünü ora-bura çırpırdı, çırpınırdı.

Eyni ilə ikinci işartı da əmələ gəldi, qoşalaşdılar. İkinci işartı da birincinin hərəkətlərini təkrar eləyir və hərdən Onun içinin göylərində bir-birinə dəyib toqquşurdular da. Onun içində gecə işıldayan böcəyə oxşayan qoşalaşmış, cütləşmiş işartılar hər dəfə bir-birinə çırpılıb toqquşanda elə bil ki, balalayırdılar-çoxalırdılar.

Uçan, uça-uça toqquşub çoxalan işartılar, onun içindəki qatı qaranlığı kəsik-kəsik eləyib qaranlığın qanın tökdükcə vəcdə gəlirdilər və qaynaşdıqca Onun içində mikrofontan əmələ gəlmişdi ki, bu mikrofontandan su əvəzinə hörümçək torunun telləri naziklikdə, iynənin ucundan keçib gələn işıq şüaları gözəl bir mənzərə yaratmışdı - bir cüt göz istəyirdi ki, tamaşasına dursun.

Bu işıq fontanı işıq sürətilə işləsə də onun içi dolmaq və doymaq bilmirdi - içində müqayisə olunmaz dərəcədə böyük, bir ovuc torpaq qüdrətində olan ürəyi, onun içindəki işığı bir döyüntü müddətində təşnə bir nəfslə sümürürdü - deyəsən onun ürəyi qanla yox, işıqla döyünürdü, döyündükcə də işıq qan kimi onun bütün varlığına yayılırdı, üzünə çıxırdı, gözlərindən tökülürdü.

Bu vəziyyətdə O, adamdan çox işığa oxşayırdı - İşıq Adam. Bu vəziyyətdə O özünə baxsaydı gözləri qamaşardı, tez-tələsik gün eynəyi taxardı.

O, təzə yazılmış alın yazısına Allahın və Dünyanın varlığına etibar elədiyi qədər inanırdı.

Etibar eləməyi yaxşıdı...

İnanmağı yaxşıdı...

Qoy etibar eləsin. Qoy inansın...

Operator ona necə tapşırmışdısa elə də elədi, düz yeddi gün evdən bayıra çıxmadı - gözlədi ki, qırmızı çernellə yazılmış alın yazısı qurusun... Yeddi gündə bir dəfə də üzünü yumadı... Güzgüyə də baxmadı...

Yeddi günün tamamında səhərə yaxın yuxu gördü, gördü ki, onun alın yazısını bir may bayramında yazılan şüarlar kimi, uzun, enli, qar kimi ağappaq parçanın üstündə qırmızı hərflərlə yazıb şəhərin hər yerindən asıblar, camaat da dəstə-dəstə yığışıb bu qəribə şüarı - onun alın yazısını oxuyurlar, təəccüblənirlər, həm də sevinirlər.

O, bir nəfərə yaxınlaşdı:

- Gör ora nə yazılıb... gözüm yaxşı görmür.

- O boyda hərfləri görmürsən ki?

- Vallah görmürəm.

Həmin o bir nəfər başını qaldırıb on altı mərtəbəli binanın "alnına" yazılmış alın yazısını oxudu və çönüb Onun üzünə baxdı.

- Hə... nə yazılıb, - O soruşdu.

- Yadımdan çıxdı, qoy bir də oxuyum.

- Oxu.

- Hə... nə yazılıb, - bir də soruşdu.

- Yadımdan çıxdı, qoy bir də ...

- Oxu, oxu...

- Oxuyuram... qurtaran kimi yadımdan çıxır.

- Sən gicsən?

- Yox... professoram.

- Bəs niyə yadından çıxır.

- İnanın ki, bu birinci dəfədi... mənim yaddaşım çox güclüdü.

- Bəlkə elə indicə yaddaşın pozulub?

- Ola bilməz axı, - professor əməlli-başlı narahat oldu, əlini alnına qoyub gözlərini döydü.

Professorun gözünün qabağındaca O, başqa bir nəfərə yaxınlaşdı:

- Gör orda nə yazılıb... gözüm yaxşı görmür.

- O boyda hərfləri görmürsən ki?

- Vallah görmürəm.

Həmin o ikinci bir nəfər başını qaldırıb on altı mərtəbəli binanın "alnına" yazılmış alın yazısını oxudu və çönüb Onun üzünə baxdı.

- Hə... nə yazılıb, - soruşdu.

- Yadımdan çıxdı, qoy bir də oxuyum.

- Oxu.

- Hə... nə yazılıb, - bir də soruşdu.

- Yadımdan çıxdı, qoy bir də ...

- Oxu, oxu...

- Oxuyuram... qurtaran kimi yadımdan çıxır.

- Sən gicsən?

- Yox... həkiməm.

- Bəs niyə yadından çıxır?

- İnanın ki, bu birinci dəfədi... mənim yaddaşım çox güclüdü.

-Bəlkə elə indicə yaddaşın pozulub?

- Ola bilməz axı, - həkim əməlli-başlı narahat oldu, əlini alnına qoyub gözlərini döydü.

Həkimin gözünün qabağında o başqa birisinə yaxınlaşdı:

- Gör orda nə yazılıb... gözüm yaxşı görmür.

- ...

-...

-...

-...

- Oxuyuram, qurtaran kimi yadımdan çıxır.

- Sən gicsən?

- Yox, güləşçiyəm... Dünya çempionu.

-...

-...

-Oxuyuram , qurtaran kimi yadımdan çıxır.

- Sən gicsən?

- Yox ... şairəm, məni tanımadın ki?

-...

-...

- Oxuyuram, qurtaran kimi yadımdan çıxır.

- Sən gicsən?

- Yox... xanəndəyəm, məni tanımadın ki?

-...

-...

- Sən gicsən?

- Yox... müəlliməm.

-...

-...

- Sən gicsən?

- Yox... tələbəyəm.

-...

-...

- Sən gicsən?

- Yox... Generalam.

-...

-...

- Sən gicsən?

- Yox... mən biznesmenəm.

-...

-...

- Sən gicsən?

- Yox... nazirəm.

-...

-...

Sən gicsən?

- Yox...fəhləyəm.

Və bu fəhlə onun təpəsinə möhkəm bir yumruq ilişdirib dedi:

- Gicin yekəsi elə sənsən!

Təpəsinə dəyib gözlərindən qığılcım səpələyən yumruq Onun yuxusunu da cilik-cilik elədi. O, yuxusunun cilik-cilik olmuş qırıntılarını süpürgə ilə xakəndaza yığıb zibil vedrəsinə atan kimi özünə gəldi və özünə gələn kimi bir may bayramlarında, orta məktəb şagirdi olanda dediyi şüarı xatırladı. Şüarı həmişə o deyib, birinci sinifdən oxuduğu sinifə qədər - on il:

- Yaşasın hər şeyə qalib gələn böyük Marks, Engels, Lenin, Stalin nəzəriyyəsi, Urrraaaaa!!!

O, bu şüarı dodağının altında pıçıldayıb başını buladı, bilinmədi ki, o, bu şüarın məzmununa etiraz eləyir, yoxsa bu şüarın onun yadına düşməsinə - deyəsən heç özü də bunu bilmədi.

Durub dəhlizdəki bədənnüma güzgü ilə elə üzbəüz dayandı ki, elə bil güzgü ilə əlbəyaxa olacaqdı. Acıqla güzgüyə baxdı. Güzgü də acıqla Onu həmişəkindən balaca göstərdi, hər halda ona elə gəlirdi. Sonra O,güzgüyə dişlərini ağartdı və ona elə gəldi ki, güzgü onun əvvəlki boy-buxununu özünə qaytarmışdı. Bir az da güzgüyə yaxınlaşıb gözlərini alnına zillədi .

Sonra yavaş-yavaş, ehmalca alnını sığallamağa başladı. Alnı qupquru idi. O, alnını sığalladıqca inanırdı ki, alnının dərinliyində yazılmış cümlələr indicə zühr eliyəcəkdi. O da eynəyini taxıb oxuyacaq - ümid eləyirdi və ümid yeganə yaxşı şey idi ki, hamıda olur.

- Şükür sənin böyüklüyünə İlahi, min şükür... Səndən başqa heç kəsim yoxdu, hamısı özü üçündü... Şükür sənin böyüklüyünə.

Güzgünün şahidliyi ilə Allahını yadına saldı və Allahı yadına düşən kimi yadına qonşunun sözləri də düşdü:

- Deyirlər təzə dərman çıxıb... baş qarışıq olanda, namaz qılmağa vaxtın

olmayanda atırsan, vəssalam. Özü də üç cürdü: əllilik, yüzlük, yüz əllilik... Əlliliyi atırsan bir həftə bəs eləyir, namaz qılma... yüzlük on dörd gün, yüz əllilik isə bir aya bəs eliyir... Apteklərdə satıllar.

O, bərk əsəbləşən kimi qapqara qaralır. İndi də qaralmışdı:

- Görəsən müsəlmanlar nə vaxt İslama layiq olacaq?! Hə?!

Bu sualı özünə tez-tez versə də özündən bir əməlli -başlı cavab ala bilmirdi ki, bilmirdi.

- Görəsən müsəlmanlar nə vaxt İslama layiq olacaq?

- Sən dünyaya layiq olanda...

Cavabı, bu gün səhər-səhər, bədənnüma güzgünün qabağından aralanandan sonra, qonşunun aptekdə satılan dərman söhbəti yadına düşəndən sonra tapılmışdı və deyəsən bu cavabdan özü də razı qalmışdı - hər halda belə görünürdü.

O, əl- üzünü yudu, səhər yeməyini yeyib özünü evdən bayıra atdı - çöl-bayır üçün elə darıxmışdı. Elə bilirdi ki, çöldə, bayırda yeniliklər görəcək; ancaq hamam da köhnəydi, tas da; əksinə hamam bir az da bozarmışdı, tas da paxır bağlamışdı, qalaylayan lazım idi.

- Paxır qab qalaylayıram, paxır qaaaab!

Adamların da paxırı açılmamışdı, açılmaq bilmirdi ki, bilmirdi.

- Paxır adam qalaylayıram, paxır adaaaam!

Şəhərin də paxırı açılmamışdı, açılmaq bilmirdi ki, bilmirdi.

Bircə göylər alışıb yanırdı.

Adamlar istər-istəməz qarşılaşanda bir-birinin üzünə baxır, Onun da üzünə baxırdılar və ona elə gəlirdi ki, hamı onun üzünə yox, alnına baxır.

Olsun.

Adamlar onun alnına baxırdı.

O, alın yazısını da götürüb şəhərə çıxmışdı...

O adamların üzünə yox, alnına baxırdı və saçları alnına tökülmüş adam görəndə bərk əsəbləşirdi...

O elə rahat və yüngül gəzirdi ki, qarışqaların qaynaşdığı yuvanı tapdaladı, qarışqalardan birinin də burnu qanamadı. Ancaq bərk qorxdular, qışqırıb bir-birinə baxandan sonra, özlərinə nisbətən bu orta boylu pəzəvəngin dalınca söyüş söydülər, onun ölüsü-dirisi, anası-bacısı qalmadı, - tökdülər çölə. O isə nə qarışqaların qışqırtısını, nə də namus-qeyrəti də əhatə eliyən söyüşlərini eşitmədi.

Qarışqların - bu zəhmətkeşlərin səsini qarışqaların özlərindən, bir də arılardan başqa kim eşitmişdi ki?.. Heç kəs...

Bu həndəvərdə dolaşan üç-dörd arı qarışqaların səsinə uçub gəlmiş, hər şeyin qaydasında olduğunu görüb qanadlanmış və qanadları olduğuna görə Allaha şükür eləmişdilər.

Bir heylə qarışqanın içində tək bircəciyinin ayağı bekara əzilmişdi. O, da ayağa qalxdı, bəzi bicəltək futbolçular kimi ayağını çəkə-çəkə bir-iki addım atandan sonra o birilərə qoşulub sırada görünməz oldu. İndi o qarışqanı nə qədər axtarsan da tapa bilməzsən, çinlillər kimi hamısı bir-birinə oxşayır axı.

Bərk yorulmuşdu; çox gəzməkdən yox, təzə alın yazısının onun həyatını alt-üst edib yaxşı tərəfə dəyişəcəyini gözləməkdən yorulmuşdu. Oturmaq istəyirdi, ancaq boş yer yox idi - adamlar elektrik cərəyanı xəttinin üstünə düzülmüş, alabəzək qarğalar kimi oturacaqların üstünə düzülmüşdü, hamısı da danışırdı, diqqətlə fikir verib gördü ki, elə bütün park danışır.

"Görəsən bu adamlar nədən danışırlar, hansı məsələni həll eliyirlər... niyə yorulmurlar... Adam nə qədər danışar axı? Adam heç dil qəfəsə qoymaz? Bir belə danışmağın qabağında gərək dünya çoxdan cənnətə dönəydi, heç kim heç kəsin qəlbinə dəyməyəydi... nə qədər danışırlar əə, bunlar? Vallah, adamların başı xarabdı... Vallah..."

Birdən O, uzun bir oturacağı boş görəndə gözlərinə inanmadı. Az qala körpə uşaq kimi qaça-qaça gedib uzun oturacağın sol tərəfində, qıraqda əyləşdi. Qoltuğundakı qəzeti açıb məqalələrin başlıqlarını oxumağa başladı - onun stili beləydi, o qəzetləri belə oxuyurdu. Özü oxudu başlıqları, özü də şərhini verdi.

- "Avstraliyada səksən üç yaşlı bir qarı tək əli üstə dayanır"

- Halal olsun.

- "Fransa prezidenti Nikola Sarkozinin həyat yoldaşı, Karla Bruninin şəkilləri oğurlanıb".

- Cəhənnəmə oğurlansın.

- "Cinayətkar həbsxanadan vertalyotla qaçdı".

- Bax, buna halaldı.

- "Azərbaycan ədəbiyyatının boğazı sür-sümüklə doludur".

- Ədəbiyyatın boğazında sümük qalıbsa aparın çöpçüyə.

- "ABŞ Cənubi Qafqazda möhkəmlənmək istəyir".

- Allah heç xeyir verməsin.

- "İldə dörd milyon adam intihar eliyir".

- Allahın daxili işinə qarışırlar, olmaz.

- "Öz ana dilini bilməyənlər mənəvi pəltəklərdi".

- Düz sözə nə deyəsən! Əla!

- "Xalqın yox, həqiqətin yolunda ölmək olar, çünki xalq həqiqət deyil".

- Super! Super!

- "Bəşəriyyətin himni Yalandır!"

- Super! Super! Super!

- "Qırx beş yaşlı ata, on beş yaşlı qızını zorladı".

- Mən bir də qəzet alsam dünyada məndən oğraş adam yoxdu! Tfu! Tfu, sizin cəmdəyinizə!

Axırıncı cümlə onu təpədən-dırnağa qara geyindirdi, zəncilər kimi ancaq gözləri

ağarırdı, - elə bil o, bütün bəşəriyyətə göz ağartması verirdi.

Pis qoxu hiss elədi, kimsə oturacağın o biri kəlləsinə qusmuşdu, burda yarım vedrəyə qədər "qarışıq mallar" var idi. O qəzeti "zay məhsulun" üstünə sərib uzaqlaşdı və xeyli gedəndən sonra başa düşdü ki, niyə bu oturacaqda heç kəs əyləşmir.

Quşlar göylərdə uçmaqdansa adamlara yaxınlaşıb parkda onların ətrafında piyada gəzişir, hərdən Yer kürəsini dimdikləri çatan yerdən deşik-deşik eləyirdilər. Adamlarla beş-altı addımdan artıq "yaxınlıq" eləmirdilər, o saat qanadlanıb yenə adamların beş-altı addımlığında yerə qonurdular.

O, da başını başlara qoşmuşdu - gəzirdi. Onun qarşısında, lap yaxında bir cüt qumru quşu peyda oldu. O, dayanıb diqqətlə onlara tamaşa etməyə başladı. Deyəsən indi də quşların alnına baxırdı.

Quşların alnı tüklü olur və heç nə görünmür. Quşlar az qala onun ayaqlarına sürtünə-sürtünə yanından keçib getdilər. Bu, ona bərk toxundu ki, quşlar onu saya salıb qorxmadılar. O, quşlardan incisə də fikirləşdi ki, görəsən quşların da alnında yazı olur və əgər olursa, onların bapbalaca alnına onu Kim yazır, necə yazır.

Sonra isə özünə acığı tutdu ki, bəsdir də, nə qədər gic-gici şeylər fikirləşmək olar axı. Sonra da özünə elə o saat bəraət qazandırdı: ağlıma gələn budur də, neyləyim axı... Onu saya salmayan quşları da yadına salıb özünə bayaqkından da çox acığı tutdu: Xalxın kişiləri prezidentdən inciyir, sən də quşdan...

Onun quşlara həmişə yazığı gəlib, indi isə özünə yazığı gəldi və məzmunundan az-çox arxayın olduğu təzə alın yazısını yada salıb bir az ürəkləndi.

Payızda yarpaqlar ağaclardan seyrələn kimi adamlar da parkdan seyrəlmişdilər. İndi oturacaqlar, necə deyərlər, ağzı günə qalmışdı - əksəriyyəti boş idi və onun seçim imkanları çoxalmışdı.

Tək oturmaq istəyirdi- qırmızı ilə parıldayana qədər rənglənmiş oturacaqda əyləşən kimi altmış-altmış beş yaşlarında bir kişi əlindən tutduğu dörd-beş yaşlı oğlan uşağı ilə ona tərəf yaxınlaşırdı.

Belə də oldu; baba-nəvəyə oxşayan bu iki nəfər oturacağın o başında, onun yanında oturdular. O, istədi ki, durub qarşı tərəfdəki oturacağa keçsin, tək otursun, ancaq fikirləşdi ki, yaxşı deyil, ən çox da uşaqdan ya çəkindi, ya da ki, utandı-ayırd eləmək o qədər də asan deyildi.

Uşaq təpədən-dırnağa süzəndən sonra bir neçə dəfə Onun üzünə güldü. O, ciddi dayansa da özünü saxlaya bilmədi, uşağın təbəssümünə təslim olub bircə dəfə onun üzünə gülən kimi balaca, yaraşıqlı oğlan yerindən qopub onun yanına gəldi, üzbəüz dayanıb maraqla ona tamaşa eləməyə başlayanda O, qeyri-iradi özünü yığışdırıb iki əlini də saçlarına çəkdi, tumarlandı.

Onun bu hərəkəti uşağa gülməli göründü, elə güldü də: O da uşağa gülümsəməklə cavab verəndə uşaq bir addım da ona tərəf atdı,çox yaxın olduğunu, lap çənəsinin altına girdiyini hiss eləyib yarım addım geri çəkildi. Uşağın axırıncı hərəkəti ona xoş gəldi və uşaq da bunu hiss eləyib dedi:

- Bəs sənin nəvən hanı? - Uşaq çönüb babasına baxdı.

O, cavab verməmiş uşağın babası dilləndi, deyəsən həm də bir növ onun qanının arasına girdi, çünki bu suala cavab vermək istəmirdi.

- Ay uşaq, keç bu yana - baba başı ilə əks tərəfə işarə elədi.

- Uşaq o yana keçmək istəmir, - acıqlandı, - mən uşaq deyiləm, beş yaşım var, - sağ əlini açıb havada yellədə -yellədə barmağının beşini də babasına göstərdi, üzünü də bir az bozartdı.

- Keç bu yana, kişini incitmə, - babası iki ayağını bir başmağa dirədi, - kişini incitmə.

- Mən səni incitdim? - Üzünü Ona tutdu.

- Yox, yox. - O, tələsik cavab verdi.

- Eşitdin, - üzünü babasına çevirdi- mən onu incitmədim.

Uşaq işığa oxşayırdı. Bu işıq gözəl, yaraşıqlı, yapışıqlı idi və bu işıq onun ürəyinə axırdı; onun ürəyi indi də bu işığı sümürürdü; bildiyiniz kimi onun ürəyi qanla yox işıqla döyünürdü və bu döyüntülər balaca, yumru işıq zərrəciklərinə çevrilib onun damarlarında muncuq kimi düzülmüşdü. Gözünü uşaqdan çəkmirdi. Uşağın da baxışları onun baxışlarına ilişmişdi, pırtdaşıq düşmüşdü - düyün düşmüşdü... O düyünü açmaq kiminsə bəxtini açmaqdan çətin idi...

Baba Onun uşağa belə diqqətlə baxıb aludə olduğunu hiss eləyən kimi ayağa durdu, uşağa yaxınlaşıb onun yançağını nümayişkaranə şəkildə qaşıdı, oxunası mümkün olmayan bulanlıq nəzərlərini ani olaraq Ona tuşlayıb uşağa dedi:

- Gedək.

- Yox! Mən getmirəm! - Bir az mülayimləşib əlavə etdi,- mən getmirəm... mən onunla oynamaq istəyirəm, - Onu göstərdi , - O yaxşıdı.

- Vallah mənim gözümdə yoxdu... - O dilləndi.

Baba bir balaca bozardı:

- Gözünüz var? - Ondan soruşdu.

- Var...

-Deməli gözünüzdə də var.

Baba zorən Onun boynuna qoydu ki, bəli, sənin gözündə var. O, dinmədi və Baba belə hesab elədi ki, O, gözündə olduğunu boynuna aldı - rahatlaşdı.

Uşaq dilləndi:

- Sənin papağın yoxdu?

- Yoxdu, - O cavab verdi.

Uşaq başındakı ağ və uzun günlüyü olan papağını bir anın içində Onun başına qoyub dedi:

- Qoy sənin olsun... evdə ayrı papağım var.

O, uşağın babasına baxıb papağı qaytarmaq istəyəndə uşaq kövrəldi, səsi qırıq-qırıq oldu, qırıq-qırıq olmuş səsini uc-uca düyüb dedi:

- Qoy sənin olsun... - Uşaq yalvarıcı baxışları ilə o boyda kişini əritdi, işığı ilə onun gözlərini qamaşdırdı, - götürməsən ağlayacam... - bir an toxtayıb təzədən Onun gözlərinin içinə zilləndi, - sən istəyirsən mən ağlayım?

- Yox, - O, əlini başındakı ağ papağın günlüyündən çəkib dedi.

O, bu yaxşılığın qabağında uşağın borcundan çıxmaq istədi, mehriban və sakit şəkildə babasından soruşdu:

- Bunun adı nədi?

-Cavik.

- Cavik?

- Bəli, Cavik.. nədi ki?

- Heç...

- Yoox... sözlü adama oxşayırsan...

- Elə bir sözüm yoxdu... ancaq... Cavik uruscandı də... urusdarınan qurtardıq axı.

- Bəs onda nə təklif edirsiniz?

- Bunun əsl adı nədi?

- Cavid... - Babanın üzü az-maz bozardı.

- Elə Cavid deyin də, qəşəng addı ki.

- Bir hərfi dəyişməklə dünya dağılar ki? Cavi -d olmasın Cavi-k olsun... dünya dağılar ki, bir hərfinən?

- Dünya dağılmır ee, dağılmağa başlayır. - Onun bu cavabından duyulurdu ki, uşağın babasından xoşu gəlmir və ondan çəkinmir də.

Uşağın babası bunu duydu, elə bil bu tanımadığı adamdan bir az çəkindi və onun qarşısında geri çəkilməməklə yanaşı xudmani bir bəraət almaq istəyi ilə dedi:

- Bunun adını mən qoymuşam, Hüseyn Cavidin şərəfinə... eşitmisən, Hüseyn Cavid.

- Hüseyn Cavik kim olub ki?

- Mənim sözüm yoxdu! - Uşağın babası yüngülvari əsəbiləşdi, - sən nəçisən? - İkrah hissini güclə boğdu.

- Bekaram.

-Bekar olmamışdan qabaq nəçiydin?

- Bekar...

- Heç vaxt işləməmisən?

- Yox

- Bəs nəyinən dolanırsan?

- Dədəmdən çoxlu mal-dövlət qalıb.

- Çoxlu deyəndə ki nə qədər? - Uşağın babası bərk maraqlandı.

- Qədərini bilmirəm... ancaq onu bilirəm ki, başımı açıb iyirmi ildi bir ucdan xərcləyirəm, qurtarmaq bilmir.

- Dədən nəçi olub ki?

- Kolxoz sədri... Qırx il... mən də evin tək uşağı olmuşam... Qarabağ müharibəsi başlayanda da kolxozun at ilxısını, mal-qarasını, qoyun-quzusunu, nəyi vardısa, qorumaq adıyla Arazın o tərəfinə keçirdib bir həftənin içində satdı, sovdu, yığdı başının altına... İldə iki-üç dəfə dünya səyahətinə çıxıram, bahalı otellərdə yaşayıram. Adlı-sanlı kişi olub mənim dədəm, zirəng adam olub.

- Bəs dədəndən soruşan olmadı ki...

- Nəyi?

- Xalqın malını neyləmisən?

- Kimin malını? - O da bozarmaq istədi.

- Xalqın.

- Xalq kimdi, ay müəllim?

- Xalq də xalq... Azərbaycan xalqı...

- Onun xalq olmağına hələ çox qalıb... hələ heç həddi buluğa çatmayıb... Ancaq Sovet hökuməti dağılmasaydı dədəmin dərsini boğazından çıxardardılar. Rəhmətlik həmişə deyərdi ki, mən aparmasaydım erməniyə qalacaqdı də... Düz deyirdi.

O, quraşdırdığı yalana özü də inanandan sonra uşağın babasına dedi:

- Müəllim, sən nəçisən?

- Universitetdə müəlliməm.

- Nə dərsi deyirsən?

- Politologiya

- Sən Allah düz deyirsən?

- Düz deyirəm... nədi ki? Oxşamıram.

- Yox... Niyə oxşamırsan. Mənim bir qohumum var, o da univerisitetdə politologiya dərsi deyir. Ancaq əvvəllər elmi ateizmdən dərs deyirdi... - Onun üzünə baxdı, - dedim görüm sən də heyləsən?

- Yox, yox... biz seyid nəslindənik... - Boynuna almadı.

-Əsl seyidsiniz? Doğruçu seyid?

- Bəli... Seyidin də doğruçusu, yalançısı olur?

- Olur.

- Sən nə danışırsan, - istədi desin boş-boş danışma, ancaq özünə məxsus bir həya elədi.

- Qulaq as, müəllim. Sən belə şeyləri məndən yaxşı bilərsən; ərəb istilası dövründə ərəblər bizim qızlarla siğə eləyib evlənirdilər, beş-altı uşaqları olurdu. Zamanı gələndə onlar öz vətənlərinə qayıdırdılar, ərəblərdən bizim qızlara qalan beş-altı uşaq olurdu; aliment, ya bir maddi kömək istəyəndə də deyirdilər ki, get, sənə seyidlik verdim, get dolan - deyirəm bəlkə sən də işğalçılardan əmələ gəlmə seyidlərdənsən...

- Yox, yox, biz seyidik, özü də...

- Müəllim, ancaq kolxoz yaxşı şey idi... - Qəsdən mövzunu dəyişdi.

- Baba, kolxoz nədi? - Uşaq soruşdu.

- Uzun zırıltıdı... - Babası ağlı kəsən kimi cavab verdi.

- Baba, zırıltı nədi?

- Yekələndə bilərsən.

- Mən indi bilmək istəyirəm , - çönüb Ona da baxdı.

- Kəs səsini- Babası boz ay kimi bozardı.

- Kəsmirəm! - Uşaq şirin bir hikkə ilə dillənsə də səsini də kəsdi. Deyəsən bir az da Onun yanında pərt olmuşdu - uşaq pərtliyi...

Uşağın pərtliyi də özünə oxşayırdı - gözəl idi və böyüklər heç vaxt belə gözəl pərt ola bilməzlər.

Uşaq başını aşağı salıb gözlərini uzun müddət bir nöqtəyə zillədi - kiprik də çalmırdı. Uşaq oturacaqdan beş-altı addım geri çəkildi, əvvəlcə babasına, sonra isə Ona böyüklərə məxsus əda və diqqətlə baxdı, aralığa bir sual verdi:

- Ateizm nədi?

İkisi də birdən cavab verdi:

- Böyüyəndə bilərsən. - Babası dedi.

- Allahsızlıq! - O dedi.

- Uşağın yanında hər sözü danışma, - Babası dedi.

- Mən nə dedim ki?

- Mən uşaq deyiləm, beş yaşım var, - bunu da uşaq dedi.

- Mən səni tanıyıram... sən universitetdə mənə Ateizmdən dərs demisən. - O ağla - güman hücuma keçdi, yalan dedi.

- O vaxt zəmanə heylə idi... Elə sən də mənə tanış gəlirsən, ancaq çox dəyişmisən. - Müəllim çox tez və rahat boynuna aldı.

- Sən isə dəyişməmisən.

Müəllim hər şeyi boynuna alıb pərt oldu - Onun əməliyyatı baş tutmuşdu. O, istədi bir az dərinə getsin, uşaqdan keçmədi, yalnız bir sualla kifayətləndi:

- Sən bu uşağın ata tərəfdən babasısan, yoxsa ana tərəfdən?

- Ana tərəfdən... qızımın oğludu.

- Həəəə... - O bundan artıq heç nə demədi. Elə uşağın babası da susdu. Uşaq isə heç nə başa düşmədi.

- Baba mən marojna istəyirəm.

- Olmaz, anan icazə vermir.

- Almasan Ona deyəcəm alsın... Alarsan? - Uşaq sualı qəfil verdi. Əgər O desəydi ki, almaram namərdlik olardı, uşaq sınardı və O, uşağın gözündən düşərdi. O isə bunların heç birini istəmirdi, dedi.

- Alaram.

Uşaq özündən razı halda, gülə-gülə babasına baxıb susdu, yəni: indi sözün nədi? Baba hərəkətə gəldi:

- Sən narahat olma, özüm alaram - deyib ayağa durdu və maşınların gur yerindən keçib yolun o üzündəki maqazinə girdi. Babası gedən kimi uşağ Onun dizinin üstündə oturub boynunu qucaqladı. Onun qulağına pıçıldadı:

- Babam pisdi .

- Elə söz demək olmaz.

- Babam pisdi.

- Niyə?

-Sən yaxşısan.

- ...

- Mənim babam olarsan?

- Olaram.

- Mən sənnən getmək istəyirəm.

- ...

- Dur gedək sizə... gəlsin görsün ki, yoxuq... marojnanı da özü yeyər..

Uşaq onun boynunu qollarının arasında sıxdıqca kol dibində qorxudan bitmiş bənövşə kimi tir-tir əsirdi - uşağın öpüşləri də titrəyirdi.

- Mən babamla getmiyəcəm... Sən aparmasan... - Uşağın səsi qırıldı. O, uşağı bağrına basıb ürəyinin başına sıxanda bütün vücuduna ılıq bir rahatlıq hopdu - elə uşaq da ilamar olmuşdu.

- Bu da marojna ... ancaq yarısını yeyərsən, boğazına...

- Yarısını da Ona verəcəm... istəyirsən?

- Hə... - O dedi. Sonra da uşağın qulağına pıçıldadı:

- Bu gün işim var, sabah gəlib səni bizə apararam:

Uşaq da onun qulağına pıçıldadı: - Yox!

- Yellənçəyə minmək istəyirsən? - Babası soruşdu.

- Yox!

- Karuselə istəyirsən?

- Yox!

- Kabab yemək istəyirsən, lüləkabab?

- Yox!

- Bəs nə istəyirsən?

- Bunun qucağında oturmaq istəyirəm! - Uşaq babasının gözünün qabağında Onun əlini özünə sürtdü. O da quruyub qalmışdı -çaşmışdı.

Bir uşaq keçən əsrdən qalma kişiləri elə çaşdırmışdı ki...

Beş-on gündən sonra O, hərlənib-fırlanıb yenə gəldi parka: adamların çoxluğunda onu da özü üçün dəqiqləşdirdi ki, elə həmənki marşurutla gəzirlər, dala qabağa, dala qabağa; marojna yeyirlər, tum çırtlayırlar, pıçıldaşırlar, danışırlar, qışqırışırlar - hamam bir az da köhnəlmişdi, tas bir az da paxır bağlamışdı.

Hələ parka gələnə qədər uşağı tez-tez xatırlamışdı, uşağı xatırlayanda istər-istəməz babası da yadına düşmüşdü elə uşağın böyründəcə - tək yox...

O günü onlar ayrılıb gedəndə uşağın son pənah yeri kimi ağlaya-ağlaya ona baxıb qışqırmasını heç cür nə unuda bilirdi, nə də özünə bağışlaya bilirdi. Günahı olmadığını bilsə də özünü günahkar hesab eləyirdi: "Gərək bir şey fikirləşərdin... nə fikirləşərdin..." Bax, bu yerdə ilişirdi, tələyə düşmüş çöl heyvanı kimi çırpına-çırpına qalırdı.

O, burdakı-parkdakı yüzlərlə adamı üzdən tanısa da , onların eyni marşurutla xırman atı kimi hərəkət etdiyini dəfələrlə müşahidə etsə də bu çoxluqda, bu tünlükdə o qədər də darıxmırdı.

Uşağın isə ondan ayrıldığı bu neçə gündə, bərk darıxmağı bir yana, bu boyda böyük şəhərdə, bu boyda böyük, qədim şəhərdəki o boyda villada və nəhayət o boyda villalarındakı o boyda zəngin otağında özünə yer tapa bilməməsi də başqa bir yana - nə yeyirdi, nə içirdi, xiffət eləyirdi, valideynlərinin gözünün qabağındaca əriyə-əriyə, kövrələ-kövrələ deyirdi ki, "o babanı" istəyirəm.

"O babanı" tanıyan yeganə bir adam vardı ki, o da "bu babası" idi. Və bu babası o babasının nə adını - familiyasını, nə də yaşadığı yeri bilmirdi. O babasının haqqında heç bir məlumatı olmayan bu babasının əlindən bircə şey gəlirdi ki, səhərdən axşama qədər parkı ələk-vələk eləyib o babanı tapmaq və əhvalatı bütün təffərüatı ilə danışıb onu dilə tutmaq, onu evə aparıb nəvəsi ilə görüşdürmək, vəssalam. Bu babasının axtarışları isə hələlik heç bir nəticə verməmişdi.

İndi o boyda villa suyu sovulmuş dəyirmana oxşayırdı, yeyib içdikləri də zəhər olmuşdu. Bu babası hər dəfə axtarışdan qayıdanda onun tək qayıtdığını görsə də uşaq soruşurdu:

- Tapmadın? Hə? Tapmadın?!

Uşağın soruşduğunu eşidən anası isə ayrıca soruşurdu:

- Tapa bilmədin?

- Yox...

- Bayaqdan atası üç-dörd dəfə zəng eləyib...

Uşaq təzə söz eşitmək arzusu ilə anasının da sualının cavabını gözləyib otağının qapısını çırpdı, öz otağına - özünə çəkildi...

Bu uşağı dörd yaşı tamam olandan bir-iki gün sonra şəhərin ən gözəl, müasir baxçalarından birinə qoysalar da, çox az müddət duruş gətirib və nahardan sonra baxçanın "konstitustyası"nın tələblərinə uyğun gəlmədiyinə (davranış) və direktor qadını uşaqların və tərbiyəçilərin gözünün qabağında təhqir etdiyinə görə qovublar, ad-familyasını isə kompüterə salıblar ki, belə xüsusi təhlükəli bir uşaq peyda olub, ehtiyatlı olun. İndi bu uşağı heç bir baxçaya qəbul etmirlər, hamı ondan imtina edir.

...Bağçada onun birinci naharı vaxtı yeməkxanada yanında oturan uşaq onun boşqabına tüpürüb, o da, gözünə döndüyüm, götürüb boşqabındakı qaynar supu töküb həmin uşağın başına - lap dustaqxanalardakı kimi, sonra da başlayıb beş yaşlı uşaq öz yaşıdını necə boğmağa cəhd edərsə eləcə...

Tərbiyəçilər uşağı uşağın əlindən ala bilmirlər, direktoru köməyə çağırırlar, o qaça-qaça gəlir, uşağın sifətinə tərs bir şillə çəkir. Uşaq uşağın boğazını buraxıb onu vuran qadına qəlbindən nə keçirsə onu deyir:

- Qancıq!

Evdə-ailədə qurulan "məhkəmədə" atası ondan soruşdu:

- Bu sözü kimdən eşitmisən?

- Polis əmidən, parkda... baba da eşitdi.

- Polis əmi kimə dedi?

- Tumsatan xalaya... baba da eşitdi.

- Sənə ayıb olsun. - Atası başını buladı.

- Ayıb olsun nədi? - Uşaq gözünü atasına zillədi.

Atası başını bulayıb cavab vermədi, əslində isə dərinə getmək istəmədi və bununla da "məhkəmə" öz işini yekunlaşdırdı. Sonra anası ayrılıqda atasına dedi:

- Camaatın uşağını orta məktəbdən, universitetdən qovurlar, bizimkini də bağçadan... bunun axırı noolacaq, hə?

- Bilmirəm ... - atası ağzını sürüyə-sürüyə cavab verdi.

O uşağın cəmiyyət içinə ilk çıxışı bax belə uğursuz olmuşdu.

- Gör saat neçədi, sən hələ evdəsən? - Uşaq əsl babasına dedi.

- Çayımı içim qurtarım, indi gedirəm.

- Sən nə qədər çay içirsən axı... doymursan?

Baba axırıncı qurtumuna qədər içib ayağa duran kimi uşaq gözünü ondan çəkmədi. Baba ayağa duran kimi, uşaq anasına dedi:

- Mən də gedirəm... mən getsəm onu taparam, bu, - babasını göstərdi - özü istəmir.

- Olmaz. - Anası dilləndi.

- Qoymasan evdən qaçacam! - Uşaq bunu elə ciddi dedi ki, anası əməlli-başlı qorxuya düşdü.

Baba-nəvə evdən çıxıb yaxınlıqdakı parka üz tutdular.

Uşaq elə sevinirdi ki, elə bil dünyanı sənədlə ona bağışlayıb altına da bütün dövlət başçıları imza qoymuşdu. Ancaq Dünya uşağın nəyinə lazım idi; ona - onun özü demişkən, axtardığı o Təzə Baba lazım idi.

- Baba, əgər təzə baba bizə gəlməsə mən onlara gedəcəm...

- Mən yalvarıb -yaxararam gedər bizə, qorxma.

- Qoy iki babam olsun.

Bu əsl babanın ürəyincə olmasa da razılaşdı:

- Olsun... olsun... - güclə dilləndi.

- Həmişə də bizdə qalsın...

- Deyərəm qalar...

Uşaq çönüb babasının üzünə baxanda ovqatı təlx oldu:

- Baba, sən onu tapsan, mən səni də çox istəyəcəm. - Babasının qarşısında öz hümanitar hisslərini nümayiş elətdirib onun böyük əlini sıxdı, gözünün içinə dik baxdı.

- Taparam... taparam...

Babası cib telefonunu çıxarıb açdı:

- Alo...Bəli, bəli, parkdayam, yox hələ, axtarırıq... inşallah... Atandı. - Nəvəsinə dedi.

- Atam yaxşıdı. - Uşaq cavab verdi.

Telefona ikinci zəng gəldi:

- Alo... Bəli, bəli, parkdayam, yox hələ, axtarırıq... inşallah. Anandı, - Nəvəsinə dedi.

- Anam yaxşıdı... Anama demişəm ki, təzə baba bizdə qalacaq...

- Bəs anan nə dedi? - Əsl baba böyük narahatlığını biruzə verib soruşsa da uşaq bunu hiss eləmədi.

- Dedi ki, qalsın... anam yaxşıdı...

... Əsl baba, təzə baba, ata, ana və uşaq ikinci mərtəbədəki qonaq otağında əyləşib şam eliyirdilər. Əsl baba, ata, ana təzə babaya arabir suallar verib cavab alırdılar. Hər dəfə təzə sual veriləndə uşaq onlara deyirdi:

- Qoyun babam yeməyini yesin də.

Balaca uşağın özü boyda balaca cümləsi hər dəfə əsl babanı, atasını, anasını diksindirsə də, heç kəsin tanımdaığı bu adamın "baba statusunu" özü üçün müəyyənləşdirib qərarını vermişdi.

Qulluqçular süfrəni yığışdıran kimi uşaq təzə babadan soruşdu:

- Şahmat oynaya bilirsən?

- Hə... oynaya bilirəm.

Uşaq sevindi:

- Babam oynaya bilmir. - Əsl babasını göstərdi.

Əsl baba pərt oldu.

- Atam da oynaya bilmir- Atasını göstərmədi. Ata pərt olmadı.

Oyun başladı,yarım saata qədər çəkdi, əsl baba, ata, ana oyunçuların başına yığışıb uşağa azarkeşlik edirdilər. Uşaq axıra yaxın dörd-beş dəqiqə fikirləşdi, azarkeşlərini, axırda isə rəqibini bic, körpə təbəssümlə süzüb:

- Şah! Mat! - dedi, əl çalıb özünü alqışlayandan sonra qroysmeyster ədası ilə ayağa qalxıb nəzakətlə rəqibinini əlini sıxdı. Rəqib alın yazısının pozulduğuna və təzədən yazıldığına möhkəm inanıb uşağa tərəf əyildi, onun üzündən öpüb özünə tərəf çəkəndə şahmat taxtası yerə düşdü, fiqurlar otağın hər tərəfinə dağıldı.

Şah, vəzir, fil, at, piyadalar-hamısı böyrü üstə, hərəktsiz qalmışdı- sən demə fiqurlar ancaq şahmat taxtasının üstündə nəyi isə həll etmək iqtidarındadırlar - döşəmə taxtasının üstündə heç nədilər - köməksiz...

Təzə baba buna başqa məna veridyinə görə dəhşətə gəlmişdi - fiqurların döşəmənin üstündə belə dağılması ona az qala dünyanın dağılması kimi gəlirdi - dünyanın taleyi ilə oynayan, onu idarə eliyən fiqurların dağılması kimi...

Təzə babanın təskinliyi bu oldu ki, dünyanın Ən böyük şahmatçısını udmağın ləzzəti, onun boynunu qucaqlayıb tir-tir əsən bu uşağa uduzmağın ləzzətinin yanında heç nədi - buna möhkəm inandı - işığa çönüb göz qamaşdırdı...

lll

O, bu evdə təzə alın yazısı ilə bərabər arzuolunmaz şəxs idi - uşaq bağçada arzuolunmaz şəxs olan kimi...

Dünyanın o vaxtı idi ki, Quş dünyanın ən hündür zirvəsinə qonub ordan necə asqırdısa bütün sivil bəşəriyyət qorxusundan girməyə siçan deşiyi axtardı.

Dünyanın o vaxtı idi ki... Quş dünyanın ən hündür zirvəsindən enib Donuzun belinə qonmuşdu, ara vermədən, Donuzun belini dimdikləyirdi, dimdikləyirdi, elə

bil Donuzun belindən deşik açmaq istəyirdi... Donuz oğlu Donuzun isə vecinə deyildi, dornuzluğuna salmışdı, tükü də tərpənmirdi...

Dünyanın o vaxtı idi ki, adamların nəfsi Allahın ayağının altına qədər gedib çatmışdı və Allah ayaqlarını altına yığıb oturmuşdu - iyrənirdi...

Dünyanın o vaxtı idi ki, dünya donuzlarının ağzının suyu torpağa axırdı, torpaq nəm olurdu, sonra bu nəmişlik okeanlara, dənizlərə, çaylara, bulaqlara sızırdı...

Dünyanın bütün suları bir-birilə əlaqədardı; məsələn bizim kənddəki Əsgərxan bulağıynan Sakit okeanın da əlaqəsi var və bu da heç kəsin vecinə deyil. Heç olmasın, uşağın Təzə Babasına deyəcəm ki, o da vecinə olmasın, bu, mənim əlimdə heç nədi, qələmdi də...

Dünyanın o vaxtı idi ki, qoca bir balıqçı dənizdə gördüyü dəhşətli hadisəni mobil telefonu ilə lentə almışdı; İrili-xırdalı balıqlar Sudan göyə tullanıb asqırırdılar...

Dünyanın o vaxtı idi ki, müasir, mükəmməl Ordu sistemində əsasən üç tərəfdən hücum əməliyyatı mövcud idi: Quş kimi havadan, Dönuz kimi qurudan, Balıq kimi sudan...

Təzə, ancaq bir az köhnəlmiş baba ilə, təzə ancaq bir az köhnəlmiş nəvə, birinci dəfə oturduqları köhnə, ancaq təzə rənglənmiş oturacağın üstündə yan-yana oturmuşdular. Sonra qucaqlaşdılar.

- Dincələk?- O, dedi.

- Dincələk... - Uşaq şirin-şirin razılaşdı. Bir az da bir-birinə sıxılıb canbir qəlb oldular, yorulmuşdular, mürgü döyə-döyə yuxuladılar - oldular bir Adam. Və bu Bir Adam yuxuda gördü ki, ömründə heç vaxt rastlaşmadığı üçbaşlı (quş, donuz və balıq başı) bir canlı ona deyir:

- Özünkülərə de ki, biz onları Persona nonqrata elan eləmişik, iyirmi dörd gün vaxt veririk, Yer kürəsini tərk etsinlər.

- Özümünkülər kimdi?

- Adamlar...

Sonra da Bir Adam yuxuda görürdü ki, Dünyanın Quşlarının, Donuzlarının və Balıqlarının paradı keçirilir...

O qan-tər içində yuxudan ayılan kimi uşaqdan soruşdu:

- Yuxu görmədin ki?

- Gördüm ancaq yadımda qalmadı.

- Çalış yadına salasan.

- ...

-...

- Hə... yadıma düşdü... Yuxuda quş gördüm... Hə... bir də donuz. O birisi yadımda deyil.

- Qulaq as, - O, dedi, - bu çox vacibdi, - balıq deyildi ki?

- Hə... hə... balıq idi, balıq. - Uşaq sevindi. İki adamın eyni vaxtda eyni yuxu görməsi ilahi bir saflıqdı - onlar doğurdan da qucaqlaşıb yatanda Bir Adam olublar - bir Adam...

O, uşağı sağ əli ilə qucaqlayıb Özünə çəkdi, xeyli hazırlaşandan sonra istədi Ona desin ki, "mən öləndə baş daşıma Quş, Donuz, bir də Balıq şəkli həkk eləyin" - demədi, Ona qıymadı...

**9 may 2009-cu il**